RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 108 (9853) 25 may 2025-ci il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# İlham Əliyevin praqmatik siyasəti

## Azərbaycanı beynəlxalq nəqliyyat sahəsində də ön sıraya çıxarıb

17 oktyabr 1953-cü ildə Brüsseldə yaradılan Beynəlxalq Nəqliyyat Forumu (BNF) nəqliyyat siyasəti sahəsində fəaliyyət göstərən hökumətlərarası beynəlxalq təşkilatdır. 53 il Avropa Nəqliyyat Nazirləri Konfransı (ƏNNK) adı ilə fəaliyyət göstərən təsisat 2006-cı ildə Dublin Bəyannaməsi əsasında qlobal bir təşkilata çevrilib və adını Beynəlxalq Nəqliyyat Forumu (BNF) olaraq dəyişdirib. Bu dəyişiklik təşkilatın fəaliyyətini yalnız Avropa ilə məhdudlaşdırmaqdan çıxararaq, bütün nəqliyyat növlərini əhatə edən qlobal bir platformaya çevrilməsini təmin edib. BNF indi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) çərçivəsində üzv ölkələrin nəqliyyat siyasətinin formalaşmasında beynəlxalq əməkdaşlıq platforması kimi fəaliyyət göstərir.

Forumun əsas məqsədi davamlı olaraq təhlükəsiz, effektiv, inklüziv nəqliyyat siyasətinin formalaşdırılmasını, həmçinin də təşviqini, üzv ölkələr arasında nəqliyyatla bağlı təcrübə və məlumat mübadiləsini dəstəkləməkdir. BNF-nin qarşıya qoyduğu məqsədlərdən biri də qlobal səviyyədə nəqliyyatın iqtisadi, sosial və ekoloji aspektlərini təhlil edən araşdırmalar aparmaqdır. Azərbaycan tamhüquqlu üzv olaraq 2008-ci ildən bəri qurumda iştirak edir. Bununla da ölkəmiz nəqliyyat sahəsində beynəlxalq trendləri izləmək, regional layihələrini tanıtmaq və siyasət dialoquna qoşulmaq imkanı qazanıb. BNF hər il Leypsiqdə illik sammit həyata keçirir. Bu tədbir dünya üzrə nəqliyyat nazirləri, sənaye nümayəndələri, akademiklər və vətəndaş cəmiyyəti arasında fikir mübadiləsi aparmaq üçün beynəlxalq platforma kimi diqqət çəkir.

3



# Dost ölkə, etibarlı tərəfdaş və qarşılıqlı etimad

Prezident İlham Əliyevin mayın 20-də Baş nazir Viktor Orbanın dəvəti ilə Avropa İttifaqının üzvü olan Macarıstana səfəri ölkələrimiz arasında əlaqələrin tarixində çox mühüm hadisə oldu. Macarıstana işgüzar səfər edən Azərbaycan Prezidenti İlham Əliyevin Budapeştdə Baş nazir Viktor Orbanla geniş tərkibdə görüşü keçirildi. Görüş başa çatandan sonra liderlər mətbuata bəyanatla çıxış etdilər. Viktor Orban çıxışında iki ölkə arasındakı əlaqələrin daim genişləndiyindən söz açaraq Azərbaycana olan xoş münasibətini xüsusi olaraq vurğuladı: "Siyasi sahədə, enerji məsələsində nə zaman çətinliklə üzləşsək, Prezident İlham Əliyevi yanımızda görmüşük".

4

# Prezidentin qətiyyəti, ədalətin bərpası



Ötən ayın əvvəllərində ADA Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda keçirilən beynəlxalq forumda Prezident İlham Əliyev bu hadisə ilə bağlı demişdir ki, iki ölkə arasında əlaqələrin tam normallaşdırılması üçün bu terror hadisəsini törədən və arxasında dayanan hər kəs mühakimə edilməli və cəzalandırılmalıdır: "Təkcə bu terror hadisəsini törədən şəxs deyil, onun arxasında dayananlar, onu Azərbaycan səfirliyinə göndərənlər də məsuliyyətə cəlb olunacaq. Bununla yanaşı, yeni administrasiya ilə bizim işgüzar əlaqələrimiz var, onlardan gözləntimiz bu məsələni həll etməkdir. Biz orada siyasi sistemin mürəkkəbliyini, icra hakimiyyətinin məhdud imkanlarını anlayırıq. Biz bunları bilirik, ancaq iki ölkə arasında əlaqələrin tam normallaşdırılması üçün bu terror hadisəsini törədən, onu təşkil edən və bu hadisənin arxasında dayanan hər kəs mühakimə edilməli və cəzalandırılmalıdır".

Prezident İlham Əliyev bu forumda da beynəlxalq ictimaiyyətə, eləcə də İran tərəfinə Azərbaycanın prinsipial mövqeyini açıq və birmənalı şəkildə çatdırdı. Bu həm də Azərbaycan vətəndaşının təhlükəsizliyinin hər şeydən üstün olmasının mesajı idi.

4

# Tirana zəfəri Azərbaycan-Avropa İttifaqı münasibətlərinin yeni dönəmidir



Hələ bu toplantıdan öncə Aİ rəsmilərinin Azərbaycana səfərləri intensiv xarakter daşıyırdı. Yanvar ayında Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta Prezident İlham Əliyevə zəng edərək ikitərəfli münasibətlərin perspektivini müzakirə edib. Buraya ilk növbədə tərəflər arasında "nəqliyyat, Orta dəhliz marşrutu və Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu" daxildir. Bu ilin aprel ayında isə Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas ölkəmizə səfər edib. Prezident İlham Əliyevlə görüşdə əməkdaşlığın müxtəlif aspektləri geniş müzakirə edilib.

Tiranada isə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen və Fransa Prezidenti Emmanuel Makronla keçirdiyi görüşlər siyasi-diplomatik dairələrdə böyük maraqla qarşılanıb. Çünki həmin görüşləri ekspertlər iki aspektdən əhəmiyyətli sayırlar.

Əvvəla, Avropanın yüksəkvəzifəli rəsmiləri Azərbaycan Prezidentinə böyük sayğı ilə yanaşırlar. E.Makronun xüsusilə İlham Əliyevə münasibətində müsbət tərəfə yeni jestlər etməsi diqqət çəkir. Bu, Prezident İlham Əliyevin fəaliyyəti ilə Qərb siyasi dairələrində böyük hörmət qazanmasının vacib əlaməti kimi şərh edilir.

4



# Ədalətə qayıdış

## Qərbi azərbaycanlıların sülh yolu ilə doğma torpaqlarına dönüşü təmin olunacaq

Ermənistan bu gün də beynəlxalq aləmdə özünü sülh tərəfdarı kimi təqdim etməyə çalışır, reallıqda isə bu ölkə regionda sülhə qarşı başlıca maneədir. Onun əsas məqsədi Azərbaycanla etibarlı sülh müqaviləsindən yayınmaq, revanşist əhvali-ruhiyyəni saxlamaq və Qərbi Azərbaycan mövzusunu unutdurmaqdır. Amma nə Azərbaycan dövləti, nə də xalqı bu tarixi ədalətsizliyi unudacaq.

6

# Üç dənizin əfsanəsi

## BTC-yə ilk neftin vurulmasından 20 il ötür

Bu kəmərin bir əhəmiyyəti də ondan ibarətdir ki, özündən sonra neçə-neçə digər layihəyə yol açıb. Başqa sözlə, Bakı-Tbilisi-Ceyhandan başlanan yol geniş dəhlizlərə qovuşub. BTC-nin çəkilişini tarixi hadisə adlandıran Prezident İlham Əliyev onu həmişə yüksək dəyərləndirir: "Əgər o kəmər olmasaydı, Azərbaycan öz neft və ondan sonra qaz potensialını dünya bazarlarına çatdıra bilməzdi. Beləliklə, dəhliz yaradıldı. Xəzər dənizi-Qara dəniz-Aralıq dənizi əməkdaşlıq formatı formalaşmışdır. Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan bu gün uğurla fəaliyyət göstərir və başqa ölkələrə də xidmət edir. Dəhliz formalaşandan sonra əlbəttə ki, Azərbaycan öz tranzit rolunu oynamağa başlamışdır. Bu gün biz qeyd edə bilərik ki, artıq Azərbaycan öz coğrafi vəziyyətindən, logistika imkanlarından tam şəkildə istifadə edir".




BTC həm də təhlükəsiz kəmərdir. Qeyd edildiyi kimi, bu xəttin boruları bütün marşrut boyu torpaq altında basdırılıb. Bu da müasir dövrdə karbohidrogenlərin ən etibarlı nəql vasitəsi sayılır. Onu da əlavə etmək yerinə düşər ki, BTC-nin bir hissəsi 2023-cü ildə Türkiyənin zəlzələyə məruz qalan ərazilərindən keçir. Bununla belə, kəmərin istər boruları, istərsə də yerüstü qurğuları heç bir zədə almadı.

8

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282, (II kitab), maddə 1345; 2025, № 2, maddə 96; Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 135-VIIQD nömrəli, 28 fevral tarixli 144-VIIQD nömrəli, 18 mart tarixli 158-VIIQD, 161-VIIQD nömrəli və 11 aprel tarixli 172-VIIQD nömrəli qanunları) 30.6.17-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 30.6.18-ci maddə əlavə edilsin:

"30.6.18. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sorğusu əsasında kənd təsərrüfatı sahəsində subsidiyalara, güzəştli kreditlərə, kənd təsərrüfatı istehsal vasitələrinin güzəştli şərtlərlə satışına və lizinqinə nəzarət edilməsi, habelə ərzaq məhsullarının (dövlət ehtiyatları üçün alınan ərzaq məhsulları istisna olmaqla) mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması məqsədləri üçün zəruri olan hədlərdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma).".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2025-ci il*

# "Təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrinin aparılması Qaydası"nın təsdiq edilməsi və "Təhlükə potensiallı obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsi Qaydasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 oktyabr tarixli 167 nömrəli Qərarının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 163** **Bakı şəhəri, 21 may 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Texniki təhlükəsizlik haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 mart tarixli 347 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrinin aparılması Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Təhlükə potensiallı obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsi Qaydasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 oktyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 10, maddə 662 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# "Alkoqollu içkilərin pərakəndə satışına dair minimum qiymətin müəyyən edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 164** **Bakı şəhəri, 22 may 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 105-VIIQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 yanvar tarixli 291 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Alkoqollu içkilərin pərakəndə satışına dair minimum qiymətin müəyyən edilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 noyabr tarixli 228 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 165** **Bakı şəhəri, 22 may 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 fevral tarixli 327 nömrəli Fərmanının 5.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 noyabr tarixli 228 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1055 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nın 12-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 61 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası"nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 166** **Bakı şəhəri, 22 may 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"nin və "e-sosial" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2019-cu il 15 aprel tarixli 634 nömrəli və "Dövlət icbari şəxsi sığorta sisteminin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"nin və "e-sosial" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2019-cu il 15 aprel tarixli 634 nömrəli və "Dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2021-ci il 18 may tarixli 1340 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 dekabr tarixli 1541 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 oktyabr tarixli 223 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 61 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 324 (Cild I); 2024, № 2, maddə 242) ilə təsdiq edilmiş "Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası"nın 2.2-ci bəndində "("Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığortaolunanlara münasibətdə), Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti" sözləri ", Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikası Baş Prokurorluğunun "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığortaolunanları" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 190-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının2025-ci il 1 may tarixli 190-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 30.6.18-ci maddəsində hər iki halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 30.6.18-ci maddəsində hər iki halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 190-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 aprel tarixli 364 nömrəli, 17 aprel tarixli 367 nömrəli və 15 may tarixli 392 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bəndə "30.6.16-cı (hər iki halda)," sözlərindən sonra "30.6.17-ci, 30.6.18-ci (hər iki halda)," sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 1.12-3-cü bənd əlavə edilsin:

"1.12-3. həmin Məcəllənin 30.6.18-ci maddəsində (hər iki halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2025-ci il*

# Türkiyə Prezidenti Qarabağ atlarının çıxışını izləyib







**İstanbulda VII Etnoidman Beynəlxalq Mədəniyyət Festivalı davam edir.**

AZƏRTAC xəbər verir ki, festival çərçivəsində hər gün Türk dünyasının birliyi, ortaq mədəni kökləri və irsi tədbir iştirakçılarına və qonaqlara nümayiş etdirilir.

Mayın 24-də festivalın xüsusi proqramında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və həyat yoldaşı Əminə xanım Ərdoğan Azərbaycan nümayəndə heyətinin təqdimatında möhtəşəm "Zəfər" şou-kompozisiyasını izləyiblər.

Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə 130 nəfərdən ibarət nümayəndə heyəti və 20 Qarabağ atının iştirakı ilə təqdim olunan kompozisiyada qədim Türk adətləri, Azərbaycan milli musiqi və rəqs ənənələri, eləcə də Qarabağ atlarının estetik və məharətli çıxışları səhnədə canlandırılıb.

Türk dünyasının ortaq mirası olan atçılıq mədəniyyəti, süvarilik sənəti və milli ruhu əks etdirən proqram Türkiyə Prezidenti və Əminə xanım tərəfindən böyük maraqla qarşılanıb. Süvarilərimizin çıxışı ayaq üstə, gur alqışlarla qarşılanıb.

Qeyd edək ki, mayın 25-də Azərbaycan nümayəndə heyətinin növbəti çıxışı keçiriləcək və bununla da VII Etnosport Beynəlxalq Mədəniyyət Festivalı başa çatacaq.

# Azərbaycanla Pakistan arasında qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib

**Mayın 24-də nazir Ceyhun Bayramovun Pakistan İslam Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar ilə telefon danışığı baş tutub.**





XİN-dən AZƏRTAC-a bildirilib ki, nazirlər arasında Azərbaycan-Pakistan strateji tərəfdaşlığından irəli gələn məsələlər, ikitərəfli, çoxtərəfli əməkdaşlıq gündəliyinin müxtəlif aspektləri müzakirə olunub. Mövcud strateji əməkdaşlıq əlaqələri yüksək qiymətləndirilərək, gələcək təmaslar üzrə planlar nəzərdən keçirilib.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Meksikada keçirilən görüşlərdə Azərbaycanın COP29-a sədrliyi çərçivəsində əldə etdiyi nəticələr yüksək qiymətləndirilib

**Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini, COP29 üzrə baş danışıqçı Yalçın Rəfiyevin rəhbərlik etdiyi nümayəndə heyəti mayın 23-də Meksika Birləşmiş Ştatlarına səfər edib.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Səfər çərçivəsində Meksika Xarici İşlər Nazirliyinin Çoxtərəfli Əlaqələr və İnsan Hüquqları məsələləri üzrə nazir müavini Enrike Oçoa Martinez, Meksikanın iqlim məsələləri üzrə baş danışıqçısı Kamila Zepeda və Meksikanın nüfuzlu beyin mərkəzlərindən biri olan Beynəlxalq Əlaqələr üzrə Meksika Şurasında (COMEXI) görüşlər keçirilib.

Nazir müavini Enrike Oçoa Martinez ilə keçirilən görüşdə beynəlxalq təşkilatlar və digər çoxtərəfli platformalar çərçivəsində Azərbaycan və Meksika arasındakı səmərəli əməkdaşlıqdan məmnunluq ifadə olunub. Y.Rəfiyev meksikalı həmkarını Azərbaycanın xarici siyasət prioritetləri, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlar, eləcə də qarşıdan gələn dövrdə çoxtərəfli platformalarda Azərbaycanın təşəbbüsü və evsahibliyi ilə keçiriləcək tədbirlər barədə ətraflı məlumatlandırıb.

Tərəflər iqlim dəyişikliyi ilə mübarizə sahəsində əməkdaşlıq məsələlərini də müzakirə edib, bu çərçivədə Azərbaycanın COP29-a sədrliyinə dair fikir mübadiləsi aparıb.

Meksikanın iqlim məsələləri üzrə baş danışıqçısı Kamila Zepeda ilə keçirilmiş görüşdə Azərbaycanın COP29-a sədrliyi çərçivəsində əldə etdiyi tarixi nailiyyətlər vurğulanıb, bu xüsusda Azərbaycanın uğurlu sədrliyi təqdir edilib.

Beynəlxalq Əlaqələr üzrə Meksika Şurasında (COMEXI) keçirilmiş görüş zamanı 2020-ci il 44 günlük Vətən müharibəsi nəticəsində Cənubi Qafqazda formalaşmış yeni reallıqlar kontekstində Azərbaycanın regionda artan rolu və həyata keçirdiyi çoxşaxəli xarici siyasət, beynəlxalq təşkilatlar çərçivəsində ölkəmizin təşəbbüsləri və fəaliyyəti barədə fikir mübadiləsi aparılıb.

Azərbaycanın COP29-a sədrliyi və bu çərçivədə aparılmış danışıqların məzmunu və əldə etdiyi nəticələr yüksək qiymətləndirilib.



# İlham Əliyevin praqmatik siyasəti

## Azərbaycanı beynəlxalq nəqliyyat sahəsində də ön sıraya çıxarıb

**Bir neçə gün öncə Almaniyanın Leypsiq şəhərində "Beynəlxalq Nəqliyyat Forumu 2025" Sammiti keçirilib. Sammitdə Azərbaycan da daxil olmaqla 80-dən artıq ölkədən 1200-dən çox nümayəndə iştirak edib. "Qlobal şoklara qarşı nəqliyyatın davamlılığı" mövzusuna həsr olunmuş tədbirdə iştirakçılar təbii fəlakətlər, pandemiyalar, kibertəhlükələr və geosiyasi böhranlar kimi pozucu amillərin yaratdığı çətinliklər fonunda nəqliyyat sistemlərinin dayanıqlılığının təmin olunması yollarını müzakirə ediblər.**

Qeyd edək ki, 17 oktyabr 1953-cü ildə Brüsseldə yaradılan Beynəlxalq Nəqliyyat Forumu (BNF) nəqliyyat siyasəti sahəsində fəaliyyət göstərən hökumətlərarası beynəlxalq təşkilatdır. 53 il Avropa Nəqliyyat Nazirləri Konfransı (ƏNNK) adı ilə fəaliyyət göstərən təsisat 2006-cı ildə Dublin Bəyannaməsi əsasında qlobal bir təşkilata çevrilib və adını Beynəlxalq Nəqliyyat Forumu (BNF) olaraq dəyişdirib. Bu dəyişiklik təşkilatın fəaliyyətini yalnız Avropa ilə məhdudlaşdırmaqdan çıxararaq, bütün nəqliyyat növlərini əhatə edən qlobal bir platformaya çevrilməsini təmin edib. BNF indi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) çərçivəsində üzv ölkələrin nəqliyyat siyasətinin formalaşmasında beynəlxalq əməkdaşlıq platforması kimi fəaliyyət göstərir.

Forumun əsas məqsədi davamlı olaraq təhlükəsiz, effektiv, inklüziv nəqliyyat siyasətinin formalaşdırılmasını, həmçinin də təşviqini, üzv ölkələr arasında nəqliyyatla bağlı təcrübə və məlumat mübadiləsini dəstəkləməkdir. BNF-nin qarşıya qoyduğu məqsədlərdən biri də qlobal səviyyədə nəqliyyatın iqtisadi, sosial və ekoloji aspektlərini təhlil edən araşdırmalar aparmaqdır. Azərbaycan tamhüquqlu üzv olaraq 2008-ci ildən bəri qurumda iştirak edir. Bununla da ölkəmiz nəqliyyat sahəsində beynəlxalq trendləri izləmək, regional layihələrini tanıtmaq və siyasət dialoquna qoşulmaq imkanı qazanıb. BNF hər il Leypsiqdə illik sammit həyata keçirir. Bu tədbir dünya üzrə nəqliyyat nazirləri, sənaye nümayəndələri, akademiklər və vətəndaş cəmiyyəti arasında fikir mübadiləsi aparmaq üçün beynəlxalq platforma kimi diqqət çəkir.

Ötən ilin mayında "Yaşıl Nəqliyyat: Böhran zamanlarında fokusun saxlanması" mövzusunda keçirilən sammitdə nəqliyyat sektorunun ekoloji davamlılıqda rolu və iqlim, sağlamlıq, geosiyasi böhranların bu kontekstdəki təsirləri müzakirə olunub. Təmiz və avtomatlaşdırılmış nəqliyyat vasitələrinin, eləcə də rəqəmsal innovasiyaların, "yaşıl nəqliyyat" sektorunun rolu da tədbirin gündəliyində yer alıb. Sammitdə xüsusilə nəqliyyat sektorunda karbon qazı emissiyalarının azaldılması üçün təcili tədbirlərin görülməsi vurğulanıb.

Yeri gəlmişkən onu da xatırladaq ki, BNF-nin rəhbərliyi hər il rotasiya əsasında (beynəlxalq təşkilatlarda rəhbərliyin növbə ilə müxtəlif üzvlər arasında dəyişməsi) bir ölkəyə həvalə olunur. "Beynəlxalq Nəqliyyat Forumu 2024"ün prezidenti Litva, birinci vitse-prezidenti Çili, ikinci vitse-prezidenti isə Azərbaycan olub. Azərbaycan bu sammitdə ikinci vitse-prezident olaraq ilk milli pavilyonunu təqdim edib. Burada ölkəmizin nəqliyyat sektorunda həyata keçirilən "yaşıl enerji" və Bakı şəhərinin "rəqəmsal ikili" layihələri, eləcə də mikro-mobilitet təşəbbüsləri sərgilənib.

Növbəti "Beynəlxalq Nəqliyyat Forumu 2025"də Azərbaycanı rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. O, Nəqliyyat Nazirləri Şurasının iclasında çıxış edərək Azərbaycanın qlobal şoklara davamlı nəqliyyat sistemlərinin yaradılması istiqamətində atdığı addımları təqdim edib. O, şəhər infrastrukturunda rəqəmsallaşma, o cümlədən tətbiq olunan "Rəqəmsal əkiz" layihəsi, eləcə də "yaşıl nəqliyyat" sistemlərinin inkişafı üzrə görülən işlər barədə məlumat verib. Məlumat üçün bildirək ki, "rəqəmsal əkiz" real dünyada mövcud olan bir obyektin, sistemin və ya prosesin virtual modelidir. Layihə çərçivəsində həmin obyektin rəqəmsal əkizi yaradılır və bu model vasitəsilə onun fəaliyyəti izlənilir, analiz olunur və simulyasiya edilir. Sadə dillə desək, bu, bir obyektin və ya prosesin kompüterdəki canlanmış versiyasıdır.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev hələ illər öncə demişdir ki, Azərbaycan artıq dünya miqyasında öz coğrafi mövqeyindən istifadə edərək beynəlxalq nəqliyyat mərkəzinə çevrilmişdir. Ölkə Asiya və Avropa arasında mühüm nəqliyyat dəhlizlərinin bir hissəsi olmaqla, beynəlxalq ticarət və nəqliyyat əlaqələrində mühüm rol oynayır. Bu məqsədlə Azərbaycan öz ərazisində bütün zəruri nəqliyyat layihələrini tamamlamışdır. Həmin layihələr arasında Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi mühüm infrastruktur obyektləri yer alır.

Məhz bu uğurlar deməyə əsas verir ki, dövlət başçısının rəhbərliyi ilə nəqliyyatın bütün sahələrində uğur əldə edən ölkəmizin BNF-də təmsil olunmağa tam haqqı var. Qurumuyn bu ilki sammitində 2025-2026-cı illər üzrə prezidentlik Çilidən Azərbaycana təhvil verilib. Azərbaycan həmin vəzifəyə 2023-cü ildə üzv dövlətlərin yekdil qərarı ilə seçilib və ilk dəfə olaraq prezidentlik missiyasını üzərinə götürüb. Bu, ölkənin gələcək nəqliyyat strategiyasını qlobal səviyyədə formalaşdırmaq baxımından Azərbaycan üçün bir fürsətdir. BNF-yə rəhbərlik etməsi ölkəmizin beynəlxalq nəqliyyat siyasətindəki rolunun və nüfuzunun artdığını göstərir. Bu, həm də Azərbaycanın regional və qlobal logistik mərkəzə çevrilmək iddiasını gücləndirir. "Azərbaycan üçün bu prezidentlik yalnız bir vəzifə deyil, daha innovativ, "yaşıl" və daha əlaqəli nəqliyyat sistemlərinin təşviqi istiqamətində geniş səylərimizin davamıdır. Biz bilirik ki, nəqliyyat təkcə infrastruktur deyil, iqtisadi inkişaf, regional əməkdaşlıq və sosial inklüziya üçün bir vasitədir", - deyə Rəhman Hümmətov nazirlərin sammit çərçivəsində keçirilən mətbuat konfransında bildirib.

Bu gün dünyada nəqliyyat sadəcə hərəkət vasitəsi deyil, iqtisadi artım, ətraf mühit və cəmiyyətin gələcəyi üçün həlledici amildir. Beynəlxalq Nəqliyyat Forumu bu həqiqətlərin müzakirə edildiyi qlobal tribunadır. Ölkəmizi bu tribunada ön sıraya keçməsi həm də daxili siyasətdə nəqliyyata yeni baxış tələb edir. Bu rəhbərlik sadəcə formal bir uğur deyil, Azərbaycanın artıq qlobal nəqliyyat siyasətində söz sahibi olmağa başladığını göstərən addımdır. Qarşıdakı illər Azərbaycanın bu fürsətdən necə yararlanacağını göstərəcək. Prezidentlik statusu əsas verəcək ki, "yaşıl texnologiya"lara sürətli keçid, regional dəhlizlərin inkişafı məhz bu liderliyin hədəfində olsun.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

# Şuşada "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının açılışı olub





**Mayın 24-də Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşada "Xarıbülbül" VIII Beynəlxalq Musiqi Festivalı öz işinə başlayıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyevin "Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncamından irəli gələrək builki festival dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 140-cı ildönümünə həsr olunub.

Festivala Cıdır düzündəki açılış konsertində Üzeyir Hacıbəylinin "Ey Vətən" əsəri ilə start verilib. Konsertdə Üzeyir Hacıbəyli ilə, Arif Məlikov, Asəf Zeynallı, Əfrasiyab Bədəlbəyli, Fikrət Əmirov, Qara Qarayev, Müslüm Maqomayev, Niyazi, Oqtay Zülfüqarov, Tofiq Quliyevin əsərləri səslənib.

Bu il də "Xarıbülbül"ə yerli incəsənət xadimləri ilə yanaşı, digər ölkələrdən də musiqi kollektivləri və solo ifaçılar gəlib. Elə festivalın əsas məqsədlərindən biri də mədəni dialoqun inkişafına töhfə vermək, mütəxəssislər arasında fikir mübadiləsini təşviq etmək və gənc musiqiçilərin yaradıcılığını dəstəkləməkdir.





Açılış konsertində səhnəyə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin incəsənət xadimləri çıxıb: Azərbaycandan Afaq Abbasova, Cahangir Novruzov, Əkrəm Poladov, Fatimə Cəfərzadə, Fərhad Bədəlbəyli, Fərid Əliyev, İlahə Rüstəmova, İnara Babayeva, Orxan Hüseynov, Mahir Tağızadə, Murad Adıgözəlzadə, Polad Bülbüloğlu, Yusif Eyvazov, Qazaxıstandan Azamat Jeltırquzov, Türkiyədən Ferda Yetişər, eləcə də rəqqaslar Berfu Elmas (Türkiyə), Dayna Kıdıralıyeva (Qırğızıstan), Ebru Elmas (Türkiyə), Eldiyar Marat oğlu (Qırğızıstan), Mustafa Çagatay Ozmen (Türkiyə), Nurjamal Moldoqaziyeva (Qırğızıstan), həmçinin Azərbaycan Dövlət Rəqs Ansamblı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestri və teatrın Balet truppası, Azərbaycan Dövlət Xor Kapellası.

Bu gün Şuşa yenidən dirçəlir. Küçələrində musiqi səslənir, festivallar keçirilir, tarixi binalar bərpa olunur. "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı kimi tədbirlər şəhərin ruhuna yenidən can verir.

Festivalın coşqusu qonaqların baxışlarında, təbəssümlərində hiss olunur. Onlar bu sevinci və xoş təəssüratlarını AZƏRTAC-la bölüşüblər.



Azərbaycanın Xalq artisti, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalına ailələrin, həmçinin uşaqların da gəlməsindən məmnun olduğunu deyib. Qeyd edib ki, festivalda dahi Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov və digər böyük sənətkarlarımızın səsləndirilən əsərlərini dinləyirlər və bu, böyük sərvətdir.

"Düşünürəm ki, hamı bu gözəl festivaldan razı qaldı. İstərdim ki, xaricdən daha çox insan, tanınmış simalar buraya gəlsinlər, Şuşa ilə tanış olsunlar və görsünlər ki, bura necə bir behiştdir", - deyə F.Bədəlbəyli vurğulayıb.

Azərbaycanın Xalq artisti, Milli Məclisin deputatı Polad Bülbüloğlu bildirib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın qayğısı və tapşırığı ilə bu möhtəşəm festival keçirilir və o, bundan çox xoşbəxtdir.

Polad Bülbüloğlu Üzeyir Hacıbəylinin 140 illiyi münasibətilə Şuşada, Cıdır düzündə keçirilən festivalda "Sevgili Canan" romansını ifa etdiyini bildirərək deyib: "Mən indi elə hiss edirəm ki, Bülbülün, Üzeyir Hacıbəylinin və digər böyük sənətkarlarımızın ruhları şad olmalıdır. Onların ruhu 30 il narahat qaldı. Artıq sevinirlər ki, "Xarıbülbül" Festivalı yaşayır və bundan sonra da yaşayacaq".



Festivalın birinci günü axşam saatlarında isə Şuşanın digər gözəl memarlıq incilərindən biri - Xan qızı Natəvanın sarayının qarşısında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələrinin ifasında "Üzeyir bəy belə deyərdi..." adlı teatr tamaşası nümayiş olunacaq. Tamaşa Üzeyir Hacıbəylinin felyetonlarından ilhamlanaraq hazırlanıb.

Qeyd edək ki, mayın 25-də - festivalın ikinci günü Cıdır düzündə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə Polad Bülbüloğlunun konserti olacaq. Orkestrə Murtuza Bülbül dirijorluq edəcək.

Həmin gün Cıdır düzündə Qarabağ Universitetinin İncəsənət fakültəsinin tələbələrinin ifasında Azərbaycan və xarici bəstəkarların əsərlərindən ibarət konsert də təqdim olunacaq.

Şuşanın rəmzi olan gülün adını daşıyan "Xarıbülbül" Musiqi Festivalı 1989-cu ildən keçirilir. Qarabağ münaqişəsi dövründə əsas konsertlər Ağdamda, Bərdə və Ağcabədidə təşkil edilib. Vətən müharibəsindəki tarixi zəfərimizdən sonra festival yenidən Şuşaya qayıdıb.

# Azərbaycanın xarici siyasətinin uğurları



## Dost ölkə, etibarlı tərəfdaş və qarşılıqlı etimad

### Azərbaycanla Macarıstanı bir-birinə bu qırılmaz tellər bağlayır

**Dünyanın inkişaf etmiş ölkələri ilə iqtisadi, siyasi və mədəni əlaqələrin qurulması və inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətində önəmli yer tutur. Başqa ölkələrlə yanaşı, Azərbaycan Macarıstanla da əksər sahələrdə qarşılıqlı əməkdaşlıq şəraitində sıx əlaqələr qurub.**

İki dövlət və xalq arasında bir çox oxşarlıq, tarixi köklər sarsılmaz tərəfdaşlığın inkişafına böyük təkan verib. Arxada qalmış illər ərzində ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri, habelə siyasi, iqtisadi, humanitar sahələri əhatə edən mühüm sənədlərin imzalanması əməkdaşlığın çoxşaxəli inkişafında yeni mərhələlərə yol açır, dostluğu, mehribanlığı, qarşılıqlı etimadı daha da möhkəmləndirir.

Azərbaycan ilə Macarıstan arasında siyasi əlaqələr ötən əsrin sonlarından başlamışdır. 26 dekabr 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan Macarıstanla diplomatik münasibətlər 27 aprel 1992-ci ildə qurulub. 2004-cü ildə Azərbaycanın Macarıstanda, 2009-cu ildə isə Macarıstanın ölkəmizdə səfirliyi fəaliyyətə başlayıb. Əlaqələrin dinamik inkişafında 2014-cü ildə imzalanmış Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamə daha mühüm rol oynayıb. İki ölkə arasında olan mövcud əlaqələr 2023-cü ilin yanvarında imzalanan Genişləndirilmiş Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamə ilə daha da güclənib. Macarıstanla əlaqələr, xüsusilə BMT, ATƏT, NATO, Aİ, Şərq Tərəfdaşlığı, Vişeqrad qrupu, Türk Dövlətləri Təşkilatı çərçivəsində inkişaf edir. Bu əlaqələr ölkələrimizi və xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır, mehribanlaşdırır.

Prezident İlham Əliyevin mayın 20-də Baş nazir Viktor Orbanın dəvəti ilə Avropa İttifaqının üzvü olan Macarıstana səfəri ölkələrimiz arasında əlaqələrin tarixində çox mühüm hadisə oldu. Macarıstana işgüzar səfər edən Azərbaycan Prezidenti İlham Əliyevin Budapeştdə Baş nazir Viktor Orbanla geniş tərkibdə görüşü keçirildi. Görüş başa çatandan sonra liderlər mətbuata bəyanatla çıxış etdilər. Viktor Orban çıxışında iki ölkə arasındakı əlaqələrin daim genişləndiyindən söz açaraq Azərbaycana olan xoş münasibətini xüsusi olaraq vurğuladı: "Siyasi sahədə, enerji məsələsində nə zaman çətinliklə üzləşsək, Prezident İlham Əliyevi yanımızda görmüşük".

Azərbaycan Prezidenti İlham Əliyev də çıxışında Macartıstan-Azərbaycan əlaqələrinin uğurlu inkişafını və onların dostluq, mehribanlıq xarakterini yüksək qiymətləndirdi. Macarıstanın Türk Dövlətləri Təşkilatı sammitinə müşahidəçi dövlət kimi evsahibliyi etməsini bu ölkənin öz tarixi kökləri ilə sıx bağlı olduğunu nəzərə çatdıran dövlətimizin başçısı bildirdi: "Bu gün danışıqlar və məhdud tərkibdə keçirilmiş görüş zamanı bir daha gördük ki, bir çox məsələlər üzrə mövqeyimiz üst-üstə düşür. Bu gün dəyişən dünyada gedən proseslərə nəzər saldıqda, yenə də mövqelərimizdə elə bir böyük fərq yoxdur. Azərbaycanla Macarıstan arasında bir çox oxşarlıqlar var. Birincisi, bizim tarixi köklərimiz. Bilirəm ki, macar xalqı öz tarixi köklərinə çox bağlıdır. Ölkələrimizin əhalisinin sayının təxminən eyni olması, ölkə ərazisinin sahəsi də demək olar bir-birinə çox yaxındır. Macarıstan və Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkələrdir. Düzdür, biz Xəzər dənizinin sahilində yerləşirik, ancaq açıq dənizlərə bizim də çıxışımız yoxdur. Macarıstan müharibə aparan ölkə ilə həmsərhəddir. Biz də eyni vəziyyətdəyik. Siz müharibə aparan bir ölkə ilə, biz isə digəri ilə həmsərhədik. Yəni bu oxşarlıqlar təbii olaraq qarşılıqlı anlaşma üçün də gözəl zəmin yaradır. Çünki biz demək olar ki, eyni çağırışlarla üz-üzəyik".

Görüş zamanı Prezident İlham Əliyev Azərbaycan-Macarıstan münasibətlərinin keçmişdə də qarşılıqlı dəstək, inam, tərəfdaşlıq və dostluğa əsaslandığını vurğuladı: "Münasibətlərimizin artıq yaxşı tarixi var. Bu, qarşılıqlı dəstək və etimad, eləcə də tərəfdaşlıq və dostluq tarixidir. Bu, həqiqətən, böyük zənginlikdir. Buna görə biz hazırda əməkdaşlığın yeni sahələrini araşdırırıq. Tərəfdaşlığımız üçün artıq çox möhkəm zəmin yaranıb". Dövlətimizin başçısı çıxışı zamanı onu da xüsusi olaraq qeyd edib ki, "Macarıstan-Azərbaycan əlaqələri uğurla inkişaf edir. Biz dost ölkələrik, strateji tərəfdaşıq".

Bu möhkəm dostluğa, qarşılıqlı sıx əməkdaşlığa əsaslanıb böyük əminliklə demək olar ki, Macarıstan və Azərbaycan iki dost və etibarlı tərəfdaş ölkələr kimi bundan sonra da həm ikitərəfli əməkdaşlığı dərinləşdirəcək, həm də təmsil olunduğumuz beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyi bir-birindən əsirgəməyəcək. Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycan və Macarıstan arasında olan möhkəm dostluq əlaqələri həm ölkələrimiz, həm də Avrasiya qitəsi üçün çox böyük önəm daşıyır.

Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatı dövlət başçılarının Macarıstanda keçirilən qeyri-rəsmi Zirvə görüşündə iştirak etməsi bir daha möhkəm təmələ əsaslanan münasibətlərimizin gələcəkdə daha da inkişaf edəcəyini bütün dünyaya göstərdi. Nümayiş etdirdi ki, Azərbaycan-Macarıstan əlaqələri bundan sonra da hər iki ölkənin strateji məqsədlərinə xidmət edəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Prezidentin qətiyyəti, ədalətin bərpası

**Təxminən 1 il 9 ay bundan öncə Azərbaycanın Tehrandakı səfirliyinə edilən terror hücumu ölkəmizdə ciddi narahatlıq doğurdu. Hadisə zamanı səfirliyimizin Mühafizə xidmətinin rəisi Orxan Əsgərov şəhid oldu, iki nəfər ağır yaralandı. Mühafizə xidmətinin digər əməkdaşı Vasif Tağıyev fədakarlıq göstərərək terrorçunu tərk-silah edə bildi.**



Azərbaycanın Tehrandakı səfirliyinə qarşı edilən bu terror aktı iki dövlət arasındakı münasibətlərin daha da kəskinləşməsinə səbəb olmuşdu. Çünki törədilmiş terror aktı təkcə cinayət hadisəsi deyildi. Bu həm də Azərbaycan dövlətinin suverenliyinə, diplomatik toxunulmazlığına və vətəndaşlarının təhlükəsizliyinə qarşı yönəlmiş bir təcavüz idi.

Hadisənin baş verdiyi andan etibarən Azərbaycan Prezidenti İlham Əliyev məsələyə ən yüksək səviyyədə reaksiya verdi. Dövlət başçısı səfirliyin fəaliyyətinin dayandırılması və diplomatlarımızın geri çağırılması ilə bağlı tapşırıq verdi. Səfirliyimizin təxliyə edilmiş əməkdaşları və onların ailə üzvləri qısa müddətdə Bakıya gətirildilər. Şəhid Orxan Əsgərov yanvarın 30-da İkinci Şəhidlər xiyabanında dəfn edildi. Prezident İlham Əliyevin sərəncamı ilə terror aktının qarşısının alınması zamanı həyat və sağlamlıq üçün real təhlükə şəraitində xidməti borcunu yerinə yetirərkən mərd və qətiyyətli hərəkətlərinə görə Vasif Tağıyev 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif olundu. Orxan Əsgərov (ölümündən sonra) və Mahir İmanov isə "Vətən uğrunda" medalına layiq görüldülər.

Dövlət başçısı həm öz şəxsi sosial şəbəkə hesablarında, həm də rəsmi bəyanatlarda bu vəhşi terror aktını qətiyyətlə pislədi: "Tehrandakı səfirliyimizə qarşı törədilmiş terror aktını şiddətlə qınayıram. Səfirliyin və səfirlik əməkdaşlarının mühafizəsini təmin edərkən həlak olan baş leytenant Orxan Rizvan oğlu Əsgərovun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm".

Bu, dövlət başçısının, eləcə də xalqımızın terrora qarşı barışmaz mövqeyinin ifadəsi, hüququn, ədalətin və diplomatik toxunulmazlığın birmənalı şəkildə qorunacağına dair qətiyyətin təcəssümü idi.

Ötən ayın əvvəllərində ADA Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda keçirilən beynəlxalq forumda Prezident İlham Əliyev bu hadisə ilə bağlı demişdir ki, iki ölkə arasında əlaqələrin tam normallaşdırılması üçün bu terror hadisəsini törədən və arxasında dayanan hər kəs mühakimə edilməli və cəzalandırılmalıdır: "Təkcə bu terror hadisəsini törədən şəxs deyil, onun arxasında dayananlar, onu Azərbaycan səfirliyinə göndərənlər də məsuliyyətə cəlb olunacaq. Bununla yanaşı, yeni administrasiya ilə bizim işgüzar əlaqələrimiz var, onlardan gözləntimiz bu məsələni həll etməkdir. Biz orada siyasi sistemin mürəkkəbliyini, icra hakimiyyətinin məhdud imkanlarını anlayırıq. Biz bunları bilirik, ancaq iki ölkə arasında əlaqələrin tam normallaşdırılması üçün bu terror hadisəsini törədən, onu təşkil edən və bu hadisənin arxasında dayanan hər kəs mühakimə edilməli və cəzalandırılmalıdır".

Prezident İlham Əliyev bu forumda da beynəlxalq ictimaiyyətə, eləcə də İran tərəfinə Azərbaycanın prinsipial mövqeyini açıq və birmənalı şəkildə çatdırdı. Bu həm də Azərbaycan vətəndaşının təhlükəsizliyinin hər şeydən üstün olmasının mesajı idi.

Bu terror hadisəsinin hüquqi müstəvidə öz qiymətini alması Azərbaycan-İran münasibətləri baxımından da mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın ölkəmizə rəsmi səfərindən sonra Bakı ilə Tehran arasında münasibətlərdə pozitiv dinamika müşahidə olunur. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində İrandan cəlb olunan heyətin iştirakı ilə keçirilən "Araz-2025" birgə təlimi də bu dinamikanın göstəricisidir. Digər tərəfdən Azərbaycan Prezidenti İlham Əliyevin haqlı tələbinə əsasən, Azərbaycanın Tehrandakı səfirliyinə hücum etmiş terrorçunun İran İslam Respublikasının qanunları ilə cəzalandırılması, əlbəttə, iki dövlət arasındakı münasibətlərin daha da inkişafı baxımından olduqca vacibdir.

Azərbaycan və İran xalqı yaxın günlərdə bu vacibliyin reallığının bir daha şahidi oldu. Azərbaycan XİN-in mətbuat katibi Ayxan Hacızadənin kütləvi informasiya vasitələrində Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə hücum etmiş terrorçuya qarşı edam hökmünün icrası ilə bağlı şərhində deyilir: "2023-cü il yanvarın 27-də Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı terror hücumu həyata keçirmiş, səfirliyin bir əməkdaşını qətlə yetirmiş, iki əməkdaşını isə yaralamış Yasin Hüseynzadəyə qarşı 2024-cü il yanvarın 28-də çıxarılmış ölüm hökmü 2025-ci il mayın 21-i səhər saat 5-də icra olunub.

Edamın icra olunması prosesini səfirliyimizin iki nəfər əməkdaşı və məhkəmə prosesində Azərbaycan tərəfindən təyin edilmiş vəkil müşahidə edib.

Sözügedən terror aktını həyata keçirmiş şəxsin ən ağır şəkildə cəzalandırılması Azərbaycanın İran tərəfindən əsas gözləntiləri sırasında idi.

Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasına uyğun olaraq, diplomatik missiyalarımızın təhlükəsizliyinin təmin olunması və bu qəbildən əməllərin qarşısının alınması istiqamətində yerləşmə ölkəsi tərəfindən müvafiq tədbirlərin görülməsi hər zaman əhəmiyyət kəsb edir".

Cinayət və cəzadan göründüyü kimi, Azərbaycanın qətiyyəti, İranın ədaləti sayəsində bu gün regionda yaranan yeni geosiyasi düzən iki ölkə arasında daha sıx koordinasiyanı zəruri edir. Hər iki ölkə prezidentlərinin qarşılıqlı hörmətə əsaslanan münasibətləri və konstruktiv əməkdaşlığa üstünlük vermələri xüsusi önəm daşıyır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

**Hazırda qlobal geosiyasi münasibətlərin çox gərgin və ziddiyyətli xarakter aldığını siyasi liderlər və ekspertlər xüsusi vurğulayırlar. Böyük geosiyasi güclərin dünyanın müxtəlif regionlarında qarşıdurması və birbaşa toqquşması faktları kifayət qədərdir.**

## Tirana zəfəri Azərbaycan-Avropa İttifaqı münasibətlərinin yeni dönəmidir

Son dövrlərdə isə Qafqaz-Mərkəzi Asiya istiqamətində bu proses özünün yeni səviyyəsinə yüksəlib. Avropa İttifaqı bu cür mürəkkəb vəziyyətdə özü üçün uğurlu çıxış yolu axtarır. Azərbaycan isə Cənubi Qafqazda sülh və əməkdaşlığı təmin etmək naminə ciddi səylər göstərir. Bununla Aİ ilə Azərbaycanın regionda maraqları arasında nisbətin təmin edilməsi məsələsi xeyli aktuallaşır. Həmin kontekstdə "Avropa Siyasi Birliyi"nin Tiranada keçirilən Zirvə toplantısı geniş müzakirə edilir. Bu müstəvidə biz Azərbaycan Prezidentinin həmin tədbirdə iştirakının geosiyasi təhlilinə ehtiyac görürük.

### Qarşılıqlı siyasi fəaliyyət

XXI əsrin üçüncü onilliyinə Avropa İttifaqı kifayət qədər ciddi geosiyasi problemlərlə qədəm qoyub. Buna görə də son illər Brüssel özünün qlobal miqyasda geosiyasi yeri və rolunu müəyyənləşdirməyə çalışır. Aydın olur ki, Aİ üçün digər tərəfdaşlarla siyasi dialoq məsələsi yeni səviyyəyə yüksəldilməlidir. Söhbət yalnız dünyanın böyük gücləri kimi qəbul edilən ABŞ, Çin və Rusiyadan getmir. Avropa üçün həm də öz sərhədləri yaxınlığında olan ölkələrlə münasibətlərin inkişafı zəruridir. Burada bir məqam əhəmiyyət kəsb edir.

Məsələ onunla bağlıdır ki, Aİ qonşu dövlətlərlə münasibətlərdə ədalətli və obyektiv mövqe tutmalı, siyasi dialoq, yəni əlaqələr sabit və səmərəli olmalı, əsas tərəfdaşlar düzgün müəyyən edilməlidir. Bu iki xəttin ortaq sahəsində 2022-ci ildə təsis edilən "Avropa Siyasi Birliyi"nin ilk toplantısı Praqada keçirilib. Birlik qitə ölkələri arasında siyasi əlaqələndirmə platforması rolunu oynayır, birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.

Deməli, Aİ bu qarşılıqlı siyasi fəaliyyət platformasında başlıca məqsəd kimi siyasi əlaqələndirməni görür və bunun üçün siyasi dialoq və əməkdaşlığı inkişaf etdirmək mexanizmləri əsas götürülür. Bütün bunlar isə Avropada təhlükəsizliyi, sabitliyi və rifahı gücləndirməyə xidmət etməlidir.

Brüsselin məsələyə bu cür yanaşmasının iki tərəfi var: birincisi, Avropanın təhlükəsizliyi və rifahı önəmli sayılır, ikincisi, bununla yanaşı, həmin coğrafiya daxilində bütün ölkələrin təhlükəsizliyi və rifahı əhəmiyyətli hesab edilir.

Bu iki aspektin sintezində isə əməkdaşlıq və onu həyata keçirmək mexanizmləri aktuallaşır. Öz növbəsində əməkdaşlıq hər zaman etibarlı tərəfdaşlar tələb edir.

Buna görədir ki, Azərbaycan "Avropa Siyasi Birliyi"nin bütün sammitlərində fəal iştirak edir. Bu isə Azərbaycanın qarşılıqlı siyasi fəaliyyət və regional inteqrasiya üçün yeni platformalarda maraqlı tərəf olduğunu göstərir.

Azərbaycanın "Avropa Siyasi Birliyi"ndəki fəaliyyətinin nəticələrindən biri haqqında ekspertlər maraqlı fikir bildirirlər. Onlar Aİ-nin düşdüyü indiki vəziyyət və ondan çıxış yollarının axtarılması kontekstində vurğulayırlar ki, Azərbaycan Prezidenti bir neçə istiqamətdə Aİ-nin daxili mühitinin yaxşılaşmasına çox ciddi təkan verir. Məsələn, "Şərq Tərəfdaşlığı" Proqramı Azərbaycansız artıq "ölü təşkilat" idi. Prezident İlham Əliyev ona bərabərhüquqluluq ruhu verməklə məhv olmasının qarşısını aldı.

Başqa bir mühüm məqam Azərbaycanın enerji və nəqliyyat-logistika layihələri ilə Aİ-nin daxili inteqrasiyasını praktiki səmərəli müstəviyə transfer edə bilməsi ilə bağlıdır. Prezident İlham Əliyevin ən böhranlı zamanlarda belə irəli sürdüyü layihələr Aİ-nin, faktiki olaraq, daxildən parçalanmasını əngəlləyən faktorlardandır.

Belə aydın olur ki, Azərbaycanın "Avropa Siyasi Birliyi"ndə iştirakı qarşılıqlı siyasi fəaliyyəti gücləndurmək əsasında regional inteqrasiya üçün yeni platformalarda aktiv iştiraka nail olmaqla bağlıdır. Məsələnin bu tərəfi Azərbaycan və bütövlükdə region üçün çox əhəmiyyətlidir. Çünki söhbət Cənubi Qafqazın lider ölkəsinin regional ineteqrasiya və əməkdaşlıq aspektlərində formalaşan təcrübəsindən gedir.

### Regional inteqrasiya

Azərbaycan Prezidentinin Tiranadakı toplantıda iştirakının siyasi qiymətləndirməsini verən ekspertlər bu hadisəni Azərbaycanın Avropada siyasi vəziyyətə təsirinin etirafı aspektində şərh edirlər. Onun birbaşa göstəricisi kimi isə "Almaniyada yenidən fokuslanma"nın baş verməsini vurğulayırlar. Yəni Azərbaycan bütövlükdə qitədə münasibətlərin siyasi aspektdə yenidən formatlaşmasına ciddi töhfə verir.



Ekspertlər bu qənatə yalnız Tiranada Prezident İlham Əliyevin keçirdiyi görüşlərin əsasında gəlməmişlər. Hələ bu toplantıdan öncə Aİ rəsmilərinin Azərbaycana səfərləri intensiv xarakter daşıyırdı. Yanvar ayında Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta Prezident İlham Əliyevə zəng edərək ikitərəfli münasibətlərin perspektivini müzakirə edib. Buraya ilk növbədə tərəflər arasında "nəqliyyat, Orta dəhliz marşrutu və Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu" daxildir. Bu ilin aprel ayında isə Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas ölkəmizə səfər edib. Prezident İlham Əliyevlə görüşdə əməkdaşlığın müxtəlif aspektləri geniş müzakirə edilib.

Tiranada isə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen və Fransa Prezidenti Emmanuel Makronla keçirdiyi görüşlər siyasi-diplomatik dairələrdə böyük maraqla qarşılanıb. Çünki həmin görüşləri ekspertlər iki aspektdən əhəmiyyətli sayırlar.

Əvvəla, Avropanın yüksəkvəzifəli rəsmiləri Azərbaycan Prezidentinə böyük sayğı ilə yanaşırlar. E.Makronun xüsusilə İlham Əliyevə münasibətində müsbət tərəfə yeni jestlər etməsi diqqət çəkir. Bu, Prezident İlham Əliyevin fəaliyyəti ilə Qərb siyasi dairələrində böyük hörmət qazanmasının vacib əlaməti kimi şərh edilir.

Prezident İlham Əliyevin Tiranada N.Paşinyana öz siyasi iradəsini faktiki diktə etməsi də nəzərdən qaçmadı. Erməni ekspertləri deyirlər ki, Tiranada Ermənistanın baş naziri Azərbaycan Prezidentinin istəyi ilə hərəkət edib.

İkincisi, Azərbaycan Prezidenti Tiranada ciddi layihələri müzakirə edib. Danışıqlarda əsasən Orta dəhliz, enerji layihələri və nəqliyyat-logistika proqramları diqqət mərkəzində olub. Bu məsələlərin hər birində Azərbaycanın aparıcı rolu böyük əhəmiyyət təşkil edib.

Bunlardan Azərbaycanın regional inteqrasiyada oynadığı geosiyasi rolun Aİ rəsmiləri tərəfindən qəbul edildiyi nəticəsini çıxara bilərik. Bu məsələ çox əhəmiyyətlidir. Çünki bununla, faktiki olaraq, bir sıra ziddiyyətlər aradan qalxmış olur.

Birincisi, Avropa Azərbaycanı Mərkəzi Asiya, Qafqaz, Yaxın Şərq, Balkanlar və Şərqi Avropa miqyasında əsas tərəfdaş kimi qəbul etməyə başlayıb. Bu cür geniş coğrafi məkanda Azərbaycanın həm Avropanın enerji təhlükəsizliyinin təminində, həm də təşkilatın inkişafında onun birliyinin təmin olunması prosesində ciddi töhfəsini anlamışlar.

İkincisi, Azərbaycan daha geniş miqyasda Çinin "Bir kəmər, bir yol" meqalayihəsinin reallaşmasında regionlararası miqyasda başlıca faktora çevrilib. Burada sırf maliyyə qazancından başqa, sabitlik və milli təhlükəsizlik aspektlərində də Bakının rolunun daha da yüksəlməsi ön plana çıxarılır.

Üçüncüsü, Azərbaycan Prezidenti Tiranada Türk Dövlətləri Təşkilatının (TDT) Aİ ilə münasibətlərini konstruktiv müstəviyə istiqamətləndirib. Aİ həm TDT-ni təşkilat kimi qəbul etməyə başlayıb, həm də Azərbaycanın orada aparıcı rolunu etiraf edir.

Dördüncüsü, Prezident İlham Əliyev Tiranada Zəngəzur dəhlizi məsələsini Orta dəhliz kontekstində Aİ rəsmilərinə bir daha izah edəndən sonra onlar bu layihənin reallaşmasına daha çox maraq göstərirlər. Anlayırlar ki, Zəngəzur dəhlizi Azərbaycanın təklif etdiyi formada açılmasa, ən çox itirən Avropa olacaq. Çünki Zəngəzur Avropanın enerji ilə yanaşı, başqa məhsullarla da təminatında böyük sıçrayış yaradacaqdır. Ona görə də avropalı siyasətçilər faydasız Ermənistanı birtərəfli dəstəkləməkdən vaz keçməli, reallığı qəbul etməli və Azərbaycanla səmimi əməkdaşlığa üstünlük verməlidirlər.

Bütün bunlar onu sübut edir ki, Azərbaycan Prezidentinin "Avropa Siyasi Birliyi"nin Tiranadakı toplantısında iştirakı bir çox mənada tarixi əhəmiyyətlidir. Azərbaycanın dövlət başçısı müstəqil dövlətin rəhbəri kimi həm lider olaraq nüfuzunu daha da yüksəldib, həm də geniş geosiyasi məkanda sülh, əməkdaşlıq, sabitlik və təhlükəsizliklə bağlı ciddi addım atıb!

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

# Qərbi Azərbaycana qayıdış: milli ideyanın əsas hədəflərindən biri

## Qərbi Azərbaycan İcması İrəvan Qazılığının fəaliyyətinin bərpa edilməsini alqışlayır

**Qərbi Azərbaycan İcması Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının mayın 22-də Bakı şəhərində keçirilmiş əlahiddə toplantısında İrəvan Qazılığının fəaliyyətinin bərpa edilməsi, İrəvan Qazılığının Əsasnaməsinin təsdiq edilməsi və İrəvan qazısının seçilməsi barədə qəbul etdiyi qərarları alqışlayır.**

AZƏRTAC xəbər verir ki, bununla bağlı Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda bildirilib.

"Xatırladırıq ki, İrəvan şəhərindəki Göy məscid istisna olmaqla, Qərbi Azərbaycanda mövcud olmuş 300-ə yaxın məscidin hamısı Ermənistan tərəfindən məhv edilib. Eyni zamanda, 500-dən artıq qəbiristanlıq dağıdılıb, azərbaycanlıların mədəni və dini irsi sistemli şəkildə yer üzündən silinib. Bu, beynəlxalq hüququn və insan haqlarının kobud şəkildə pozulmasıdır.

İrəvan Qazılığının fəaliyyətinin bərpası dini etiqad azadlığının təmin edilməsi, Qərbi Azərbaycanda multikultural mühitin yenidən canlandırılması və tarixi ədalətin bərpası baxımından əhəmiyyətli bir addımdır. Bu qərar, eyni zamanda, Ermənistandan zorla çıxarılmış azərbaycanlıların öz tarixi torpaqlarına qayıdışına xidmət edən mühüm bir inkişafdır.

Qərbi Azərbaycan İcması olaraq, Ermənistan hökumətindən azərbaycanlıların Göy məsciddən sərbəst istifadəsinə şərait yaratmağı, dağıdılmış məscidləri və azərbaycanlılara məxsus digər mədəni abidələri bərpa etməyi və Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların öz doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdışına şərait yaratmağı tələb edirik.

Biz dünya dövlətlərini, BMT-ni və digər müvafiq təşkilatları Ermənistanın törətdiyi haqsızlıqların aradan qaldırılması üçün bu dövlətə təzyiq etməyə çağırırıq", - deyə icmanın yaydığı bəyanatda vurğulanıb.

## İrəvan Qazılığının fəaliyyətinin bərpası zamanın tələbidir

**Ötən əsrin müxtəlif vaxtlarında ermənilər tərəfindən öz dədə-baba torpaqlarından zorla deportasiya olunan azərbaycanlılar son olaraq 1988-ci ildə indiki Ermənistan ərazisində etnik təmizləmə siyasətinin qurbanı olublar. Xalqımıza aid nə varsa onu məhv etmək istəyən ermənilər bütün vəhşilikləri törədiblər. Deportasiyalar nəticəsində Qərbi Azərbaycanda qazılıqların fəaliyyəti də məcburi dayandırılıb.**

Ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycan bugün öz qanuni hüquqlarını tələb edərək sülh şəraitində Qərbi Azərbaycana qayıdışı hədəf kimi müəyyənləşdirib. Bu istiqamətdə ilk addımlardan biri 28 dekabr 1989-cu ildə yaradılan "Azərbaycan Qaçqınlar Cəmiyyəti"nin 3 avqust 2022-ci ildə adının dəyişdirilərək "Qərbi Azərbaycan İcması"na çevrilməsidir.

Mayın 22-də isə Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının İrəvan Qazısının fəaliyyəti bərpa olundu və Əsasnaməsi təsdiqləndi. Bəxtiyar Nəcəfovun İrəvan qazısı təyin olunması səsə qoyularaq qəbul edildi.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komi-



təsinin sədri Fazil Mustafa qəzetimizə açıqlamasında bildirib ki, tarixən fəaliyyət göstərən İrəvan Qazılığının həmin dövrlərdə insanların dini-mənəvi dəyərlərinin qorunmasında böyük rolu olub: "Torpaqlarımız uzun illər işğal altında olduğundan bu fəaliyyəti bərpa etmək mümkün deyildi. İndi İrəvan qazısının da təyinatı olduqca ciddi və önəmli məsələdir. İrəvan Qazılığının fəaliyyətinin bərpası zamanın tələbidir. Qayıdış prosesi başa çatandan sonra İrəvan Qazılığının fəaliyyəti canlanacaq, orada yaşayan insanlarımızın mənəvi, dini tələbatının ödənməsinə fayda verəcək".

Deputat, həmçinin qeyd edib ki, İrəvan Qazılığının bərpası ilə bağlı qanunlara müvafiq dəyişikliklər təklif ediləcək: "Milli Məclisin İctimai Birliklər və dini qurumlar komitəsində bu məsələyə baxılacaq. Sənədlər beynəlxalq konvensiyalara, qanunvericiliyin normalarına uyğun olmalıdır. İrəvan qazısının beynəlxalq platformada Azərbaycanın səsini duyuran şəxs olmasına çalışmalıyıq. Eyni zamanda Qərbi Azərbaycana qayıdışla bağlı elə nüfuzlu qurum yaratmalıyıq ki, oradan səslənən fikirlər beynəlxalq ictimaiyyətə çatsın. Qərbi Azərbaycan İcmasının təmsilçisinin İslam Əməkdaşlıq Təşkilatında hansısa müşahidəçi statusda yer alması da bu istiqamətdə atılan addımların effektivliyinə təsir edər".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## İordaniya mətbuatında Qərbi Azərbaycan irsi haqqında bəhs edilib






**İordaniya mətbuatında Qərbi Azərbaycanın mədəniyyəti, tarixi haqqında məqalə dərc edilib.**

AZƏRTAC xəbər verir ki, "Əmmandan Şuşayadək... Qərbi Azərbaycan məsələsində ədaləti tələb edən iordaniyalı bir səs" sərlövhəli məqalənin müəllifi iordaniyalı müşavir və "Yaxın Şərqdə Sülh Mədəniyyəti Birliyi"nin rəhbəri Məhəmməd əl-Məlkavidir.

Məqalədə vurğulanır ki, Qərbi Azərbaycan icmasını öz ata-baba torpaqlarından ayırmaq, onların minilliklərə söykənən mədəniyyətini, kollektiv yaddaşını unutdurmağa, kimliklərini yox etməyə çalışmaq qəbuledilməzdir. Belə ki, ötən əsrdə davamlı olaraq haqsızlıqlara, deportasiyalara məruz qalsalar da, Qərbi Azərbaycan icması öz torpaqlarına qayıtmaq və problemlərinin həllində ədalət istəyirlər.

Məqalədə Qərbi Azərbaycanın tarixinə, mədəni irsinə toxunan iordaniyalı sülh səfiri və "Yaxın Şərqdə Sülh Mədəniyyəti Birliyi"nin rəhbəri əl-Məlkavi Qərbi azərbaycanlılarla tam həmrəy olduğunu bildirir, onların zaman keçsə də, qüvvədən düşməyən qanuni hüququnu - öz torpaqlarına qayıtmaq və qəsdən silinmiş, təhrif edilmiş və mənimsənilmiş dərin tarixi irslərini qorumaq hüququnu müdafiə edir.

Qeyd olunur ki, Azərbaycanın İordaniya Haşimilər Krallığındakı səfirliyinin təşkilatçılığı və Qərbi Azərbaycan İcmasının dəstəyi ilə Əmman şəhərində "Qərbi Azərbaycan mədəni irsinin izi ilə" mövzusunda elmi-praktik konfransda və Qərbi Azərbaycana aid maddi mədəniyyət nümunələrindən ibarət "Qərbi Azərbaycan mədəniyyəti" adlı sərgidə təqdim olunan sənədlər etnik və mədəni təmizləmə kampaniyasının sistemli və planlı şəkildə həyata keçirildiyini bir daha təsdiqləyir.

Diqqətə çatdırılır ki, bu qərəzli siyasət nəticəsində azərbaycanlıların sıx məskunlaşdığı yaşayış məskənləri, dini və mədəni irs, eləcə də memarlıq abidələri məhv edilmişdir.

Müəllif vurğulayır ki, Qərbi Azərbaycanın mədəni kimliyi ötəri siyasi məsələ deyil. Mədəni irs beynəlxalq qanunlar və konvensiyalarla qorunur. Bu səbəbdən, Qərbi Azərbaycandan didərgin salınmış insanların qayıdış hüququ emosional çağırışlar deyil, BMT Nizamnaməsi və Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsaslanan qanuni və humanist tələbdir.

## İtaliyanın "inFormazione Cattolica" nəşrində ermənilərin tarixi saxtalaşdırmasını ifşa edən məqalə dərc olunub

**İtaliyanın "inFormazione Cattolica" nəşri Azərbaycan politoloqu Fuad Axundovun ermənilərin tarixi saxtalaşdırmasını faktlar əsasında ifşa edən məqaləsini dərc edib. AZƏRTAC xəbər verir ki, bu məqalə Romadakı erməni Şurasının nümayəndəsi Mariam Ter-Ovannisyanın Azərbaycanın Müqəddəs Taxt-Tacda səfiri İlqar Muxtarovu "tarixi mistifikasiya etməkdə" ittiham edən məktubuna cavabdır.**










Mariam Ter-Ovannisyanın öz fikirlərində səhvə yol verdiyini qeyd edən Fuad Axundov bununla bağlı konkret sübutlar göstərir.

Müəllif yazır: "Azərbaycan ərazisində müasir Ermənistanın yaradılmasının tarixi çox faciəlidir, çünki belə bir hal, xüsusən də XX əsrdə dünyanın heç bir ölkəsində baş verməyib. Bu bölgənin birilərinin əli ilə yaradılmış faciəsi Rusiyanın 1828-ci ildə Qacar İranından və Osmanlı imperiyasından 100 min erməni buraya köçürməsindən dərhal sonra başlayıb. (S.Qlinka. "Rusiyanın sərhədləri daxilində Adderbican ermənilərinin köçürülməsinin təsviri". Moskva, 1831. (s. 108, 114)".

Müəllif yazır: "Ermənistanda bütün region üçün taleyüklü olan bu ən mühüm tarixi hadisəni xatırlamağı sevmirlər". O əlavə edir ki, o zamanlar Avropanın bütün Cənubi Qafqaza aid coğrafi xəritələrinin yuxarısında Gürcüstan və 10 Azərbaycan xanlığı çox vaxt bir sözlə təsvir olunurdu - "Azərbaycan". (The map of the 18th century German cartographer Georg Matthaus Seutter). Orada Ermənistan adlı heç nə yox idi. 1828-ci ildə ermənilərin bu torpaqlara köçürülməsindən sonra baş verən faciənin miqyasını dərk etmək üçün politoloq 1918-ci ildə Ermənistana çevrilən İrəvan xanlığının bundan sonra xarici memarlıq görkəminin necə dəyişdiyinə nəzər salmağı təklif edir: "Zəhmət olmasa, Ermənistanın indiki paytaxtı İrəvanın mərkəzi meydanının ümumi mənzərəsini həmin məkanın 1827-ci ildəki təsviri (buraya rus qoşunlarının gəldiyi vaxt) məşhur rus döyüş rəssamı Fran Rubonun fırçasına məxsus "İrəvan qalasının alınması" (https://roubaud.ru/sdacha-kreposti-erivani-1827-goda) tablosu ilə dəqiq müqayisə edin. Həmin rəsmə diqqətlə baxın. Məgər bu, xristian Ermənistanına bənzəyir? Rəsmdə təsvir olunan İrəvan qalası 1511-ci ildə azərbaycanlı Rəvanqulu xan tərəfindən tikilib və onun şərəfinə İrəvan adlandırılıb. Bütün İrəvan xanlığı, yəni müasir Ermənistanın ərazisi əsrlər boyu təxminən belə görünüb. Bu, tipik Azərbaycan (müsəlman) xanlığının zorla erməni (xristian) memarlığına, yəni orijinalın tam əksinə çevrilməsi məqsədilə onun dağıdılmış arxitekturası idi. 1965-ci ildə, yəni, o qədər də uzaq olmayan tarixdə şəhərin tarixi mərkəzini, orta əsr qalasını buldozerin altına vermək necə mümkün olmuşdu!? Azərbaycan mədəniyyətinin izləri beləcə məhv edilib".

Fuad Axundov xatırladır ki, bütün bunlara paralel olaraq, Azərbaycan əhalisi tamamilə qovulub, məhv edilib, soyqırımına məruz qalıb. Nüfuzlu erməni alimi Zaven Korkodyanın yazdığına görə, cəmi iki il ərzində - 1918-1920-ci illərdə 130 min azərbaycanlı öldürülüb, 240 min nəfər didərgin salınıb, nəticədə 1916-cı ildə orada yaşayan 373 min 582 azərbaycanlıdan cəmi 10 min nəfər qalıb. Yəni, azərbaycanlı əhalinin 98 faizi qətlə yetirilib və qovulub. Bu soyqırımı haqqında təkcə Zaven Korkodyan deyil, həm də sovet müxbiri Anait Lalayan yazıb. (Z.Korkodyan. "Sovet Ermənistanının əhalisi: 1831-1931" (ermənicə), İrəvan, 1932, (s. 186); A.A. Lalayan, "Daşnaksutyun partiyasının əksinqilabı fəaliyyəti"; bax: Tarixi qeydlər. Məsul redaktor, akademik B.Qrekov. 2-ci cild. SSRİ Elmlər Akademiyasının nəşriyyatı, 1938-ci il, s. 100-104).

Təsəvvür etmək belə çətindir ki, Ermənistan prezidenti, yeri gəlmişkən, Qərbdə çox hörmətli siyasətçi olan Levon Ter-Petrosyan Ermənistanın azərbaycanlılardan azad olunması münasibətilə erməni xalqını şəxsən təbrik edib və bunu ermənilərin əzəli arzusu adlandırıb! Nəticədə Ermənistan regionda dörd çoxmillətli ölkə - Azərbaycan, Gürcüstan, İran və Türkiyə ilə əhatə olunmuş yeganə monoetnik dövlətə çevrilib", - deyə müəllif vurğulayır.

Məqalədə daha sonra qeyd edilir ki, buna paralel olaraq, Stalin və onun xələflərinin fərmanları ilə bütün (ümumilikdə 2 minə yaxın) Azərbaycan toponim və hidronimlərinin adı tamamilə dəyişdirilərək erməniləşdirilib.

Bütün bunlara, məsələn, Böyük Sovet Ensiklopediyasında rast gəlmək olar. Burada müasir erməni adının yanında mötərizədə onun tarixi, azərbaycanca adı və Stalinin fərmanı ilə bu toponim və ya hidronimlərin adının dəyişdirildiyi tarix göstərilir.

Bax: https://www.booksite.ru/fulltext/-1/001/008/100/487.htm və https://www.booksite.ru/fulltext/1/001/008/105/324.htm). Azərbaycanlı ekspert bildirir: "Dünyada heç bir ikinci ölkə yoxdur ki, XX əsrdə öz memarlıq, etnik və toponimik simasını tamamilə dəyişsin".

O yazır: "Maraqlıdır ki, xanım Ter-Ovannisyan, ilk növbədə, Azərbaycanda xristian irsinin mövcudluğu faktını şübhə altına almağa çalışır, çünki onun fikrincə, Azərbaycan bir dövlət kimi 1918-ci ildə yaradılıb. Düzdür, xanım Ter-Ovannisyanın bunu hansı əsasla iddia etdiyi də tam aydın deyil. Azərbaycan ərazisində dövlətçilik ənənələri ən azı eramızdan əvvəl III minilliyə gedib çıxır. Arxeoloqlar və tarixçilər burada mədəni və linqvistik davamlılığı asanlıqla ayırd edə bilirlər. "Azərbaycan" adı isə ən azı eramızın əvvəlindən məlumdur.

1918-ci ildə Cənubi Qafqazda ilk dəfə olaraq nə Azərbaycan, nə də gürcü (yuxarıda qeyd etdiyim kimi, onlar bütün Avropa coğrafi xəritələrində əsrlər boyu müşahidə olunurdu) deyil, məhz erməni dövləti yarandı. Bəli, tarix boyu erməni dövlətləri də 1918-ci ilə qədər mövcud olub. Amma onların heç biri Qafqazda olmayıb. Doğrudur, qədim zamanlarda erməni dövlətləri olub. Amma onlar indiki Ermənistan Respublikasının olduğu ərazidə deyildilər. Konfransda nümayiş etdirdiyim (aprelin 10-da Vatikanda Müqəddəs Taxt-Tacın Papa Qrirorian Universitetində keçirilən "Azərbaycanda xristianlıq: Tarix və müasirlik" mövzusunda Qafqaz Albaniyasının irsi üzrə XII Beynəlxalq elmi konfransı nəzərdə tutulur) Vatikanın tarixi binalarından birinin tavanında bir neçə əsr əvvəl çəkilmiş həmin rəsm əsəri göstərir ki, həmin Ermənistan İrəvandan və Cənubi Qafqazdan kifayət qədər uzaqda yerləşirdi".

Onun sözlərinə görə, 1918-ci ilin mayında yaranmış Ermənistan dövlətinin bu gün yerləşdiyi torpaqlarda ermənilərin kütləvi məskunlaşması 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsi ilə başlayır.

Müəllif vurğulayır ki, 1918-ci ildə üç müstəqil respublika yaranan kimi, Ermənistan digər iki respublikaya (Gürcüstanda Axalkalaki və Borçalıya, Azərbaycanda isə Qarabağ və Naxçıvana) ərazi iddiaları irəli sürüb, işğalçılıq müharibəsinə başlayıb. Məqalədə qeyd olunur: "Bu gün Ermənistan Azərbaycandakı qədim alban kilsələrini, Gürcüstandakı qədim gürcü kilsələri erməni məbədləri adlandırır. Hazırda Gürcüstana münasibətdə də ərazi münaqişəsi "közərir", lakin Ermənistan bunu qaynar fazaya çevirmir. Çünki Azərbaycan məsələsində bunu müsəlmanların xristianlara qarşı müharibəsi kimi qələmə verir və təəssüf ki, bəzən Gürcüstanda bu məsələdə öz tərəfdarlarını tapır. Amma xristian Gürcüstanına münasibətdə İrəvan anlayır ki, onun bu iddiaları keçməyəcək".

Fuad Axundov yazır ki, bu baxımdan Azərbaycanda guya "xristian irsinin məhv edilməsi" ilə bağlı bəyanatı oxumaq da təəccüblü deyil. "Ancaq başqa bir məqama da diqqət çəkmək istərdik. Dərc olunmuş məktubun müəllifi hansı "məhv edilmiş xristian irsi"ndən danışdığını dəqiqləşdirməyib. Azərbaycan heç vaxt - HEÇ VAXT! - öz ərazisində kilsə və monastırları dağıtmayıb. Ola bilsin ki, yeganə istisna sovet dövründə SSRİ rəhbərliyinin tətbiq etdiyi "dinlə mübarizə" adı altında məscid, kilsə və sinaqoqların dağıdılması zamanı olub. Təəssüf ki, erməni təbliğatçıları, məsələn, işğal altında olan Azərbaycan şəhər və kəndlərinin uydurma erməni adları olan lövhələri belə qələmə verməyə hazırdırlar. Yaxud işğalçı Ermənistan ordusunun əsgər və zabitlərinin xatirəsinə ucaldılmış "xaçkarları". Məgər kimlərsə ciddi şəkildə hesab edirlər ki, Azərbaycan bu "irsi" qoruyub saxlamalıdır?", - deyə politoloq sualla müraciət edir.

O, daha bir misal çəkir və Ermənistanın 1992-ci ildə Azərbaycanın Laçın şəhərini işğal etməsi faktını göstərərək, oradan bütün əhalinin qovulduğunu qeyd edir: "Orada tam "etnik təmizləmə" aparılıb. 1996-cı ildə erməni işğalçıları azərbaycanlı İbrahimovlar ailəsinin evinin yerində dağıdılmış binanın tikinti materiallarından istifadə edərək kilsə tikiblər. Azərbaycan bu "xristian irsini" də qorumağa və mühafizə etməyə borcludur?".

Politoloq vurğulayır: "Nəhayət, ən vacib məsələ. Bir qayda olaraq, sərhədlərə və ərazi bütövlüyünə hörmət edilir. SSRİ dağılanda, həm Azərbaycan, həm də Ermənistan 1991-ci il sərhədləri daxilində tanınıb. Azərbaycanın timsalında bu sərhədlərə Qarabağ da daxildir. Ona görə də Ermənistanın Qarabağda bütün hərəkətləri təcavüz və işğalçılıq idi. İşğal dövründən qalan bütün qeyri-qanuni tikililərin heç bir mədəni toxunulmazlığı yoxdur və təsnifata görə "dəyərli irs" sayıla bilməz. Onu da xatırladaq ki, Ermənistanın işğalı altında olan Azərbaycan ərazisinin 20 faizi görünməmiş etnik təmizləmə səhnəsinə çevrilib. İşğal nəticəsində bir milyona yaxın Azərbaycan vətəndaşı öldürülüb və ya qaçqın düşüb. Livan və ya dörd Lüksemburq ərazisinə bərabər olan 10 min kvadrat kilometr ərazi tamamilə viran qalıb. Ən böyük şəhər olan Ağdamdan görün nə qalıb. İşğal altında olan Qarabağ dünya tarixində görünməmiş urbisid meydanına çevrilib. Burada hər şey - 67 məsciddən 64-ü, yaşayış binaları, məktəblər, xəstəxanalar, muzeylər, rəsm qalereyaları, hətta qəbiristanlıqlar və türbələr belə dağıdılıb.

Müəllif həmçinin xatırladır ki, bu barbarlığa görə heç kim Azərbaycandan üzr istəməyib, heç kim cəzalandırılmayıb, bütün bunlar təbii qəbul edilib. "İndi isə Azərbaycandan hesabat tələb olunur ki, nə üçün ölkəmizin hakimiyyət orqanları işğalçılar tərəfindən quraşdırılmış Azərbaycan şəhərlərinin uydurma erməni adları olan lövhələri qorumayıb! Ona görə də erməni tərəfinin nümayəndələrindən tarixi irsin dağıdılması ilə bağlı mənəvi arqumentləri eşitmək bizim üçün ən azı qəribədir. Xanım Mariam Ter-Ovannisyana isə beynəlxalq humanitar hüquq sahəsində kiçik araşdırmalar aparmağı məsləhət görərdik", - deyə politoloq məqalənin sonunda qeyd edir.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Ermənistan üçün ən doğru seçim Azərbaycanın şərtlərini qəbul etməkdir

**Azərbaycan ilə Ermənistan arasında bu ilin martında sülh müqaviləsinin mətninin razılaşdırılmasından sonra regionda dayanıqlı sabitliyin təmin edilməsi imkanı yaranıb. Rəsmi İrəvan sülh sazişini imzalamağa hazır olduğunu bəyan etsə də, bunun üçün məlum şərtləri yerinə yetirmir. Görünən odur ki, erməni tərəfi yenə də spekulyasiya etməklə məşğuldur. Əgər belə olmasaydı, özünü "sülh göyərçini" kimi təqdim edən Ermənistan sazişi imzalamaq üçün praktiki addımlar atardı, şərti dövlət sərhədində davamlı olaraq hərbi təxribatlar törətməzdi.**



Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında bildirib ki, rəsmi İrəvan Cənubi Qafqazda sülhün əldə edilməsinə maraqlı olmadığını nümayiş etdirir: "Ermənistanın baş naziri Nikol Paşinyan da çıxışları zamanı faktları və reallıqları inkar etməklə bu mövqeyini ortaya qoyur. Paşinyan çıxışlarında regional proseslərə dair yanlış və əsassız yanaşma ifadə edir. O, yenə də Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının olduğunu inkar etməyə çalışır. Nazir məsələni Ermənistan Konstitusiya Məhkəməsinin üzərinə atmaqla məsələdən yayınır. Amma faktdır ki, bu ölkənin Konstitusiyasında və digər hüquqi sənədlərdə ölkəmizə qarşı ərazi iddiaları hələ də qüvvədə qalır. Ermənistan Konstitusiyasının istinad etdiyi Müstəqillik Bəyannaməsində Azərbaycanın Qarabağ bölgəsinə açıq-aşkar iddia mövcuddur. Doğrudur, Paşinyan yeni Konstitusiyada Müstəqillik Bəyannaməsinə istinad olunmasının tərəfdarı olmadığını deyib. Amma bu sənəddə də ölkəmizə qarşı ərazi iddialarının olması qəbuledilməzdir. Eləcə də 1980-ci illərin sonlarında Ermənistan Ali Soveti Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi haqqında sənəd qəbul edib. Bütün bu sənədlər ləğv olunmalıdır".

Deputat qeyd edib ki, Azərbaycan bununla bağlı dəfələrlə rəsmi xəbərdarlıq edib. Paşinyan çıxışlarında Azərbaycanın ərazi bütövlüyünün tanınmasına dair 1991-ci ildə imzalanmış Alma-Ata Bəyannaməsinə istinad edir. Lakin məhz 1991-ci il Alma-Ata Bəyannaməsinin imzalanmasından sonra Ermənistan Azərbaycana qarşı genişmiqyaslı işğalçılıq siyasəti həyata keçirib. Təkcə bu fakt rəsmi İrəvanın Azərbaycanın ərazi bütövlüyünü tanınması ilə bağlı qeyri-səmimi olduğunu təsdiqləyir. Əgər Ermənistan rəsmiləri həqiqətən səmimidirlərsə, o zaman konstitusiyalarında və digər qanunlardan ölkəmizə qarşı ərazi iddialarını ehtiva edən müddəaları çıxarmalıdırlar. Əks halda kimlərinsə dediyi sözün hər hansı hüquqi qüvvəsi yoxdur. Belə sənədlərin qüvvədə qalması gələcəkdə Azərbaycana qarşı ərazi iddiası üçün istifadə oluna bilər. Ona görə də Azərbaycanın bu şərti mütləq yerinə yetirilməlidir.

Deputat bildirib ki, Paşinyan hakimiyyəti ATƏT-in Minsk qrupu məsələsində də manipulyasiya etməyə çalışır: "Erməni baş nazir sülh sazişinin imzalanması ilə Minsk qrupunun buraxılmasının eyni vaxtda reallaşdırılmasını "məntiqli" hesab edərək belə bir variant təklif edib. Bu təklifin də heç bir əsası yoxdur. Nəzərə alaq ki, de-fakto Minsk qrupu mövcud deyil. Yəni Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra qurum heç bir fəaliyyət göstərmir. Çünki Azərbaycan ərazi bütövlüyünü təmin etdikdən sonra Minsk qrupuna heç bir ehtiyac yoxdur. Sadəcə bu məsələni rəsmiləşdirmək lazımdır. Lakin görünən odur ki, rəsmi İrəvan bu məsələlərdə "manevrlər" edib, prosesi uzatmağa çalışır. Yəni burada konkretlik yox, hansısa qeyri-müəyyən təşəbbüslərdən söhbət gedir ki, bu da gerçək sülhün əldə olunmasını istisna edir".

S.Fətəliyeva xatırladıb ki, Prezident İlham Əliyev Macarıstana səfəri zamanı iki ölkə arasında sülh perspektivləri barədə fikirlərini bildirib: "Ermənistan Konstitusiyasında bu günə qədər Azərbaycana qarşı ərazi iddiası vardır. Bu, dəyişdirilməlidir. İkincisi isə Qarabağ münaqişəsini həll etmək üçün yaradılmış ATƏT-in Minsk qrupu ləğv edilməlidir. Bu, artıq de-fakto fəaliyyət göstərmir, de-yure bunun ləğvi zəruridir. Əfsuslar olsun ki, Ermənistan tərəfi hələ ki, bu iki şərtimizi qəbul etmək istəmir. Ancaq son illərin hadisələri və proseslərin gedişatı onu göstərir ki, gec-tez onlar bizim təklifimizlə razılaşmağa məcbur olacaqlar. Çünki bu təkliflərdə qeyri-adi heç bir məsələ yoxdur".

Deputat bildirib ki, rəsmi İrəvan bir tərəfdən özünü sülh tərəfdarı kimi təqdim edir, digər tərəfdən isə silahlanma ilə məşğul olur. Bu, onlar üçün yaxşı heç nə vəd etmir. Ermənistan üçün ən doğru seçim Azərbaycanın haqlı şərtlərini qəbul etməkdir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Azadlıq səsi boğulan Korsika

### Burada baş verənlər Fransanın müstəmləkəçilik təfəkküründən əl çəkə bilmədiyini göstərir

**İllərboyu başqa xalqlara qarşı silsilə qətliamlar törədən, başda əlcəzairlilər olmaqla, əlini milyonlarla insanın qanına batıran müstəmləkəçi Fransa Afrikada, Yaxın və Uzaq Şərqdə həyata keçirdiyi neokolonializm siyasəti ilə milyonlarla günahsız insanın fundamental hüquqlarını kobud şəkildə pozub. Hazırda da Fransanın müstəmləkəsi, əsarəti altında əzilən xeyli sayda xalq var ki, bunlardan biri də Korsika xalqıdır.**



"Repressiyalar Korsika xalqı üçün adi hala çevrilib. Fransa illərboyu bizə yalan vədlər versə də, Korsikada hakimiyyətə sadəcə Fransanın müəyyən etdiyi adamlar gəlir. Səsvermə və demokratiya Fransanın uzaq olduğu anlayışlardır. Bütün beynəlxalq təşkilatlardan Korsikanın suverenliyinin təmin olunması üçün kömək istəyirik".

Bu çağırışı hələ 20 oktyabr 2023-cü ildə Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə ölkəmizdə keçirilən "Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik" mövzusunda beynəlxalq konfrans zamanı Korsika adasının Poggio-di-Venaco şəhərinin meri Jan-Mark Rodriguez səsləndirmiş və Fransanın illər boyu Korsikanı müstəmləkə altında saxlayaraq burada cinayətlər törətdiyini, müstəqillik istəyənlərin həbs edildiyini ya da öldürüldüyünü söyləmişdi.

Günümüzdə də müstəmləkəçi Fransa Korsikada repressiya küləyi əsdirir, azadlıq, müstəqillik tərəfdarlarını qanunsuz həbs edir.

### "Antiterror əməliyyatı" adı altında repressiya

Bu il mayın 20-də də Fransanın Korsika adasında, Yuxarı Korsika (Haute-Corse) bölgəsində genişmiqyaslı "antiterror əməliyyatı" həyata keçirməsi də bunun tərkib hissəsidir. Sözügedən əməliyyat Bastia, Pruno, Lucciana və Furiani şəhərlərində aparılıb.

Fransa Milli Antiterror Prokurorluğu bəyan edib ki, antiterror əməliyyatı istintaq hakiminin qərarı ilə həyata keçirilib və saxlanılanlar "müvəqqəti həbsə alınıb". O da iddia edilir ki, saxlanılanlar Korsikanın müstəqilliyi və milli azadlığı uğrunda mübarizə aparan qruplarla əlaqəli şəxs kimi tanınan Şarl Piyeriyə yaxın çevrədən olub və məhz onun "təsiri altında" zorakılıqda iştirak edib.

Rəsmi olaraq bildirilir ki, repressiyalar 2023-cü ilin sonunda guya Korsika ərazisində Korsika Milli Azadlıq Cəbhəsi (FLNC) tərəfindən "törədilmiş" terror aktları ilə bağlıdır.

Lakin məsələnin mahiyyəti tamamilə fərqlidir. 2023-cü ilin oktyabrında Korsikada törədilmiş partlayışlar Fransa Prezidenti Emmanuel Makronun Korsikaya geniş muxtariyyət təklifinə qarşı etirazlara görə baş vermişdi. O zaman FLNC və ona yaxın qruplar Makronun bu təklifini rədd edərək, etiraz aksiyalarına başlamışdılar.

İki il keçdikdən sonra Fransanın bu məsələni bəhanə edərək Korsikada repressiyalara başlaması işin içində başqa mətləblərin olduğunu və Parisin bu xalqın azadlıq istəyinə qətiyyən razılıq vermək niyyətində olmadığını göstərir.

Azərbaycan bütün beynəlxalq platformalarda neokolonializmə qarşı aktiv mübarizə aparır. XXI əsrdə də müstəmləkəçi siyasət yürüdən Fransanı dünyada ifşa edir.

Ölkəmizdə yaradılan və artıq iki ilə yaxın müddətdir ki, fəaliyyət göstərən Bakı Təşəbbüs Qrupu (BTQ) müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları ədalətli mübarizəyə böyük dəstək verir. Tarixi soyqırımları üzərində qurulan Fransa kimi ölkələrin bu günümüzdə hələ də davam etdirdiyi neokolonial siyasətə son qoyulması üçün aktiv iş aparır. Beynəlxalq konfranslar təşkil olunur, memorandumlar imzalanır.

Neokolonial siyasəti iflasa uğradılan Fransanın düçar olduğu uğursuzluqlara görə vaxtaşırı Bakını hədəfə alması da bunlara görədir.

### Müstəqillik uğrunda mübarizə

Bu il mayın 13-də İtaliyanın paytaxtı Romada Bakı Təşəbbüs Qrupunun Fransa müstəmləkəçiliyindən əziyyət çəkən və Korsikanın müstəqilliyi uğrunda mübarizə aparan "Nazione" Hərəkatının birgə təşkilatçılığı ilə "Milli kimlik, müqavimət və suverenlik: Korsika üçün perspektivlər" adlı tematik konfransı keçirilib.

"Nazione" Hərəkatının üzvləri Thierry Casolasco və Jean-Phillipe Antolini Korsika xalqının müqaviməti haqqında danışaraq, vəziyyətin belə davam edəcəyi təqdirdə minillik tarixi olan Korsika xalqının tarixdən silinəcəyini bildirib. Bu xüsusda onlar Fransa hüquq-mühafizə orqanlarının diktəsi ilə adada fəaliyyət göstərən qeyri-rəsmi dəstələr (Barbouzard) vasitəsilə Korsika xalqının müstəqilliyi uğrunda mübarizə aparan şəxslərin qətlə yetirilməsi cəhdləri və həmin xidmətin əməkdaşlarının medallarla təltif edildikləri barədə danışıblar.

Həmçinin "Nazione" Hərəkatının beynəlxalq bölməsinin rəhbəri Francois Benedettiadanın 1769-cu ildə ölkəsinin Fransa tərəfindən işğal edildiyini bildirərək, Korsika xalqının öz müstəqilliyini bərpa etmək istəyinin müzakirə obyekti olmadığını vurğulayaraq, "Nazione" Hərəkatının bu istiqamətdə mübarizəsini davam etdirəcəyini deyib. O, hazırda əsas hədəfin - Korsikanın BMT-nin dekolonizasiya edilməli olan əraziləri siyahısına daxil edilməsinin vacibliyini bildirib və BTQ-dən bu istiqamətdə dəstək xahiş edib.

2023-cü ildə Korsika xalqının öz milli kimliyinin bərpa edilməsi, fundamental hüquq və azadlıqlarının təmin olunması istiqamətində mübarizəsinə dəstək məqsədilə Azərbaycan Milli Məclisində yeni qrup yaradılıb. Dəstək qrupunun məqsədi Korsika xalqının haqlı tələblərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, Fransa müstəmləkəçiliyinin dağıdıcı təsirlərinə qarşı mübarizəsi uğrunda beynəlxalq səylərin birləşdirilməsidir.

Bütün bunlar isə təbii ki, neokolonial siyasət aparan Fransanın çirkin maraqlarına uyğun gəlmir və buna görə də azadlıq tələb edən xalqlara qarşı aqressivlik sərgiləyir.

Romada keçirilən "Milli kimlik, müqavimət və suverenlik: Korsika üçün perspektivlər" adlı tematik konfransdan dərhal sonra Korsikada repressiyalara əl atılması da buna əyani nümunədir.

Lakin Korsika xalqı azadlıq tələbindən geri dönmək fikrində deyil və üzləşdiyi çətinliklərə rəğmən milli azadlıq mübarizəsini davam etdirir, müstəmləkəçi Fransanın törətdiyi cinayət əməllərinə dünyanın diqqətini çəkmək üçün çağırışlar edir.

Beynəlxalq ictimaiyyət Korsika və digər müstəmləkə altında əzilən xalqların səsini qulaqardı etməyərək Fransanı kolonial təfəkküründən əl çəkməyə, xalqların azad olmaq hüququna hörmət etməyə məcbur etməlidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Ədalətə qayıdış

### Qərbi azərbaycanlıların sülh yolu ilə doğma torpaqlarına dönüşü təmin olunacaq

**Türkiyənin Ankara şəhərində keçirilən "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda beynəlxalq konfrans, əslində, təkcə bir xalqın haqq səsinin eşidilməsi deyil, həm də beynəlxalq hüquqa, tarixi ədalətsizliyə son qoyulmasına çağırışdır. Bu tədbir, yüzminlərlə azərbaycanlının yaddaşında sağalmaz yaralar buraxmış deportasiyaların, zorakılığın və kütləvi insan hüquqları pozuntularının dünya ictimaiyyəti qarşısında bir daha gündəmə gətirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.**






Bakı Dövlət Universitetinin kafedra müdiri Kamilə Əliyeva qəzetimizə açıqlamasında bildirib ki, qərbi azərbaycanlıların qayıdış hüququ hansısa siyasi ambisiyadan yox, insan hüquqlarının, mülkiyyət toxunulmazlığının və doğma torpaqlara bağlılığın fundamental hüququ kimi tanınmasından irəli gəlir: "Tarixə nəzər saldıqda görürük ki, XX əsrin müxtəlif mərhələlərində, xüsusilə 1948-1953-cü illərdə və 1987-1989-cu illərdə Ermənistan tərəfindən həyata keçirilən sistemli deportasiyalar nəticəsində yüzminlərlə azərbaycanlı doğma yurdlarından qovulub, evləri dağıdılıb, qəbirlər təhqir olunub, mədəni irsləri silinib. Bu, sadəcə etnik təmizləmə deyil, bir xalqın açıq-aşkar tarixdən silinməsi cəhdidir. Ermənistan dövləti bu cinayətləri illərlə danıb, beynəlxalq ictimaiyyəti aldatmağa çalışıb və "demokratiya" adı altında, əslində, monoetnik bir dövlət yaradıb. BMT-nin İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsinə, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktına, Avropa İnsan Hüquqları Konvensiyasına əsasən, hər bir insanın doğma torpağına qayıtmaq hüququ var. Amma Ermənistan bu hüququ tanımır, əksinə, bu qayıdış ideyasını siyasi təhdid kimi təqdim etməyə çalışır. Halbuki dövlətimiz qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıdışını sülh, dialoq və hüquqi çərçivədə həll olunmalı məsələ kimi görür".

Ekspert qeyd edib ki, konfrans bu məsələnin təkcə Azərbaycanla Ermənistan arasında olan ikitərəfli problem deyil, beynəlxalq miqyasda insan hüquqlarının kobud pozulması kimi dəyərləndirilməli olduğunu göstərdi. Dünya dövlətləri və beynəlxalq təşkilatlar, doğrudan da, ədalətdən və hüquqdan danışırlarsa, Ermənistanın etnik təmizləmə siyasətini açıq şəkildə qınamalı və qərbi azərbaycanlıların qayıdış hüququnu dəstəkləməlidirlər. "Ermənistan bu gün də beynəlxalq aləmdə özünü sülh tərəfdarı kimi təqdim etməyə çalışır, reallıqda isə bu ölkə regionda sülhə qarşı başlıca maneədir. Onun əsas məqsədi Azərbaycanla etibarlı sülh müqaviləsindən yayınmaq, revanşist əhvali-ruhiyyəni saxlamaq və Qərbi Azərbaycan mövzusunu unutdurmaqdır. Amma nə Azərbaycan dövləti, nə də xalqı bu tarixi ədalətsizliyi unudacaq", - deyə Kamilə Əliyeva bildirib.

O vurğulayıb ki, konfransda Azərbaycan və Türkiyədən 250-yə yaxın iştirakçının, Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavininin, sədr müavinlərinin, TBMM üzvlərinin, dövlət qurumlarının, elm və iş adamlarının, qeyri-hökumət təşkilatlarının, media nümayəndələrinin iştirakı artıq dünya ictimaiyyətində bu məsələyə marağın artdığını göstərir. Bu, bizim haqlı mövqeyimizi daha güclü şəkildə təqdim etməyimiz üçün bir fürsətdir. Azərbaycan dövləti bu istiqamətdə bütün hüquqi və diplomatik vasitələrlə fəaliyyətini davam etdirəcək və qərbi azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz şəkildə doğma torpaqlarına qayıdışı təmin olunacaq. Bu konfrans həm beynəlxalq ictimaiyyətə, həm Ermənistana, həm də bütün qərbi azərbaycanlılara bir çağırış idi. Çağırış ondan ibarətdir ki, haqq geri qayıdır. Bu ədalətə və insan hüquqlarına qayıdışdır, tarixin bərpasıdır.

*Əsmər QABİLQIZI,*
*"Azərbaycan"*

## *Türkiyə universitetinin dekanı:*

## "Qərbi Azərbaycan reallıqlarının təbliği bütün dünyanı əhatə etməlidir"

**"Qərbi Azərbaycan mövzusunda tədbirlər yalnız Türkiyədə deyil, dünyanın digər ölkələrində də dövlət xadimləri, siyasətçilər və alimlərin iştirakı ilə keçirilməlidir ki, dünya ictimaiyyəti müasir Ermənistan ərazisindəki tarixi torpaqlardan qovulmuş azərbaycanlıların taleyindən xəbərdar olsun".**

Bu fikirləri Türkiyə Milli Müdafiə Universitetinin Quru Qoşunları Məktəbinin dekanı, professor İbrahim Ethem Atnur AZƏRTAC-a Ankarada keçirilmiş "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin təminatıdır" mövzusunda beynəlxalq konfransın əhəmiyyətini şərh edərkən söyləyib.

Onun sözlərinə görə, Qərbi Azərbaycanın reallıqlarının təbliği Cənubi Qafqazın bu bölgəsinin yerli əhalisinin zəngin irsinin və mədəniyyətinin unudulmamasına da xidmət edən bir yoldur. "Qərbi Azərbaycan haqqında təkcə siyasətçilər və alimlər deyil, həm də qeyri-hökumət qurumları, insan hüquqları təşkilatları, media strukturları və nəhayət, sadə vətəndaşlar danışmalıdır", - deyə Türkiyə universitetinin dekanı qeyd edib və elmi nəşrlərin auditoriyasının məhdudluğuna diqqət çəkib.

İ.E.Atnur əminliklə bildirib ki, Qərbi Azərbaycan sakinlərinin dəfələrlə yaşadığı faciə və ağrı dünya ölkələrinin ictimaiyyətinə çatdırılmalıdır. "Ankarada keçirilmiş tədbir kimi böyük tədbirlər geniş auditoriyanı məlumatlandırmaq üçün təkan ola bilər və olmalıdır. Bu məsələnin unudulmasına imkan verə bilmərik", - deyə Türkiyə Milli Müdafiə Universitetinin professoru vurğulayıb.



İ.E.Atnur diqqəti bu fakta yönəldib ki, bu gün Qarsda, İğdırda, Ərzurumda və Anadolunun bir çox digər bölgəsində Qərbi Azərbaycanı tərk etməyə məcbur qalmış azərbaycanlıların yüzminlərlə nəvəsi yaşayır. "Bu insanlar Qərbi Azərbaycan sakinlərinin faciəsi haqqında məlumatı nəsildən-nəslə ötürürlər. Lakin, təəssüf ki, geniş ictimaiyyət bu mövzu haqqında məlumatsızdır. Bir çoxu müasir Ermənistan ərazisində azərbaycanlılara məxsus mədəni və memarlıq abidələri haqqında heç nə bilmir. Onların böyük əksəriyyəti artıq ermənilər tərəfindən məhv edilib", - deyə türkiyəli alim qeyd edib.

O, Qərbi Azərbaycan sakinlərinin hüquqlarının bərpası, insanların doğma torpaqlarına ləyaqətli və təhlükəsiz şəkildə qayıdışının təmin olunması istiqamətində səylərin davam etdirilməsinə çağırıb.

# Kahramanmaraşdakı Heydər Əliyev adına məktəbdə Azərbaycan dövlətçiliyinin memarının xatirəsi ehtiramla anılıb





**Mayın 23-də Kahramanmaraşda Azərbaycan məhəlləsində yerləşən Heydər Əliyev adına ibtidai məktəbdə Azərbaycan dövlətçiliyinin memarının anadan olmasının 102-ci ildönümünə həsr olunmuş mərasim keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Kahramanmaraşdan olan millət vəkili, Türkiyənin keçmiş kənd təsərrüfatı və meşə təsərrüfatı naziri Vahit Kirişçi, Azərbaycanın Ankaradakı səfirliyinin təhsil üzrə müşaviri Nəcibə Nəsibova, Sütçü İmam Universitetinin rektoru Alptekin Yasım, Kahramanmaraş Təhsil İdarəsinin müdiri Erhan Demiröz, siyasi partiyaların nümayəndələri, təhsil müəssisəsinin rəhbərliyi, müəllimləri və tələbələr iştirak ediblər.

Kahramanmaraş Təhsil İdarəsinin müdiri Erxan Demiröz Azərbaycanın dahi oğluna həsr olunmuş tədbirdə iştirak etməkdən qürur duyduğunu bildirib: "Biz bu gün adı bu məktəbin divarları arasında da yaşayan dahi Heydər Əliyevi ehtiramla anırıq. Milyonlarla insana örnək olaraq qalan dövlət xadimi gənclərin inkişafına və təhsilinə böyük önəm verirdi".

Kahramanmaraş Təhsil İdarəsinin müdiri təbii fəlakət zonasının sakinlərinə, o cümlədən rayonun təhsil sisteminin bərpası məsələsində göstərdiyi köməyə görə, Azərbaycan Prezidentinə və xalqına minnətdarlığını bildirib.

Azərbaycanın Ankaradakı səfirliyinin təhsil üzrə müşaviri Nəcibə Nəsibova uşaqları dahi Heydər Əliyevin və Mustafa Kamal Atatürkün vəsiyyətlərinə əməl etməyə, öz ölkəsinə layiqli vətəndaş olmağa, Türkiyə və Azərbaycan birliyinin keşiyində durmağa çağırıb. Türkiyə parlamentinin deputatı Vahit Kirişçi dahi Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb. Siyasətçi Ümummilli Liderin Türkiyə-Azərbaycan münasibətlərinin inkişafına verdiyi töhfəni vurğulayıb.

Məktəbin şagirdləri Türkiyə və Azərbaycan qardaşlığına həsr olunmuş şeirlər səsləndiriblər. Sonra uşaqların rəqs nömrələri nümayiş olunub.

Tədbir Heydər Əliyevə, eləcə də Türkiyə və Azərbaycan dostluğu mövzusuna həsr olunmuş sərginin açılışı ilə başa çatıb.

# İslamabadda Azərbaycanın qarşıdan gələn "Müstəqillik Günü" münasibətilə ziyafət verilib

**İslamabadda Azərbaycanın qarşıdan gələn "Müstəqillik Günü" münasibətilə ziyafət təşkil edilib. Tədbirdə Pakistanın Federal Neft Naziri Əli Perviz Malik də iştirak edib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycanın Pakistandakı səfirliyi tərəfindən təşkil olunan qəbulda Pakistanın Sind əyalətinin qubernatoru Kamran Tessori və Xeyber-Paxtunxva əyalətinin qubernatoru Faysal Kərim Kundi, iqlim dəyişikliyi üzrə keçmiş nazir, senator Şerri Rəhman və digər nüfuzlu şəxslər iştirak ediblər.

İslamabadda fəaliyyət göstərən xarici ölkələrin diplomatları, Pakistanın dövlət rəsmiləri, işgüzar dairələrin və vətəndaş cəmiyyətinin nümayəndələri, tanınmış media xadimləri və Pakistanda yaşayan azərbaycanlılar da qəbulda iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman Şərqində ilk demokratik dünyəvi respublika olduğunu vurğulayıb.

O, Azərbaycanın müstəqilliyinin bərpasından sonra Pakistanın rolunu yüksək qiymətləndirib və qeyd edib ki, Pakistan 1991-ci ilin dekabrında Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən olub.

## Konstitusiya və Suverenlik İli 2025

# Kür çayı sahilində yeni ağaclar əkilib

**"Konstitusiya və Suverenlik İli" çərçivəsində Salyan Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Kür çayı sahilində növbəti ağacəkmə aksiyası keçirilib.**

YAP Salyan rayon təşkilatının, Ekologiya və Təbii Sərvətlər Nazirliyi 3 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin, "Ana Kür" İctimai Birliiyinin, idarə, müəssisə və təşkilatların rəhbərlərinin, rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə keçirilən aksiyada Kür sahilinə ağaclar əkilərək suvarılıb və onlara aqrotexniki qulluq göstərilib.

"Konstitusiya və Suverenlik İli" çərçivəsində rayon ərazisində yaşıllıqların salınması davam edir.

*"Azərbaycan"*

# Tədbirdə Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq əlaqələrindən danışılıb



**Qars Şəhər Mədəniyyət və Turizm İdarəsinin konsert zalında Azərbaycanın "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş konsert və milli geyimlərin nümayişi olub.**

AZƏRTAC xəbər verir ki, tədbir Qars valiliyi və bələdiyyəsinin, Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin, ölkəmizin Qarsdakı baş konsulluğunun, Türk-Azərbaycan İcmaları Federasiyasının (TADEF) və ölkəmizin Ankaradakı səfirliyinin yanında fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilib.

Konsertdə Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev, ölkəmizin Qarsdakı baş konsulu Zamin Əliyev, Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasından olan millət vəkili Adem Çalkın, Qars Bələdiyyəsinin rəhbəri Ötükən Senger və başqaları iştirak ediblər.

Milli Azərbaycan geyimlərinin nümayişi Türkiyənin şərq vilayətinin yüzlərlə sakininin böyük marağına səbəb olub, daha sonra Azərbaycanın Xalq artisti, balaban ifaçısı Əlixan Səmədov və Əməkdar artist Rəvanə Qurbanovanın çıxışları olub.

Tədbir iştirakçıları Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq əlaqələrinin sarsılmaz olduğunu vurğulayaraq, ölkəmizin tarixi və mədəniyyətinə həsr olunmuş tədbirlərin davam etdiriləcəyinə ümidvar olduqlarını bildiriblər.

# Yekaterinburqda azərbaycanlı tələbələr arasında viktorina təşkil edilib





**"Konstitusiya və Suverenlik ili" çərçivəsində Yekaterinburq şəhərində Azərbaycanın Yekaterinburqdakı Baş Konsulluğunun təşkilatçılığı, "Azərbaycan-Ural" İctimai Milli-Mədəni Təşkilatının və Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) Sverdlovsk vilayətindəki nümayəndəliyinin dəstəyi ilə azərbaycanlı tələbələr arasında peşəkar əsasda viktorina təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, Yekaterinburq Kitabxana Mərkəzində keçirilən viktorinanın açılışında baş konsul vəzifəsini icra edən Şöhrət Mustafayev və RAGB-nin Sverdlovsk vilayətindəki nümayəndəliyinin rəhbəri Toğrul Həsənzadə çıxış edərək "Konstitusiya və Suverenlik ili"nə həsr olunmuş intellektual yarışın əhəmiyyətini vurğulayıblar.

Peşəkar formatda tərtib edilən yarış üç raund və duel mərhələsindən ibarət olub. Yekunda komandaların topladığı xallar əsasında qaliblər müəyyən edilib. Birinci yeri "Zəfər" komandası, ikinci yeri "Nar" komandası, üçüncü yeri isə "Xraniteli Oqnya" komandası tutub.

Qaliblərə Azərbaycanın Yekaterinburqdakı Baş Konsulluğu tərəfindən müxtəlif məbləğlərdə pul mükafatları, diplomlar və hədiyyələr təqdim olunub. Turnirdə iştirak edən digər komanda üzvlərinə isə təşəkkürnamələr verilib.

# Azərbaycan və Qazaxıstan arasında akademik əməkdaşlıq Astana forumunun diqqət mərkəzindədir

**Astanada "Müasir dünyada qanun, hüquq, ədalət" mövzusunda Beynəlxalq Hüquqşünaslar Konqresi keçirilib. Tədbir Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq Mühafizə Orqanları Akademiyası tərəfindən təşkil olunub.**



Akademiyanın rektoru Marat Seksembayev AZƏRTAC-a bildirib ki, tədbirin əsas məqsədi türk ölkələri arasında əməkdaşlığın və qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi, eləcə də hüquq sistemlərinin, hüquq-mühafizə və məhkəmə orqanları üçün kadr hazırlığı sisteminin təkmilləşdirilməsinə dair birgə təklif və tövsiyələrin hazırlanmasıdır.

"Ümumilikdə, belə forumlar bizə mövcud problemləri, çağırışları və təhdidləri, habelə onların qarşısının alınması və həlli yollarını müəyyən etməyə imkan verir", - deyə o vurğulayıb.

"Biz hüquq-mühafizə məsələləri ilə bağlı birgə elmi tədqiqatların aparılmasında fəal iştirak edir, təcrübəçilərin, magistrantların və doktorantların mübadiləsini həyata keçiririk. Artıq kifayət qədər geniş qarşılıqlı əlaqələr spektri formalaşdırılıb və əminəm ki, o bundan sonra da genişlənəcək", - deyə M.Seksembayev əlavə edib.

Qeyd edək ki, tədbirdə Azərbaycan, Qırğızıstan, Türkiyə, Özbəkistandan hüquq və elmi ictimaiyyətin nümayəndələri, o cümlədən Qazaxıstandan hüquq sahəsində aparıcı alim və təcrübəçilər çıxış ediblər.

Forum Qazaxıstanın Türk Məhkəmə-Hüquq Şəbəkəsində sədrliyi və Akademiyanın 10 illik yubileyinə həsr olunub.

# Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində kibertəhlükəsizlik mövzusunda maarifləndirici tədbir keçirilib

**Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində "Uşaqlarımızın kiberşüurunun gücləndirilməsi" adlı kibertəhlükəsizlik mövzusuna həsr olunmuş maarifləndirici tədbir keçirilib.**






Mərkəzdən AZƏRTAC-a bildirilib ki, tədbirin açılışında iştirakçılara Azərbaycan Mədəniyyət Mərkəzinin fəaliyyəti barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, Mərkəz milli mədəniyyətimizin təbliği ilə yanaşı, maarifləndirmə, elmi-tədqiqat və yaradıcı sənaye sahələrinə aid mövzuları da əhatə edən təşəbbüslərlə çıxış edir. Bu kimi tədbirlər ictimaiyyətin aktual məsələlərlə bağlı maarifləndirilməsinə xidmət edir.

Tədbirin əsas qonağı uzun müddət Almaniyada yaşayan azərbaycanlı IT mütəxəssisi, "CYBERBEWUSST - Wie wir das Cyberbewusstsein unserer Kinder starken" (Kiberdərk - Uşaqlarımızın kiberdünyada şüurlu davranışını necə inkişaf etdirə bilərik) kitabının müəllifi Nərgiz Hahn olub.

Nərgiz Hahn mühazirəsinin birinci hissəsində kibertəhlükələrin gündəlik həyatımıza necə təsir etdiyini ətraflı izah edib. O, fişinq hücumlarından tutmuş kibertəqibə, şəxsiyyət və maliyyə məlumatlarının oğurlanmasından sosial mühəndislik texnikalarına qədər bir çox real təhlükələrə diqqət çəkib. Mühazirənin ikinci hissəsində isə N.Hahn kibertəhlükələrə qarşı uşaqlarda "Kiberrezilientlik" - yəni rəqəmsal dayanıqlıq bacarığının formalaşdırılmasına dair praktiki tövsiyələrini verib. O, valideynlər və pedaqoqlar üçün konkret davranış modelləri, eləcə də uşaqlarda özünüqoruma instinktinin inkişaf etdirilməsi yollarından danışıb, rəqəmsal dövrdə uşaqların potensialının düzgün istiqamətləndirilməsinin vacibliyini vurğulayıb.

Təqdimat zamanı o, Almaniyada baş vermiş məşhur kibercinayət hadisələrinə də toxunub. Mainz Universitet Klinikasından 68 min, Düsseldorf Universitetindən isə on minlərlə şəxsi məlumatın oğurlanması faktlarını misal gətirən N.Hahn belə hadisələrin insan həyatı və təhlükəsizliyi üçün nə qədər ciddi nəticələrə səbəb ola biləcəyini izah edib.

Rəqəmsal dünyanın sürətlə inkişaf etdiyi dövrdə alman auditoriyasına azərbaycanlı mütəxəssis tərəfindən verilən təlim uşaqların və yeniyetmələrin internet mühitində qarşılaşdığı riskləri gündəmə gətirmək, eləcə də valideynlərə və müəllimlərə faydalı tövsiyələr təqdim etmək məqsədi daşıyıb.

# Aktau yaxınlığında AZAL-a məxsus təyyarənin qəzaya uğradığı yerdə xatirə abidəsi qurulub

**"Azərbaycan Hava Yolları" QSC-yə (AZAL) məxsus təyyarənin Aktau yaxınlığında qəzaya uğradığı yerdə ucaldılan abidənin görüntüləri yayımlanıb.**



AZƏRTAC xəbər verir ki, bu, təyyarənin qalıqları olan ərazinin ətrafında skamyalar və güllərlə tamamlanmış metal hasarlanmadır.

Tüpkaraqan rayonunun akimi yerli mediaya izah edib ki, abidənin qurulması Manqistau vilayətinin sakinlərinin təşəbbüsü ilə baş tutub: "Onlar öz vəsaitləri hesabına həlak olanların xatirəsini yad etmək qərarına gəliblər, heç bir büdcə vəsaiti istifadə olunmayıb".

Xatırladaq ki, AZAL-ın Bakıdan Qroznıya uçan sərnişin təyyarəsi ötən il dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Təyyarənin göyərtəsində olan 67 nəfərdən 38-i həlak olub, 29-u sağ qalıb.

# İqtisadiyyat və sosial həyat

# Üç dənizin əfsanəsi

## BTC-yə ilk neftin vurulmasından 20 il ötür




**Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri hazırda Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının neftini və "Şahdəniz"dən çıxarılan kondensatı daşıyır. Bundan əlavə, BTC Xəzərin digər regional xam neft və kondensat həcmlərini (Qazaxıstan və Türkmənistan, SOCAR-ın AÇG-dən kənar hasilat həcmləri) də nəql edir.**

BTC-nin idarəedicisi BP şirkətinin məlumatına görə, istismara veriləndən 2025-ci ilin birinci rübünün sonunadək bu boru kəməri vasitəsilə ümumilikdə təqribən 598 milyon ton (4,5 milyard barel) xam neft nəql edilib və Ceyhanda 5932 tankerə yüklənərək dünya bazarlarına göndərilib. Bu ilin birinci rübü ərzində BTC ilə ixrac olunmuş təqribən 7 milyon ton (təxminən 54 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 70 tankerə yüklənib və yola salınıb.

Kəmərə ilk neft isə 20 il əvvəl Səngəçal terminalından vurulub. Bu, "Azəri" yatağından çıxarılan ilkin neft idi. BTC tam sistem kimi 2006-cı ilin yayında istifadəyə verildi. Belə ki, kəmərin 2005-ci ilin mayından nəql etdiyi neft Ceyhan terminalına növbəti ilin həmin ayında çatmışdı.

25 may 2005-ci ildə BTC-nin neftlə doldurulmasına başlanması həm də kəmərin Azərbaycan hissəsinin istifadəyə verilməsi demək idi. Təkcə ölkəmizin deyil, bütün regionun həyatında mühüm əhəmiyyəti olan bu hadisə ilə bağlı Bakıda və Səngəçalda keçirilən tədbirlərdə Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Türkiyənin, Gürcüstanın və Qazaxıstanın dövlət başçıları da iştirak etmişdilər.

BTC-nin salnaməsi qısa olsa da, zəngindir. Keçən əsrin 90-cı illərinin ikinci yarısında "Əsrin müqaviləsi" çərçivəsində neft hasilatı artdıqca mövcud olan Bakı-Supsa və Bakı-Novorossiysk kəmərlərindən əlavə daha böyük bir ixrac marşrutuna ehtiyac yaranırdı. Belə bir şəraitdə BTC-nin çəkilişi ideyası irəli sürüldü. 1998-ci ildə Ankarada kəmərin inşa edilməsi haqqında bəyannamə, 1999-cu ildə İstanbulda ATƏT-in Zirvə görüşü zamanı isə xəttin çəkilişi ilə bağlı saziş imzalandı. Sazış Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın və Amerika Birləşmiş Ştatlarının ovaxtkı prezidentlərinin imzaları ilə təsdiqləndi.

Bundan əvvəl "Əsrin müqaviləsi"ni xülya adlandıranlar, müxtəlif bəhanələrlə və güclü səylərlə onun baş tutmasına mane olmaq istəyənlər yenidən baş qaldırmışdılar. Bu dəfə hədəfdə BTC idi. Lakin Ümummilli Lider layihənin həyata keçirilməsinin bütün mərhələlərində "BTC olacaq, olacaq, olacaqdır!" deyirdi.

Ulu Öndərin səyləri ilə layihə irəlilədi və qalib gəldi. Azərbaycanın bədxahları bu dəfə də məqsədlərinə çatmadılar. Ümummilli Liderin daha bir şah əsəri tarixdə özünə yer aldı. 3 fevral 2004-cü ildə Bakıda, "Gülüstan" sarayında Prezident İlham Əliyevin iştirakı ilə BTC layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar son sənədlər imzalandı.

BTC üçüncü minilliyin nəhəng mühəndis qurğusudur. Bu boru xətti Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisində yerin altı ilə 1768 kilometr məsafə qət edir. Kəmərin bir sıra əzəmətli yerüstü qurğuları, o cümlədən 8 nasos stansiyası var. Səngəçaldakı baş nasos stansiyasından sonra ikinci stansiya yenə də Azərbaycanın ərazisində - Yevlaxda yerləşir. İki stansiya Gürcüstanda, dördü isə Türkiyədədir.

Xəttin gündəlik ötürücülük gücü 1,2 milyon barel təşkil edir. Keçdiyi ərazilərin coğrafiyasından asılı olaraq BTC 46, 42 və 34 düymlük borulardan çəkilib. Belə ki, kəmər öz marşrutu boyu bir neçə dağ silsiləsi qət edir, o cümlədən 2830 metr yüksəkliyə qalxır, eləcə də 3000 yol, dəmir yolu, yeraltı və yerüstü kommunikasiya xətti, eni 500 metrə çatan Ceyhan çayının keçidi də daxil olmaqla 1500-dən çox su hövzəsi ilə kəsişir. Ceyhana yaxınlaşarkən kəmər yenidən dəniz səviyyəsinə enir. Azərbaycanın 13 rayonundan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan keçən kəmər ölkəmizdə 443, Gürcüstanın 7 bölgəsində 249 və Türkiyənin 9 rayonunda 1076 kilometrlik yolboyu uzanır.

BTC-ni "Üç dənizin əfsanəsi" də adlandırırlar. Çünki bu polad kəmər Xəzəri, Qara dənizi və Aralıq dənizini birləşdirir. O, eləcə də xalqları və ölkələri bir-birinə yaxınlaşdırır.

Bu kəmərin bir əhəmiyyəti də ondan ibarətdir ki, özündən sonra neçə-neçə digər layihəyə yol açıb. Başqa sözlə, Bakı-Tbilisi-Ceyhandan başlanan yol geniş dəhlizlərə qovuşub. BTC-nin çəkilişini tarixi hadisə adlandıran Prezident İlham Əliyev onu həmişə yüksək dəyərləndirir: "Əgər o kəmər olmasaydı, Azərbaycan öz neft və ondan sonra qaz potensialını dünya bazarlarına çatdıra bilməzdi. Beləliklə, dəhliz yaradıldı. Xəzər dənizi-Qara dəniz-Aralıq dənizi əməkdaşlıq formatı formalaşmışdır. Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan bu gün uğurla fəaliyyət göstərir və başqa ölkələrə də xidmət edir. Dəhliz formalaşandan sonra əlbəttə ki, Azərbaycan öz tranzit rolunu oynamağa başlamışdır. Bu gün biz qeyd edə bilərik ki, artıq Azərbaycan öz coğrafi vəziyyətindən, logistika imkanlarından tam şəkildə istifadə edir".

BTC həm də təhlükəsiz kəmərdir. Qeyd edildiyi kimi, bu xəttin boruları bütün marşrut boyu torpaq altında basdırılıb. Bu da müasir dövrdə karbohidrogenlərin ən etibarlı nəql vasitəsi sayılır. Onu da əlavə etmək yerinə düşər ki, BTC-nin bir hissəsi 2023-cü ildə Türkiyənin zəlzələyə məruz qalan ərazilərindən keçir. Bununla belə, kəmərin istər boruları, istərsə də yerüstü qurğuları heç bir zədə almadı. Bu da xəttin çəkilişinin mükəmməl olduğundan xəbər verir.

Zaman irəlilədikcə BTC özünü dönə-dönə təsdiqləyir və onun önəmi artır. Kəmər ahəngdar işləyərək ölkəmizə, eləcə də regiona gətirdiyi gəlirləri çoxaldır. Beləliklə, bu boru xətti istifadəyə veriləndən sonrakı illərdə ölkəmiz böyük həcmdə valyuta ehtiyatları əldə edib. Azərbaycan dövləti bu ehtiyatlardan səmərəli istifadə edərək onları ölkənin əsas inkişaf istiqamətlərinə yönəldib. Ölkəmizdə neft kapitalı insan kapitalına çevrilib.

Hazırda BTC Ko.-nun səhmdarlarının hansı şirkətlər olduğunu da xatırladaq. Bunlar BP (30,10 faiz), SOCAR (32,97 faiz), MOL (8,90 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "TotalEnergies"(5 faiz), İTOÇU (3,40 faiz), ONGC-Videş (3,10 faiz), "EksonMobil" (2,50 faiz) və İNPEKS (2,50 faiz) şirkətləridir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# "e-sosial" portalının mobil tətbiqi üzərindən artıq 23,2 min əmək müqaviləsi imzalanıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "e-sosial" portalının mobil tətbiqi vasitəsilə e-qaydada artıq 23,2 min əmək müqaviləsi imzalanıb.**

Qeyd edək ki, bu mobil tətbiqə cari ilin mart ayında növbəti yenilik - əmək müqavilələrinin e-qaydada imzalanmasına imkan verən funksiya əlavə olunub.

İşəgötürən tərəfindən təsdiq üçün təqdim edilən əmək müqaviləsi vətəndaşın "e-sosial" mobil tətbiqində əsas ekranın "Əmək müqaviləsinin imzalanması" bölməsində əks olunur.

Vətəndaşlar bu müqavilələri elektron şəkildə ("SİMA" rəqəmsal imza və ya "ASAN İmza" vasitəsilə) rahat şəkildə imzalaya bilirlər.

Bu yenilik əmək münasibətlərinin rəqəmsal müstəviyə keçidini sürətləndirməklə yanaşı, imzalanma prosesini daha çevik və vətəndaşlar üçün əlçatan edir.

# "Könüllü DOST" proqramına 500-dən çox şəxs cəlb olunub

**Azərbaycanda könüllülük hərəkatının genişlənməsində mühüm rola malik "Könüllü DOST" proqramına cari ilin 4 ayı ərzində 11,4 min müraciət olub, 523 şəxs proqrama cəlb olunub.**

Proqramın "Gənc DOST", "Gümüşü DOST" (yaşlılar üçün), "Distant DOST", "Korporativ DOST", "İnklüziv DOST" kimi altproqramları fəaliyyət göstərir.

Könüllülər DOST mərkəzlərində vətəndaşların qarşılanması, xidmət pəncərələrinə yönləndirilməsi, vətəndaş axınının, növbələrin idarə edilməsi, vətəndaşların məlumatlandırılması, e-sistemlərdən istifadə və s. üzrə köməklik göstərir.

Onlar dövlət sosial xidmətlərinin "bir pəncərə"dən vətəndaş məmnunluğu prinsipi ilə təqdim edilməsi işlərinə öz töhfələrini verirlər.



Proqram iştirakçıların vətəndaşlara xidmət sahəsində təcrübə, işgüzar vərdişlər əldə etmələrinə, fərdi inkişafı və karyera yolunda ilk uğurlu addımlarına dəstək olur.

# "Azərbaycanla əməkdaşlıq sayəsində ölkəmiz Avropanın enerji təhlükəsizliyində əsas dayaqlardan birinə çevrilir"

**Rumıniyanın qabaqcıl media orqanları ölkənin Avropanın enerji təhlükəsizliyi sistemində strateji rolunu gücləndirərək Tuzla-Podişor qaz kəməri layihəsini uğurla başa çatdırması barədə məlumat yayıb.**

AZƏRTAC xəbər verir ki, bu, 310 kilometrlik infrastruktur layihəsi 500 milyon avro dəyərində olub, Avropa üçün mühüm alternativ enerji marşrutlarının açılmasına xidmət edir.

Qeyd olunur ki, bu qaz kəməri yalnız Rumıniyadan çıxarılan Qara dəniz qazını deyil, Azərbaycan, Türkiyə və Yunanıstan vasitəsilə gətirilən təbii qazın da Avropanın mərkəzinə ötürülməsinə imkan yaradacaq. Beləliklə, Rumıniya özünü regional enerji mərkəzi kimi təsdiqləyir və enerji marşrutlarının şaxələndirilməsində önəmli halqaya çevrilir.

Layihənin ən mühüm xüsusiyyətlərindən biri Azərbaycan təbii qazının bu yeni arteriya vasitəsilə Avropa bazarlarına çıxışının təmin edilməsidir. "Cənub qaz dəhlizi" layihəsi çərçivəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksələn Bakı-Buxarest əlaqələri bu layihə ilə daha da möhkəmlənir. Rumıniya rəsmiləri, o cümlədən "Transgaz" şirkətinin baş direktoru İon Sterian Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunu xüsusi olaraq qeyd ediblər.

İ.Sterian bildirib ki, layihə istismara tam hazırdır və iyul ayında rəsmən istifadəyə veriləcək. O deyib: "Məqsədimiz təkcə milli enerji tələbatını ödəmək deyil, həm də Azərbaycan, Türkiyə və digər tərəfdaşlardan gələn qazın etibarlı və dayanıqlı şəkildə Avropaya nəqlini təmin etməkdir".

Tuzla-Podişor kəməri yalnız texniki nailiyyət deyil, həm də geosiyasi baxımdan vacib hadisədir. Bu marşrut Rusiyadan enerji asılılığını azaltmaq istəyən Avropa İttifaqı üçün etibarlı alternativ yaradır.

Eyni zamanda "Transgaz" tərəfindən elan olunan yeni təşəbbüs - Yunanıstandan Ukraynaya mayeləşdirilmiş təbii qazın 25 faizlik endi-




rimli tariflə daşınması planı Azərbaycan qazının geniş bazara çıxışını daha da asanlaşdıracaq.

Beləliklə, bildirilir ki, Azərbaycanın enerji siyasəti və Cənubi Qafqazda oynadığı rolu, Avropanın enerji xəritəsinin formalaşmasında aparıcı mövqedə dayanmağa davam edir.

# Həssas qrupa aid uşaqlara həssas münasibət

**Həssas qruplara aid uşaqlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi tərəfindən reabilitasiyayönümlü sosial xidmətlərlə əhatə olunurlar. Müəssisə əsaslı qayğıya alternativ sosial xidmətin - himayədar ailə qayğı modelinin yaradılması, müəssisələrdə yaşayan uşaqların ailə mühitində yaşamasını təmin etmək üçün həyata keçirilən reinteqrasiya tədbirləri, eləcə də digər mühüm sosial layihələr baxımından xüsusi əhəmiyyət daşıyır.**



Prezident İlham Əliyevin fərmanı ilə 1 noyabr 2019-cu ildən övladlığagötürmə sahəsində idarəetmə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə olunub. Ötən müddətdə 726 uşaq övladlığa verilib. Onlardan 363 nəfəri oğlan, 363 nəfəri qızdır. Uşaqların övladlığa verildiyi ailələrdə vəziyyətinin öyrənilməsi üçün onlar 18 yaşına çatanadək övladlığagötürmənin birinci ilində hər rüb, növbəti illərdə isə ildə bir dəfə olmaqla monitorinqlər aparılır.

Uşaqlara qayğı sisteminin dünyada geniş yayılmış nümunələrindən biri olan "Himayədar ailə" qayğı modeli ölkəmizdə də tətbiq edilir. Ailədə yaşamaq, böyümək, tərbiyə olunmaq uşağın əsas hüquqlarıdır. "Himayədar ailə" qayğı modeli də valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş, valideynləri tərəfindən müəssisəyə qoyulmuş uşaqların himayədar ailələrə verilməsi ilə dövlət nəzarəti altında ailə mühitində yaşamalarına və inkişafına şərait yaradır. Ötən dövrdə 45 uşaq himayədar ailələrə verilib.

Dövlət uşaq müəssisələrindəki uşaqların ailələrinə qayıdışı üçün reinteqrasiya tədbirlərinə də xüsusi önəm verir. Agentlik fəaliyyətə başladığı vaxtdan ötən dövr ərzində həyata keçirilən reinteqrasiya tədbirləri nəticəsində 715 uşağın müəssisələrdən ailələrinə qayıdışı təmin olunub.

Sosial Xidmətlər Agentliyinin sosial xidmət müəssisələrinin nəzdində yaradılan üç daimi Günərzi Qayğı mərkəzinin də məqsədi həssas qruplara aid uşaqların ailə mühitində yaşamasının təmin edilməsi və zəruri sosial xidmətlərlə əhatə olunmasıdır. Abşeron, Pirallahı və Xəzər rayonları ərazisində yerləşən mərkəzlərdə bu günədək xüsusi qayğıya ehtiyacı olan 65 uşaq bir sıra sosial-reabilitasiya xidmətlərinə cəlb edilib.

Ailəəsaslı həmin yarımstasionar sosial xidmət müəssisələrində uşaqların sosial-psixoloji və sosial-pedaqoji qiymətləndirilməsi həyata keçirilir. Uşaqlar və ailələri fərdi inkişaf planına əsasən, müxtəlif təlimlərə cəlb edilir, onların cəmiyyətə inteqrasiyasının təmin olunması, ailələri ilə birgə asudə vaxtlarının təşkili, valideynlik bacarıqlarının artırılması üçün müxtəlif tədbirlər görülür. Günərzi Qayğı mərkəzlərində şəxslərin psixo-sosial reabilitasiyası, fərdi və qrup işlərinə cəlb olunması, idman, rəqs, musiqi və digər məşğələlərə, müxtəlif tədbirlərə qoşulmaları üçün də hər cür şərait yaradılıb.

Agentliyin sifarişi ilə icra olunan layihələr əsasında ölkəmizin bölgələrində də 30 Günərzi Qayğı mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərdə həssas qruplara aid, o cümlədən əlilliyi olan uşaqların korreksiya, abilitasiya, reabilitasiya və s. xidmətlərlə, psixoloji dəstəklə təminatı həyata keçirilir. Ümumilikdə 900 uşaq bu mərkəzlərin xidmətləri ilə əhatə olunub. Müxtəlif dərnəklər vasitəsilə onlarda özünəxidmət qabiliyyətlərinin artırılması və təxəyyüllərinin inkişafı üçün də işlər aparılır. Günərzi Qayğı mərkəzlərinin məqsədi həssas qruplardan olan uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması, çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsidir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# REGİONLAR

## Qarabağda büsat var

### Bu yerlərdə indi sükutu tanklar, toplar yox, yolçəkən maşınlar, kənd təsərrüfatı texnikaları pozur





**Qəhrəman Azərbaycan əsgərinin qanı, canı bahasına, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin polad iradəsi, müdrik siyasəti sayəsində işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur sanki ömrünün ikinci baharına qovuşub. Yazın bu oğlan çağında Qarabağ və Şərqi Zəngəzur sözün bütün mənalarında cənnəti xatırladır.**

Zirvəsi qarlı dağlar, gül-çiçəkli yamaclar, nəğməkar şəlalələr, durnagözlü bulaqlar adamın ruhuna sığal çəkir. Ana təbiətin bu sirli - sehrli, ecazkar tablosu qarşısında, ixtiyarsız bütün qayğıları unudub fərqli bir dünyaya, gözəlliklər aləminə düşürsən. Baharın ılıq nəfəsi, təmiz dağ havası, könül açan, gözoxşayan mənzərələr gözünlə, nəfəsinlə canına hopur, içində qeyri-adi bir rahatlıq, hüzur yaradır.

Bax 30 il ana təbiətin, doğma yurdun bu şirin nağılına həsrət qalmışdıq. Sinəmizə çalın-çarpaz dağlar çəkilmiş, insanlığın üz qarası olan faşist xislətli ermənilər bu cənnət misalı yurdumuzu odlara qalamış, viran qoymuşlar. Sanki cəhənnəm alovu yandırıb-yaxmış, külə çevirmişdi bu kəndləri, şəhərləri. Namərdlər daş üstə daş qoymamışlar. Körpələri, ixtiyar qocaları, günahsız mülki insanları amansızlıqla öldürməkdən zövq almışlar, rahatlanmışlar elə bil.

Qisas qiyamətə qalmaz deyib babalarımız. Qalmadı da! Qüdrətli sərkərdə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz erməni cəlladlarının tökdüyü nahaq qanların, tarixdə analoqu olmayan bir vandallıqla xarabalıqlara çevirdikləri kəndlərin, şəhərlərin, yaşı əsrlərlə hesablanan tarixi abidələrin, tövlə kimi istifadə etdikləri məscidlərin qisasını layiqincə aldı. Cəmi 44 gün davam edən, qələbə ilə nəticələnən bu müqəddəs savaş xalqımızın çiynindəki 30 illik ağır xəcalət yükünü götürdü, dövlətimizin ərazi bütövlüyünü bərpa etdi! Bir cümlə ilə ifadə etsək, deyə bilərik ki, ilahi ədalət zəfər çaldı!

Siz haqqın təntənəsinə, ədalətin qələbəsinə baxın! Neçə vaxtdı Bakıda bir məhkəmə gedir. Qarabağı odlara qalayan, Xocalı faciəsini törədən, kəndləri, şəhərləri viran qoyan, günahsız insanları kütləvi şəkildə qətlə yetirən insan qiyafəli şeytanlar - erməni cəlladları ədalət məhkəməsi qarşısında necə də miskin görünürlər.

İllər keçəcək, zaman dəyişəcək, dünyaya yeni nəsillər gələcək. Bu ədalət məhkəməsi tarixin unudulmaz ibrət dərsinə çevriləcək. Olanları unutmağa, yaddan çıxarmağa heç kəsin haqqı olmamalıdır. Düşmən bu gün də qisas ehtirasları ilə alışıb yanır, əli çatan, sözü keçən ölkələrdən silah-sursat toplayır, hayıf çıxmağa hazırlıqlar görür. Ancaq düşmən bir şeyi unutmasın. Yaddaşında saxlasın ki, yeni təxribatlara getsə, alacağı zərbə daha ölümcül olacaq.

Gəlin yazın bu oğlan çağında nikbin notlara köklənək, özümüzdə xoş ovqat yaradaq. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mayın 10-da Ağdama növbəti səfəri hələ də bölgədə yüksək ovqatı qoruyub saxlayır. Bu bir həqiqətdir ki, dövlət başçısının Qarabağa, Şərqi Zəngəzura hər səfəri əlamətdar hadisə kimi yaddaşlara həkk olur. Böyük qayıdışı sürətləndirir, bölgədə aparılan genişmiqyaslı quruculuq, təmir-tikinti, bərpa-abadlıq işlərinə yeni impuls verir.

Növbəti Qarabağ səfəri Ulu Öndərin doğum gününə təsadüf edirdi. Heç şübhəsiz, bu bir təsadüf deyildi. Müqəddəs ata yolunu, cahanşümul bir liderin siyasi kursunu ləyaqətlə davam etdirən qeyrətli övladın qürurla hesabat verməsi üçün seçilmiş ən münasib məqam idi. Ümummilli Liderin yaddaşlarımıza həkk olunmuş bir ifadəsi var - inanıram ki, mənim başa çatdıra bilmədiyim işləri İlham Əliyev həyata keçirəcək. Ulu Öndər yanılmamışdı. Onun yarımçıq qalan bütün arzularını İlham Əliyev şərəflə yerinə yetirdi. Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi ata Heydər Əliyevin ruhuna oğul İlham Əliyevin, eləcə də bütöv bir xalqın ən böyük ehtiramı idi.

Ermənilərin ruhlar şəhərinə çevirdiyi, bir evin də salamat qalmadığı Ağdam indi büsbütün yenidən qurulur. Bura yeni dəmir yolu çəkilmiş, Avropa standartlarından da üstün olan avtomobil yolu inşa edilmişdir. Şəhərdə və kəndlərdə rahat mənzillər tikilir, istehsal müəssisələri yaradılır, tarixi abidələr bərpa edilir, müasir infrastruktur qurulur.

Prezident İlham Əliyev Ağdam Muğam Mərkəzinin açılışında demişdir: "Bu gözəl tədbirin mayın 10-da keçirilməsi, təbii ki, rəmzi məna daşıyır. Bu gün Ulu Öndər Heydər Əliyevin doğum günüdür. Mənim üçün, hər bir vətənpərvər insan üçün əziz bir gündə bu tədbiri keçirmək, əlbəttə ki, böyük məna daşıyır. Ulu Öndərin bütün həyatı, bütün fəaliyyəti Azərbaycan xalqına, dövlətinə həsr edilmişdir və bugünkü Azərbaycan onun əseridir".

Bəli, bugünkü güclü, qüdrətli, dünyada sayılıb-seçilən, mötəbər tribunalarda səsi diqqətlə dinlənilən, bütün Qafqazın lider dövlətinə çevrilən Azərbaycan Ulu Öndər Heydər Əliyevin tarixin ağır sınaqlarından, zamanın fırtınalarından məharətlə çıxardığı, onun varlığı uğrunda həyatını, sağlamlığını qurban etdiyi, Prezident İlham Əliyev tərəfindən dinamik inkişaf yoluna çıxarılan, ərazi bütövlüyü etibarlı şəkildə bərpa edilən, dünyada söz sahibinə çevrilən güclü, qüdrətli bir dövlət kimi qəbul edilir. Nə xoş ki, azərbaycanlıyıq, nə xoş ki, bütöv Azərbaycana sahibik.

Yenidən qurulan, tikilən, bərpa edilən, abadlaşdırılan təbii ki, təkcə Ağdam deyil. İşğaldan azad edilmiş bütün Qarabağ, Şərqi Zəngəzur bu gün nəhəng inşaat meydanına çevrilib. Keçilməz dağların altından tunellər çəkilir, bölgədə daha bir aeroport inşa olunur, fabriklər, zavodlar qurulur. Müharibənin xarabalıqları üzərində yeni kəndlər, şəhərlər salınır. Uzun illərin həsrətinə son qoyub doğma yurda qovuşanların sayı hər gün bir boy da artır. Laçında, Cəbrayılda, Ağdamda, Füzulidə... yeni mənzillərə, evlərə köçənlər dövlətin qayğısından çox məmnundular. Niyə də olmasınlar?! Yeni salınan yaşayış məntəqələrində normal həyat şəraiti, müasir infrastruktur yaradılır. Yeni sakinlər köhnə yurdda, doğma məkanda özlərini çox xoşbəxt hiss edirlər.

Keçmiş məcburi köçkün Səkinə Hacıyeva deyir ki, Ağdama qovuşmağı dünyaya yenidən gəlməyi kimi dəyərləndirir: "İndi şəhidlərimizin də ruhları şaddır. Onların qanı tökülən bu torpaqlar daha düşmən tapdağında deyil. İndi biz bu yerlərə gül-çiçək əkəcək, bağ-bağça salacağıq. Ağdamı cənnətə döndərəcəyik. Dövlətimizə, Prezidentimizə, yenidən Ağdama qayıtmağımızda əməyi olan hər kəsə minnətdarıq!"

Bəli, bu gün Qarabağda büsat var. Barıt qoxulu bu yerlərdə indi sükutu tankların, topların səsi yox, yolçəkən maşınların, ekskavatorların, minalardan təmizlənmiş torpaqları şumlayan traktorların gurultusu pozur.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## "Müstəqil Azərbaycan Konstitusiyasının müəllifi Heydər Əliyevdir"

### Qazaxda keçirilən elmi-praktik konfransda bu fikir dönə-dönə vurğulanmışdır



**Qazaxda "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda elmi-praktiki konfrans keçirilmişdir.**

Tədbiri Qazax Rayon Heydər Əliyev Mərkəzinin direktoru Ceyhunə Hüseynova açaraq diqqətə çatdırmışdır ki, müstəqil Azərbaycanın ilk Konstitusiya layihəsinin hazırlanması respublikamızın tarixində böyük hadisə idi: "Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ilin noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycanın Əsas Qanunun hazırlanması bir daha sübut etdi ki, ölkəyə yalnız yüksək idarəçilik təcrübəsi olan siyasi xadimlər rəhbərlik etməyə qadirdir. Hazırda Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda inamla irəliləyən müasir Azərbaycan tarixinin qüdrətli dövrünü yaşayır. Dövlətçilik tariximizin ən mühüm hadisəsi tarixi Azərbaycan torpaqlarının işğaldan azad edilməsi oldu".

Sonra rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış etmişdir. Bildirmişdir ki, Azərbaycan dövlətçiliyinin, milli müstəqilliyinin daimi və dönməz xarekter alması, müstəqil və uğurlu daxili və xarici siyasət, beynəlxalq aləmdə ölkəmizin nüfuzunun artması və dünya birliyində sivil dövlət kimi tanınması məhz Heydər Əliyevin uzaqgörənliyinin nəticəsidir: Xalqımızın 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının Əsas Qanunu olan Konstitusiyanın qəbul edilməsinin 30 illiyini və 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi Zəfərin 5-ci ildönümünü böyük təntənə ilə qeyd edəcəyini diqqətə çatdıran məruzəçi onu da dedi ki, bu sərəncam dövlətçilik tariximizin daha dərindən öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Sonra Bakı Dövlət Universitetinin Qazax filialının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Mübariz Süleymanov, Qazax Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Gülnaz Alişanova, Mehdi Hüseyn adına Humanitar və Təbiət Fənləri Təmayüllü Məktəb-Liseyin tarix müəllimi Arzu Abbasova, Qazax Dövlət Sosial-İqtisadi Kollecinin şöbə müdiri Elvira Əfəndiyeva, BDU Qazax filialının tələbəsi Mələk Hacızadə müzakirə olunan mövzu ilə bağlı məruzələrlə çıxış etmişlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Ağdam rayon rəhbərliyinin növbəti səyyar görüşü Bakıda olmuşdur

**Ağdam Rayon İcra Hakimiyyəti Bakı şəhəri, Sabunçu rayonu, Kürdəxanı köçkün şəhərciyində səyyar qəbul-görüşü keçirib. Səyyar görüşdə əhalini rahatsız edən problemlərin həlli üçün həyata keçirilən tədbirlərdən, infrastrukturun yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışılıb.**

Rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov Prezident İlham Əliyevin verdiyi tapşırıqların həyata keçirilməsi, əhalinin problemlərinin öyrənilməsi və operativ həlli üçün keçirilən bu cür görüşlərin önəmli olduğunu qeyd edib. O, Prezident İlham Əliyev tərəfindən qəbul edilən əhalinin sosial müdafiəsinə və rifah halının yüksəldilməsinə yönəlmiş son qərarlardan danışaraq bütün bunların vətəndaşlara olan dövlət qayğısının göstəricisi olduğunu vurğulayıb, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasını təmin etmək haqqında dövlət başçısının müvafiq sərəncamının icrası ilə əlaqədar məcburi köçkünlərin yeni salınmış yaşayış məntəqələrinə geri qayıdışı üçün təbliğat-izahat və təşviqat işlərinin aparılması ilə bağlı məlumat verib.

Rayon icra hakimiyyətinin başçısı qəbula gələn vətəndaşların qaldırdıqları məsələlərin bir hissəsini yerində həll edib, digər vacib məsələlərin həlli üçün isə müəyyən tapşırıqlar verərək həlli prosesini nəzarətə götürüb.

Qəbuldan sonra V.Həsənov Kürdəxanı köçkün şəhərciyində müvəqqəti məskunlaşmış Ağdam şəhər sakini, iki övladı Birinci Qarabağ müharibəsində şəhid olmuş Məhərrəmova Qirayət Cabir qızını və vəfat etmiş Birinci Qarabağ müharibəsi qazisi Arif Əliyevin Ramana qəsəbəsində müvəqqəti məskunlaşmış ailə üzvlərini ziyarət etmiş, onların problemləri ilə maraqlanmışdır.

*L.QULİYEV,*
*"Azərbaycan"*

## Biləsuvar-Çameli qardaşlığı möhkəmlənir

**2022-ci ilin mayında Türkiyə Cümhuriyyəti Dənizli vilayətinin Çameli şəhəri ilə Biləsuvar rayonu arasında dostluq əlaqələrinin qurulması məqsədilə imzalanmış "Qardaşlaşmış şəhərlər" haqqında protokol imzalanmışdır.**



Bu günlər Çameli şəhərindən gələn 15 nəfərlik nümayəndə heyəti Biləsuvarın qonağı olmuşlar. Heydər Əliyev Mərkəzində keçirilən görüşdə çıxış edən Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov qonaqları salamlayaraq bu formatda qarşılıqlı görüşlərin mütəmadi olaraq keçirilməsinin iki qardaş xalq arasındakı əlaqələrin daha da inkişafına xidmət göstərdiyini vurğulayıb. Qeyd edib ki, bütün dünyaya nümunə olan və daim güclənən Azərbaycan və Türkiyə münasibətlərinin inkişafından istifadə edərək rayonlarımız da artıq bir neçə ildir qarşılıqlı olaraq dostluq və tərəfdaşlıq münasibətlərindən bəhrələnirlər: "Qardaş şəhərlər olaraq imzalanan protokol bundan sonra da əməkdaşlığımızın yüksək səviyyədə inkişafına və hərtərəfli əlaqələrin güclənməsinə töhfələr verəcək".

Görüşdə çıxış edən Çameli ilçə kaymakamı Talha Tunahan Yıldırım və Çameli bələdiyyəsinin sədri Cengiz Arslan göstərilən qonaqpərvərliyə görə minnətdarlıqlarını bildirərək əlaqələrimizin bundan sonra bütün istiqamətlərdə daha da inkişaf etdirilməsi üçün çalışacaqlarını bildiriblər.

Sonda rayonun mədəniyyət işçilərinin hazırladıqları musiqi nömrələri səsləndirilib.

*S.CAVADOV,*
*"Azərbaycan"*

## Neftçalada Beynəlxalq Biomüxtəliflik Günü qeyd edilib

**Neftçalada "Azerbaijan Fish Farm" MMC-nin təşkilatçılığı və rayon icra hakimiyyətinin dəstəyi ilə Beynəlxalq Biomüxtəliflik Günü qeyd olunub.**



Kənd təsərrüfatı naziri Məcnun Məmmədovun, Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidovun, xarici ölkələrin Azərbaycandakı səfirlərinin, diplomatik korpusun və beynəlxalq təşkilatların nümayəndəliklərinin, özəl sektoru təmsil edənlərin iştirakı ilə keçirilən tədbir Ümummilli Lider Heydər Əliyevin şəhərin mərkəzi meydanında ucaldılmış abidəsini ziyarətlə başlayıb. Sonra RİH-də fikir mübadiləsi aparılıb, Beynəlxalq Biomüxtəliflik Günü ilə bağlı fikirlər bölüşdürülüb.

Tədbir çərçivəsində Şirvanlı kəndi ərazisində Xəzər dənizinə 100 min Kür nərə cinsli və 20 min Xəzər qızıl balığı buraxılıb. Sonra iştirakçılar "Azerbaijan Fish Farm" MMC-nin Şirvanlı kəndindəki "Neftçala Yenikənd Nərə Damazlıq Təsərrüfatı" MMC-nin balıq nohurlarında yetişdirilən müxtəlif növ nərə və çökə balıqlarının saxlanma və becərilmə şəraiti ilə tanış olublar.

*"Azərbaycan"*

## Goranboyda tütün toxumu yetişdirmək üçün 14 istixana qurulur

**Ölkədə kənd təsərrüfatının inkişafına yönələn tədbirlər fermerlərin fəaliyyətinin stimullaşdırılmasına, onların bir sıra subsidiya və güzəştlərlə təmin edilməsinə şərait yaradıb. Bunun nəticəsidir ki, Goranboy rayonunda da aqrar sahənin, o cümlədən tütünçülüyün inkişafında əsaslı dönüş yaranıb.**

Son illər rayonda tütünçülüyü inkişaf etdirmək, bu sahə üzrə emal müəssisələri yaratmaq və tütünçülüklə məşğul olanların daha çox gəlir əldə etmələri üçün lazımi şərait yaradılmışdır. Artıq bir neçə ildir ki, rayonun Qarqucaq, Zeyvə, Şəfəq, Yenikənd və Qaraçinar kəndlərində ümumilikdə 8 hektar sahədə tütün becərilir. Tütünçülüyün genişləndirilməsi üçün cari məhsul ilində Aşağı Ağcakənd qəsəbəsi ərazisində 2,45 hektarda tütün toxumu üçün 14 istixana qurulması nəzərdə tutulmuşdur. Artıq 6 istixana qurulmuşdur. Bu istiqamətdə işlər davam edir.

İstixanalarda becərilən şitil toxumları xaricdən gətirilir və torf gübrə qarışığı ilə əkilir. Təsərrüfatlarda 40 nəfərə yaxın mövsümi işlə təmin edilmişdir. Yaxın gələcəkdə 180 nəfərin işlə təmin edilməsi nəzərdə tutulur.

Qeyd edək ki, rayonda tütünçülüyün sürətlə inkişaf etdirilməsi üçün yeni texnologiyalardan istifadə edilir. Artıq rayona yeni texnikalar gətirilmişdir. Yaxın günlərdə həmin texnikaların istifadəsinə başlanılacaq.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*







# Ədəbiyyat





Elm xadimləri

## Füzuli yaradıcılığının "Aşiqi-sadiqi..."

**Müstəqilliyə qovuşduğumuz otuz ildən artıq bir dönəmdə füzulişünaslıq özünün keyfiyyət baxımından yeni mərhələsinə qədəm qoymuş, Məhəmməd Füzulinin ömür yolunu, yaradıcılıq irsini siyasi-ideoloji basqılardan azad bir yanaşma müstəvisində araşdıran yeni bir füzulişünas nəsli yetişmişdir.**



Filologiya elmləri doktoru Ataəmi Mirzəyev müstəqillik illərində təşəkkül tapan füzulişünaslığın yetərincə tanınan aparıcı simalarından biridir.

Onun klassik ədəbiyyata, xüsusən Füzuli yaradıcılığına mehr və ülfətinin izlərini, ədəbi əxlaq və əbədi dəyər daşıyıcısına çevrilən Bakı mühitinin klassik poeziya, onun ruha qida verən muğam ifaçılığının qana, iliyə işləyən cazibəsində axtarmaq, bu sirrin açılmasına ipucu verə biləcəyi şübhəsizdir.

Bir neçə il bundan əvvəl İmadəddin Nəsiminin yubileyi ilə əlaqədar olaraq Hövsan kəndində (indi qəsəbə adlanır - Q. M.) keçirilən tədbirdə bunun bir daha canlı şahidi oldum. Ağsaqqal, nurani qocalar Nəsimi misralarını əzbər söyləyir, onun "Quran" ayələri ilə səsləşən məqamlarını elə ustalıqla şərh edirdilər ki, buna, sadəcə, təəccüblənməmək, heyrətlənməmək mümkün deyildi. Orada səsləndirdiyim bir fikri burada da dilə gətirməkdən çəkinmirəm: Bakı kəndlərindəki klassik şeir məclislərinə, muğamla bağlı istənilən tədbirlərə mütləq hazırlıqlı şəkildə gəlmək lazımdır.

Bu mənada Ataəmi Mirzəyevi anadan olduğu doğma Kürdəxanı və digər Bakı kəndlərində təşəkkül tapan şeir-sənət camiəsinin müdavimi də hesab etmək olar. Birmənalı şəkildə onun o vaxtlar Azərbaycan ali təhsilinin flaqmanı hesab olunan ADU-nun (indiki BDU-nun - Q.M.) Filologiya fakültəsində ixtisaslı filoloq kimi klassik dövrü və məxsusi olaraq Füzuli kimi böyük şair mütəfəkkirin yaradıcılığını seçməyi həmin mühit diktə etmişdi.

Elə tələbəlik illərindən başlayaraq Ataəmi klassik ədəbiyyat qrupunu bir ixtisas kimi seçir, Füzuli yaradıcılığına elmi maraq göstərir. Çox keçmir ki, onun üçüncü kursdan üzərində işlədiyi "Füzulinin bir qəzəli haqqında" adlı məqaləsi dördüncü kurs tələbəsi ikən "Ulduz" jurnalının 1988-ci il 3-cü sayında dərc olunur. Məqalədə tələbə Füzuli irsinin tanınmış tədqiqatçısı akademik Həmid Araslının tərtib etdiyi və redaktoru olduğu 1958-ci ildə nəşr olunan beşcildlik Füzuli "Əsərləri"nin I cildindəki üç qəzəl və iki rübainin "Əlavələr" hissəsində verilməsi ilə bağlı mübahisələrin izinə düşür. Gənc araşdırıcı həmin nümunələr içərisində yalnız bir qəzəlin Füzuliyə məxsusluğu məsələsini professor Mirzağa Quluzadə kimi təcrübəli bir füzulişünas alimlə polemikaya girməkdən çəkinməyərək sübut etməyə nail olur.

Burada gənc tədqiqatçı-tələbənin poetik mətni linqvopoetik bir təhlil müstəvisində araşdırması və opponentinə dövrün ənənəvi təsviri ədəbiyyatşünaslıq səviyyəsindən məsələyə yanaşıldığını faktlarla üzə çıxarmaq cəhdi də diqqətdən yayınmırdı. Müəllif mübahisə predmeti kimi seçilən

*Guşeyi-əbrulərində çeşmi-cadularmıdır?*
*Yoxsa girmiş yayə tirəndaz hindularmıdır?*

- mətləbli qəzəlində sual ədatının və xəbər şəkilçisinin bu ardıcıllıqla işlənilməməsi faktına Nəsimi, Gülşəni, Həqiqi, Xətayi yaradıcılığından və Füzulinin "Leyli və Məcnun"undan nümunələr gətirir, bu qəzəlin Şahiyə bir nəzirə olduğunun unudulmasını, onun şairin əsərləri sırasına daxil edilməməsini də belə bir yanlışlıqla izah edir.

Əlbəttə, bu cəhd gənc tədqiqatçının füzulişünaslıqda ilk debütü idi. Klassik ədəbiyyata belə bir elmi maraq, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aspiranturasına ciddi rəqabət şəraitində qəbul olunması, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Azadə Rüstəmovanın rəhbərliyi altında "Klassik Azərbaycan-türk ədəbiyyatında "Yusif və Züleyxa" mövzusu (İlkin qaynaqlar və onların poetik təcəssümü) adlı namizədlik (indiki fəlsəfə doktorluğu - Q.M.) dissertasiyası üzərində gərgin elmi axtarışlar aparması Ataəmi Mirzəyevin tərcümeyi-halının əlamətdar, yaddaqalan səhifələrindən birinə çevrilir.

Az sonra Ataəmi Mirzəyevin uzun müddət klassik ədəbi düşüncənin (elə dini düşüncənin də!) maraq dairəsində saxladığı dini mövzunun - Məhəmməd peyğəmbərə (s) aid 40 hədisin Əbdürrəhman Cami, Əlişir Nəvai və Məhəmməd Füzulu yaradıcılığında işlənməsi barədə mükəmməl araşdırma olan "Cami, Nəvai və Füzuli yaradıcılığında 40 hədis" adlı (1997) kitabı, əslində, ilk tədqiqatın, eyni mövzunun ayrı-ayrı sənətkarlar tərəfindən qələmə alınması təcrübəsinin indi tamamilə fərqli bir mövzuda davam və inkişaf etdirilmə ənənəsinin üzə çıxarılmasını qarşıya bir məqsəd kimi qoyurdu. Tarixi-müqayisəli aspektdə dəyərləndirməni tələb edən bu mövzunun öhdəsindən gəlmək tədqiqatçıdan, təbii ki, ayrı-ayrı sənətkarların qələmindən çıxan bədii mətnlərə bələdliklə yanaşı, sənətkar yanaşmasındakı müxtəlifliyin mahiyyətini açmağı, eyni zamanda onları bir məxrəcə gətirən məqamların elmi-nəzəri təhlilini də tələb edirdi.

Etiraf etmək lazımdır ki, əvvəlki tədqiqat və haqqında bəhs edilən kitab Ataəmi Mirzəyevi eyni mövzulu əsərlərin ayrı-ayrı müəlliflər tərəfindən işlənmə ənənəsini araşdıran səriştəli mütəxəssis kimi tanıdır. Klassik ədəbiyyatın vacib sahələrindən olan mətn üzərində təhlil və şərh etmə bacarığının kifayət qədər görünən məqamlarını müəllifin uğuru hesab etmək olar.

Dini-kanonik mətnlər üzərində aparılan bu tipli araşdırmalar sahəsində qazanılan təcrübə alimin sonralar qələmə aldığı "Füzulinin "Hədiqətüs-süəda" əsəri orta əsr tərcümə abidəsi kimi" (2001) və "Azərbaycan bədii tərcümə tarixi və Füzuli" monoqrafiyalarında daha ardıcıl və sistemli şəkildə tədqiqinə münbit zəmin yaradır.

Doktorluq dissertasiyası kimi müdafiə edilən "Azərbaycan bədii tərcümə tarixində Füzuli mərhələsi" əsəri, təbii ki, müəllifin bu istiqamətdə aparılan uzunmüddətli axtarışlarının uğurlu yekunu kimi qiymətləndirilməlidir.

Dissertasiyada klassik ədəbiyyatda tərcümənin indiki anlayışdan tamamilə fərqli bir sənət və yaradıcılıq sahəsi olaraq inkişaf tarixi, bu ad altında nəzirə, təfsir, şərh, təbdil, iqtibas funksiyası daşımaq ənənəsi barədə yetərincə məlumatlar verilir, Füzuli kimi müqtədir sənətkarın yaradıcılığında bu sahənin məxsusi yeri və mövqeyi özünün geniş izah və şərhini tapır.

Ataəmi Mirzəyevin klassik ədəbi irsin poetikası - vəzn, qafiyə və rədif kimi nəzəri məsələlərlə bağlı tədqiqatları da diqqəti çəkir. Onun "Böyük Azərbaycan şairi İmadəddin Nəsimi" (2019) və "Molla Pənah Vaqif: həyat və yaradıcılığı" (2022) monoqrafiyalarına daxil olan irihəcmli "Nəsiminin Azərbaycan-türk "Divan"ının vəzn və qafiyə sistemi" və "Vaqif şeirində vəzn, qafiyə və rədif" adlı araşdırmaları müəllifin klassik nəzəriyyə sahəsində professional səviyyədə səriştəyə malik olmasına yaxşı bir nümunədir. Ataəmi Mirzəyevin klassik irsin nəzəri məsələləri ilə bağlı tədqiqatları sonralar "Məhəmməd Füzuli: həyatı və yaradıcılığı" (2025) monoqrafiyasında da Füzuli irsi əsasında davam etdirilmişdir.

Görkəmli tədqiqatçının Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda hazırlanan on cilddən ibarət "Azərbaycan ədəbiyyatı tarixi"nin üçüncü cildinin (Orta əsrlər Azərbaycan ədəbiyyatı - XIII-XVI əsrlər) məsul redaktoru və əsas müəlliflərindən biri kimi elmi-təşkilati fəaliyyətini də klassik irsə bağlılığın, bu sahədə nüfuzlu söz sahibi kimi tanınmağın bariz örnəyi kimi dəyərləndirmək olar. Onun qeyd edilən cildə daxil olan "Qul Əli", "Suli Fəqih", "Yusif Məddah", "Mustafa Zərir", "XV əsr Azərbaycan ədəbiyyatında "Yusif və Züleyxa" mövzusu", "Cahan şah Həqiqi", "Həqiri" və "Məsihi" kimi oçerkləri dövrün ənənəvi mövzularına çevrilən ədəbi nümunələr və ədəbi şəxsiyyətlər haqqında geniş təsəvvür yaradır.

"Azərbaycan ədəbiyyatı tarixi"nin dördüncü cildində yer alan "Məhəmməd Əmani", "Məlik bəy Avcı", "Molla Camal Rənci" oçerkləri də Ataəmi Mirzəyevin klassik irsin sonrakı mərhələsində yetişən sənətkarların həyat və yaradıcılığı haqqında mötəbər fikir bildirmək iqtidarını da yetərincə nümayiş etdirir.

Otuz ildən artıq fəaliyyət göstərdiyi institutda Füzuli sektoruna rəhbərliyin 2017-ci ildən Ataəmi Mirzəyevə həvalə olunması da təsadüfi deyil. Sektorun "Füzuli kitabxanası" seriyasından nəşr etdirdiyi kitablar bunu əyani şəkildə təsdiqləməkdədir. Qeyd edək ki, "Füzuli kitabxanası" seriyası Ədəbiyyat İnstitutunda akademik İsa Həbibbəylinin baş redaktorluğu, füzulişünas alim, filologiya elmləri doktoru Ataəmi Mirzəyevin məsul redaktorluğu ilə yaradılıb. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəşr etdiyi "Füzuli kitabxanası" seriyası 2024-cü ildə Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş 10-cu Bakı Beynəlxalq Kitab Sərgisinin "Ən yaxşı kitab" nominasiyası üzrə qalib olub. "Füzuli kitabxanası" seriyasından Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı", Həmid Araslının "Böyük Azərbaycan şairi Füzuli", Məmməd Cəfər Cəfərovun "Füzuli düşünür", Ataəmi Mirzəyevin "Füzulinin "Tərcümeyi-Hədisi-ərbəin"əsəri", Stanislava Plaskovitska-Rımkeviçin "Məhəmməd Süleyman oğlu Füzuli", Aynur Mahmudun "Füzuli ədəbi məktəbi (XVI-XVIII əsrlər)", Sevinc Ağayevanın "Məhəmməd Füzulinin anadilli divanının leksik tərkibi: Azərbaycan mənşəli arxaizmlər" və Mehriban Mövlamovanın "Azərbaycan ədəbiyyatında Məhəmməd Füzuli obrazı" kitabları nəşr olunub. Təqdim edilən ilk iki kitab Ataəmi Mirzəyev tərəfindən nəşrə hazırlanmışdır. Eləcə də Məhəmməd Füzulinin anadan olmasının 530 illiyi münasibətilə hazırlanan "Məhəmməd Füzuli: həyatı və yaradıcılığı" (2025) adlı sanballı və irihəcmli yubiley nəşrinin ərsəyə gəlməsində də məsul redaktor və əsas müəlliflərdən biri kimi Ataəmi Mirzəyevin böyük əməyi xüsusi qeyd edilməlidir.

Ataəmi Mirzəyevin füzulişünaslıq sahəsində gördüyü ən qiymətli işlərdən biri kimi "Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyasından çap etdirdiyi mühacir ədəbiyyatşünas Səlim Rəfiq Rəfioğlunun "Füzuli" monoqrafiyası xüsusi əhəmiyyət kəsb edir.

Alimin Azərbaycan-özbək ədəbi əlaqələri sahəsində olan elmi fəaliyyəti də diqqətəlayiqdir. Alimin "Sələflər və xələflər: Nəvai və Füzuli", "Məhəmməd Füzuli yaradıcılığından görünən Əlişir Nəvai", "Lütfi və Füzuli", "Türk xalqları ədəbiyyatında "Hədisi-ərbəin" mövzusu və Əlişir Nəvainin "Ərbəin" əsəri", "XV - XVII əsrlər Azərbaycan lirik şeirində Əlişir Nəvai təsirinin təzahür formaları" və "Özbək-Azərbaycan ədəbi əlaqələri: Əlişir Nəvai və Məsihi Təbrizi" adı ilə çap olunmuş məqalə və konfrans materialları onun bu sahədə səmərəli fəaliyyətindən xəbər verir.

İndi filologiya elmləri doktoru Ataəmi Mirzəyev ömrünün 60-cı pilləsini belə bir elmi uğur və nailiyyətlərlə zəngin bir ərəfədə qarşılayır. Qarşıda isə füzulişünaslığın daha ciddi, ciddi olduğu qədər də zərurətə çevrilən yaradıcılıq problemlərini səbir və təmkinlə araşdırmaq və yeni füzulişünaslar nəslini bu işə sövq etmək kimi məsuliyyətli vəzifələr durur.

***Qürbət MİRZƏZADƏ,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

Görkəmli tədqiqatçılarımız

## Sadəlik və təvazökarlıq onun "Daxilə pəncərə"si idi

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Ziyəddin Göyüşovun anadan olmasından 105 il ötür.**



O, Qarabağın gözəl guşələrindən olan Ağdamın Boyəhmədli kəndində dünyaya gəlib. İlk təhsilini doğma kəndində alıb. 1928-1936-cı illərdə Boyəhmədli kənd məktəbində oxuyub. Ağdam Pedaqoji Texnikumunda 1938-1939-cu illərdə təhsilini davam etdirib. Texnikumu fərqlənmə diplomu ilə bitirib və Boyəhmədli kənd məktəbində müəllim işləyib.

1941-ci ildə alman faşizmi Sovet İttifaqına hücum edəndə səfərbərlik elan olunur. Doğulub böyüdüyü kənddə müəllimlik edən gənc Ziyəddin Göyüşov da cəhbəyə yollanır. Yaralandıqdan sonra vətənə dönür.

Hələ məktəb illərindən bədii yaradıcılıqla məşğul olan Ziyəddin Göyüşov 1943-cü ildə Ağdamda yerli radio verilişləri redaksiyasına rəhbərlik edir. Bir müddət orada çalışır və ali təhsil almaq arzusu onu Bakıya gətirir. 1945-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Tarix fakültəsinin nəzdindəki Fəlsəfə şöbəsinə qəbul olunur. 1950-ci ildə ali təhsilini başa vuran gənc elm yolunu seçir. Ziyəddin Göyüşov 1953-cü ildə Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun aspiranturasına daxil olur. 1957-ci ildə aldığı fəlsəfə elmləri namizədi adı Ziyəddin Göyüşovun dördillik zəhmətinin bəhrəsi olur. Bu həm də gənc alimin ilk uğuru idi. İstedadlı və fədakar elm adamları sırasında yer alan Ziyədddin Göyüşov daha da məhsuldar çalışmağa başlayır. O, elmin çətin və şərəfli yolu ilə irəliləyir. 1963-cü ildə fəlsəfə elmləri doktoru, 1964-cü ildə professor adı alması da Ziyəddin Göyüşovun uzun və gərgin əməyinin, yorulmadan apardığı elmi araşdırmalarının nəticələri idi.

O, 1976-cı ildə Azərbaycan Elmlər Akademiyasının üzvü seçilir. Həmin ildən Azərbaycan Elmlər Akademiyası fəlsəfə və Hüquq İnstitutunda Fəlsəfə tarixi şöbəsinə müdir təyin edilir. Ziyəddin Göyüşov Azərbaycanda ilk çoxcildli milli ensiklopediyanın yaradılmasında fəal iştirak edir və Azərbaycan Sovet Ensiklopediyası Elmi Şurasının üzvü seçilir.

Həyatının uzun sürməyəcəyindən, ömrünün 9 fevral 1985-ci ildə altmış iki yaşında bitəcəyindən xəbərsiz olsa da, sanki tələsirdi. Daha çox yazıb-yaratmaq, Azərbaycan elmini sanballı tədqiqat əsərləri ilə zənginləşdirmək üçün gecəsini gündüzünə qatırdı. Dincəlməyi, istirahət etməyi həmişə təxirə salaraq elmi araşdırmalarını davam etdirər, arxivlərdə çalışar, yeni elmi əsərlər yazardı. Alim Azərbaycanda fəlsəfi-etik fikir tarixi problemlərini araşdırırdı.

Azərbaycan elmi fikrinin aktuallıq kəsb edən bir çox məsələləri filosof alimi dərindən düşündürürdü. Həyat fəlsəfəsini diqqətlə öyrənən, elmi obyektivliklə dəyərləndirən mövzularda sanballı əsərlər meydana qoyurdu. Ziyəddin Göyüşovun "Sadəlik və təvazökarlıq", "Səadət düşüncələri", "Fəzalət və qəbahət", "Daxilə pəncərə", "Həzz və iztirab" kimi böyük mənəvi dəyəri olan kitabları belə yaranmışdı.

22 iyul 1875-ci ildə nəşrinə böyük çətinliklə başlayan "Əkinçi" qəzeti ilə Azərbaycanın böyük oğlu Həsən bəy Zərdabi mətbuatımızın bünövrəsini qoymuşdu. Görkəmli ictimai xadim, maarifçi, demokrat, təbiətşünas alim, jurnalist Həsən bəyin yaratdığı ilk milli qəzetimiz Azərbaycanın fikir tarixində mühüm yer tutmuşdu. "Əkinçi" qəzetinin əsas məqsədi xalqın dirçəlişi, maariflənməsi, milli mənlik şüurunun oyanması, öz haqq və hüququnu anlayaraq uğrunda mübarizə aparması idi. Qəzetin baş redaktoru və fəal yazarları bu böyük məqsədi reallaşdırmaq naminə çalışmışdılar. Onlar "Əkinçi" qəzetinin uzun sürməyən fəaliyyəti müddətində misilsiz işlər həyata keçirə bilmişdilər.

Tariximizin mühüm səhifələrindən birinə çevrilmiş "Əkinçi" qəzetinin, eləcə də onun baş redaktoru Həsən bəyin yaradıcılığının ümumi şəkildə geniş və dərindən araşdırılması həm də mənəvi baxımdan böyük əhəmiyyət kəsb edirdi. Həsən bəy Zərdabinin seçilmiş əsərlərini ilk dəfə tərtib və çap etdirən görkəmli alim Ziyəddin Göyüşov oldu. Ümumiyyətlə, araşdırıcılar bu fikirdədirlər ki, alimin yaradıcılığında ana xətti görkəmli Azərbaycan maarifçisi Həsən bəy Zərdabinin maarifçilik irsi, maarifçilik fəaliyyəti təşkil edir. Doğrudur, görkəmli tədqiqatçılarımız arasında Həsən bəy Zərdabi irsini araşdıranlar, haqqında ciddi tədqiqat işləri ortaya qoyanlar olmuşdu. Ancaq onun yazdığı, dövrünün tarixi mənzərəsini əks etdirən, aktual əsərləri, məqalələri qəzet və jurnalların saralmış vərəqlərində qalmışdı. Geniş oxucu kütləsinə həmin əsərləri təqdim etmək böyük əhəmiyyət daşıyırdı. Filosof Ziyəddin Göyüşov bu dəyərli mənəvi xəzinəni toplu halında xalqa çatdırmaq kimi mühüm vəzifəni öz üzərinə götürənlərdən biri oldu.

Apardığı araşdırmalar nəticəsində Ziyəddin Göyüşov həmin tarixi dövrün ən yaxşı bələdçiləri sırasında yer aldı. Alimin "Həsən bəy Zərdabinin dünyagörüşü", "Azərbaycan maarifçilərinin əsərlərində əxlaq məsələləri", "Azərbaycan maarifçilərinin etik görüşləri" monoqrafiyaları belə yazıldı və Azərbaycan elminə ciddi tədqiqat əsərləri kimi daxil oldu. Gördüyü işin asan olmadığını, həmçinin əhəmiyyətini Ziyəddin Göyüşov özü də yeri gələndə vurğuladı. O, "Azərbaycan maarifçilərinin etik görüşləri" (XIX əsrin ikinci yarısı) kitabında Həsən bəy Zərdabinin etik görüşlərindən bəhs edərkən yazırdı ki, bu problemin öyrənilib dəyərləndirilməsi işi heç də asan deyildir: "Çünki Azərbaycan fəlsəfə tarixində mütəfəkkirlərimizdən çoxu öz etik fikirlərinin müntəzəm şərhini qoyub getməmişlər. Bu faktdan bəziləri hətta belə yanlış nəticə çıxarır ki, guya mütəfəkkirlərimizdən çoxunun etik baxışları olmamışdır. Məhz belə yanlış təsəvvür xeyli müddət Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixi nümayəndələrinin etik görüşlərinin öyrənilməsi işinə mane olmuşdur".

Filosof alim qeyd edirdi ki, Azərbaycan maarifçilərinin etik görüşləri əvvəlki ideya irsindən ayrılmış, əlaqəsiz halda yaranmamışdır: "M.F.Axundov, H.B.Zərdabi və S.Ə.Şirvani öz yaradıcılıqlarında çox zəngin ideya irsinə əsaslanmışlar. Azərbaycanda etik fikrin çoxəsrlik zəngin tarixi və mütərəqqi ənənələri vardır. Çoxəsrlik Azərbaycan mədəniyyəti dünyaya Orta əsrlərdə Nizami, Füzuli, Nəsimi, Xaqani, Bəhmənyar, Şeyx Mahmud Şəbüstəri kimi dahi mütəfəkkirlər və şairlər, XVIII əsrdə Vaqif və Vidadi kimi gözəl şairlər, XIX əsrin birinci yarısında Qasım bəy Zakir, Mirzə Şəfi Vazeh, Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Mirzə Kazımbəy, Mirzə Cəfər Topçubaşov kimi şairlər, yazıçılar, elm və mədəniyyət xadimləri vermişdir. Bunlar dünya mədəniyyəti xəzinəsinə başqa sahələrdə olduğu kimi, etika sahəsində də zəngin irs qoyub getmişlər".

Apardığı tədqiqatlar Ziyəddin Göyüşovu Azərbaycan xalqının tarixi, ədəbiyyatı, fəlsəfi görüşləri ilə yaxından tanış etdikcə o, doğma xalqının mənəvi sərvətlərinin zənginliyinə heyran olurdu. Alimin əsərləri dərin tədqiqatları ilə yanaşı, həm də bu heyranlığın ifadəsidir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Milli-mədəni irsimiz

## Kitabxanaya yeni kitablar hədiyyə olundu

**Azərbaycan Prezidenti İlham Əliyev ədəbiyyatımızın görkəmli nümayəndəsi, şair, maarifçi və pedaqoq Seyid Əzim Şirvaninin yubileyi ilə bağlı "Seyid Əzim Şirvaninin 190 illiyinin qeyd edilməsi haqqında" sərəncam imzalamışdır.**

Bununla əlaqədar, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasına "Kitabxanaya kitab hədiyyə edirik" və "Yaradıcı oxucularımız" layihələri çərçivəsində Seyid Əzim Şirvaninin "Qəzəllər" kitabı təqdim olunub.

Kitabın tərtibçisi kitabxananın fəal oxucusu, şair Ceyhun Möhübbidir. Seyid Əzim Şirvaninin yeni nəşr olunmuş "Qəzəllər"i şairin 190 illiyinə həsr olunub. Kitabda görkəmli maarifçi pedaqoqun bizə gəlib çatan 636 qəzəli və ilk dəfə olaraq qəzəllərə izahlı lüğət də verilmişdir. Qəzəllərin bir çoxu ilk dəfədir ki, latın qrafikası ilə nəşr olunub.

Bundan başqa, M.Ş.Vazeh adına Mərkəzi Kitabxanaya biokimya üzrə fəlsəfə doktoru, şair Tariyel Azərtürkün "Hanki məkandan, hanki zamandan başlanır muğam?" kitabı da hədiyyə olundu.

Güclü məntiqə malik olan fədakar alim əsərini Azərbaycanın, bütövlükdə qədim türk dünyasının tarixini, musiqi mədəniyyətini, etnoqrafiyasını araşdırması nəticəsində yazıb. Araşdırmalarda müəllif sübut edib ki, mixi yazılarını türklər yaradıb.







Müəllifin çoxillik və peşəkar araşdırmaları nəticəsində yazılan kitab 2010-2016-cı illərdə ABŞ-nin Sietl şəhərində ərsəyə gəlib. 2022-ci ildə isə təkrar işlənərək yenidən çapa imzalanıb. Müəllif gil üzərindəki mixi yazılarından əcdadlarımızın şeir, qəzəl, musiqi, rəqs, muğam və incəsənətin başqa sahələri haqqında biliklərini, fikirlərini toplayaraq oxuculara təqdim edib. Əsər şumerlərin (qədim türklərin) musiqi dünyasına həsr edilmişdir. Müəllif mixi yazılarının araşdırılması nəticəsində Azərbaycan-türk musiqi incisi sayılan muğamın mənşəyinin dərin köklərinə aid nadir faktları aşkara çıxarmışdır. Kitabda muğamların adları, muğamın növləri, musiqi alətləri və terminləri haqqında, onların Azərbaycan-türk mədəniyyətinə aid olduğuna dair inandırıcı, danılmaz dəlillər gətirilmişdir. Əsərdə "Səmayi-Şəms", "Mahur-Hindi", "Bayatı-Qacar" və başqa muğamlarımız haqqında maraqlı və dəyərli fikirlər var.

"Hanki məkandan, hanki zamandan başlanır muğam?" kitabı qədim musiqi tariximizin və musiqi mədəniyyətimizin xəzinəsinə daxil olan dəyərli incilərdən biridir. İnanırıq ki, kitabxanaya hədiyyə olunan kitablar oxucular tərəfindən maraqla qarşılanacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Moskvada Azərbaycanın İkinci Dünya müharibəsinə verdiyi töhfədən bəhs edən kitabın təqdimatı keçirilib

**Moskva Dövlət Müdafiə Muzeyində "Böyük Qələbənin varisləri" adlı kitabın təqdimat mərasimi olub. Kitabın müəllifi "Diaspor fəaliyyətinə jurnalistlərin dəstəyi" İctimai Birliyinin sədri, azərbaycanlı publisist və tədqiqatçı Fuad Hüseynzadədir.**



Nəşr İkinci Dünya müharibəsində Qələbənin 80 illiyinə həsr olunub və keçmiş Sovet İttifaqı xalqlarının, xüsusilə Azərbaycanın bu Qələbəyə verdiyi töhfəni işıqlandırır.

Təqdimat zamanı çıxış edən müəllif qeyd edib ki, kitab ilk növbədə beynəlxalq auditoriyaya ünvanlanıb. Kitabda Azərbaycanın Qələbəyə verdiyi töhfə, xalqın ictimai-siyasi, iqtisadi və hərbi sahələrdə iştirakı, eləcə də ata və babaları İkinci Dünya müharibəsində döyüşmüş xaricdə yaşayan azərbaycanlıların qəhrəmanlıqları təfərrüatlı şəkildə təhlil olunub. 44 günlük Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyünün bərpasında iştirak etmiş yeni nəslin nümayəndələrinə də xüsusi yer ayrılıb.

Azərbaycanın Rusiyadakı səfirliyinin müşaviri Yusif Vəzirov müəllifi kitabın işıq üzü görməsi münasibətilə təbrik edib və bu cür əsərlərin tarixi yaddaşın qorunması və Azərbaycanın beynəlxalq imicinin möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd edib.




# Fernandu Santuş söz-söhbətlərə son qoydu

## "Komandasında davamlı şəkildə ehtiyatda oturan futbolçular Azərbaycan yığmasına dəvət olunmayacaqlar"

**"Yaxşı komandaya qarşı oynayacağıq. Düzgün hazırlaşıb qarşıdakı oyunlarda qələbə qazanmaq istəyirik. Kimləri istəyirdimsə, onları milliyə çağırmışam". Bu sözləri Azərbaycan millisinin baş məşqçisi Fernandu Santuş keçirdiyi mətbuat konfransında deyib.**



Portuqaliyalı mütəxəssis əvvəlcə Latviya və Macarıstanla keçiriləcək yoldaşlıq oyunları üçün seçdiyi heyət ilə bağlı deyib: "Bəzi futbolçulara zədə səbəbindən dəvət göndərmədim. Bunlar Coşqun Diniyev, Anton Krivotsyuk, Amin Seydiyev və Aleksey İsayevdir. Bundan öncəki təlim-məşq toplanışına Ramil Şeydayevlə Ozan Can Kökçü də çağırılmışdı. Ancaq onlar mütəmadi oynamırlar. Son zamanlar özlərini yaxşı tərəfdən göstərə bilmədikləri üçün oyuna dəvət almayıblar. Gələcəkdə daimi oynasalar, şans qazanacaqlar. Amma öz komandasında davamlı şəkildə ehtiyatda oturan futbolçular Azərbaycan yığmasına dəvət olunmayacaqlar. Biri var, klubunda 5-10 dəqiqə oynayasan, biri də var ki, davamlı olaraq iştirak ərizəsində olmursan, ehtiyatda oturursan. Mən bu oyunçuları nəzərdə tuturam. Hərənin öz klubu var, hər bir məşqçinin də qərarına hörmətlə yanaşıram. Məşqçi bir futbolçunun oynamasına, digərinin oynamamasına qərar verir. Əgər söhbət millidən gedirsə, bura dəvət olunan futbolçunun oyun praktikası olmalıdır. Bizim heyətdə xaricdə oynayan elə də çox oyunçu yoxdur. Biri Renat Dadaşovdur. Milliyə dəvət olunan futbolçular mütəmadi oynamalıdırlar. Mən də istəyərdim ki, yerlilər daha çox oynasın. Premyer Liqaya iki komanda da gələcək".

Santuş qarşıdakı iki oyunda baş verə biləcək uğursuzluqlardan sonra mümkün istefası ilə bağlı yayılan xəbərlərə də münasibət bildirib: "Bu, mənim problemim deyil. Sadəcə gəzən söz-söhbətlərdir. Necə cavab verəcəyimi bilmirəm. Bu məsələyə AFFA rəhbərliyi baxır. Bu layihə uzun yoldur. Bir çox oyunçu bizimlə toplanışda olub, bizi tanıyır. Biz öz yolumuzla davam etməliyik. Uğuru bu yolun davamında görürəm".

Baş məşqçi Azərbaycan Premyer Liqasının səviyyəsinin normal olduğunu da bildirib: "Qarabağ"ın hansı səviyyədə iştirak etdiyini bilirik. Ümumi çempionatı nəzərə alsaq, 5 bal verərdim. 10 komandadan 3-4-ü yuxarı pillələr uğrunda mübarizə aparır. Hər komanda istəyinə çatmağa çalışır".

70 yaşlı mütəxəssis qeyd edib ki, gənc futbolçulara şans vermək hazırda çox vacibdir: "Yoldaşlıq görüşləri odur ki, oyunçuları sınayaq. Hər dəfə toplanışlara yeni oyunçular cəlb olunmalıdırlar ki, millinin ab-havasını hiss etsinlər. Lazımdır ki, onların gələcəkdə millidə oynamaq imkanının olub-olmamasını görək. Eyni şey Yunanıstanda, Portuqaliyada da baş verdi. Hazırda Portuqaliya millisində oynayanların çoxu 18-19 yaşlarında mənim dəvət etdiklərimdir. Eyni şey Yunanıstanda da təkrarlandı".

Santuş "Gənc qapıçılara yox, "Qarabağ"da mütəmadi oynamayan Şahruddin Məhəmmədəliyevə niyə şans verirsiniz" sualını isə belə cavablandırıb: "Qapıçılıq futbolda ən spesifik mövqedir. Qapıda biz az rotasiya edirik. Son toplanışda Şahruddin zədələndi və Əlirza Müştəbəzadəni milliyə dəvət etdik. Rza Cəfərov var, perspektivi olan qapıçıdır. Şahruddin də təcrübəli qapıçıdır və düşünürəm ki, bu ona kömək edəcək".

## "Medalçılar sırasında olacağımıza inanırıq"



**"Məşqçilərin verdiyi bütün tapşırıqları lazımi səviyyədə yerinə yetirdik və qələbə qazandıq". Bu sözləri Azərbaycan minifutbol millisinin üzvü Elvin Əlizadə Bakıda təşkil olunan dünya çempionatının A qrupunda Sloveniyaya 4:0 hesabı ilə qalib gəldikləri oyundan sonra jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, Sloveniya ilə oyuna komanda yüksək motivasiya ilə çıxıb: "Düşünürəm ki, bu gün dəstək sayəsində üç xal qazandıq. Hər şeyi yaxşı formada etdik".**

O, qrupun sonuncu oyununda üz-üzə gələcəkləri Mavritaniya millisi barədə də danışıb: "Onlar sürətli və cəld oynayan komandadır, lakin taktiki olaraq hazır deyillər. Turnirdə medalçılar sırasında olacağımıza inanırıq".

## Yassin Benzianın "Qarabağ"da qalıb-qalmayacağı bəlli deyil

**"Qarabağ"ın futbolçusu Yassin Benzia Azərbaycanda qalıb-qalmayacağına qərar verməyib. Əlcəzairli futbolçu Ağdam klubu ilə Premyer Liqa çempionluğunu qazanmasından bəhs edib: "Çox yaxşı mövsüm idi. Biz daha uğurlu çıxış edə bilərdik. Hər mövsüm daha yaxşı çıxış etmək istəyirik. Çox xoşbəxtik ki, növbəti kuboku qazandıq. Hisslər fərqlidir".**



Ulduz futbolçu "Qarabağ"la müqaviləsinin başa çatdığını bildirərək, gələn transfer təkliflərinin olduğunu deyib: "Yeni mövsüm "Qarabağ"da qalıb-qalmayacağımı bilmirəm. Bəlkə də sonuncu Azərbaycan çempionluğumdur. Ona görə fərqli hisslər yaşadığımı deyirəm. "Qarabağ"la danışıqlar gedir. Biz hələ də razılıq əldə etməmişik. Hər şey ola bilər. Bəzi klublar menecerimlə danışıq aparır. Adları çəkə bilmərəm. Bu, mənim işim deyil. Mənim işim meydana çıxaraq hər matçda qələbə qazanmaqdır. Mövsümün sonunda qərar veriləcək. Hələ ki, iki oyun qalıb. Fikrim bütünlüklə bu oyunlara yönəlib".

O, hazırkı formada olmasına görə Qurban Qurbanova minnətdar olduğunu da deyib: "Düzünü desək, "Qarabağ"da qalmaq üçün şərtlərim çoxdur. Bunu sizə açıqlaya bilmərəm. Bu, mən və klubum arasında olan məsələdir. "Qarabağ"ı çox sevirəm. Qurban Qurbanov formamı bərpa etməyim üçün mənə çox kömək etdi. "Qarabağ"da qalıb-qalmamağımdan asılı olmayaraq, bu klub hər zaman qəlbimdə qalacaq".

Qeyd edək ki, Benzianın "Qarabağ"la müqavilə müddəti iyunun 30-da başa çatacaq.

## Cokoviçin 100-cü titul arzusu



**Serbiyalı məşhur raketka ustası Novak Cokoviç karyerasının 100-cü titulu uğrunda mübarizə aparacaq.**

Cokoviç Cenevrədə keçirilən ATP turnirinin yarımfinalında britaniyalı Kemeron Norriyə qalib gələrək finala yüksəlib. O, mayın 24-də turnirin finalında dünya 6-cısı polşalı peşəkar tennisçi Hubert Hurkaça qarşı mübarizə aparacaq.

37 yaşlı Novak Cokoviç karyerasında 13 müxtəlif il ərzində rekord sayda - 428 həftə ərzində Peşəkar Tennisçilər Assosiasiyası tərəfindən keçirilən kişilərin təkbətək yarışlarında dünya üzrə 1-ci yeri tutub, 8 dəfə isə ilin sonunda ilk pillədə qərarlaşıb.

# "Qələbələrin ardı gələcək"

**"Hər kəsi qələbə münasibəti ilə təbrik edirəm. Düşünürəm ki, azarkeşlərə xoş gün bəxş edə bildik. İnşallah, ardı gəlsin". Bu sözləri minifutbol üzrə milli komandamızın baş məşqçisi Elşad Quliyev dünya çempionatında Sloveniyaya 4:0 hesabı ilə qalib gəldikləri oyundan sonra deyib.**

Jurnalistlərin suallarını cavablandıran mütəxəssis Azərbaycan yığmasının Bakıda keçirilən dünya çempionatının favoritlərindən biri olduğunu söyləyib: "Turnirə çox ciddi hazırlaşmışıq. İlk oyunda bir qədər meydança amilinin təsiri oldu. Üstəlik, tribunalar dolu idi. Uşaqlar bir qədər problem yaşadılar. Bundan sonra bütün matçlarda belə oynayacağıq. Favorit komandalardan biriyik".



O, yığmaya dəstək olan azarkeşlərə də təşəkkür edib: "Hər kəsə "çox sağ ol" deyirəm. Fanatlar möhtəşəm idilər".

E.Quliyev "Sloveniya üzərində qələbə ilk turda Bəhreynlə görüşdəki heç-heçənin təsadüfi olduğunu göstərir?" sualını belə cavablandırıb: "Bizim komandanın gücü bu da deyil, daha böyükdür. Uşaqların oyun səviyyəsi yüksəkdir. İnanıram ki, bizi qarşıda daha yaxşı matçlar gözləyir. Hər oyuna belə hazırlaşsaq, qələbələrin ardı gələcək".

Millimizin baş məşqçisi Sloveniya ilə görüşdə qollardan birinin müəllifi olan, böyük futbolu minifutbola dəyişən "Xəzər Lənkəran"ın yetirməsi Kamran Abdullazadə barədə də fikirlərini bölüşüb: "Kamran yaxşı futbolçudur. Bir ildən artıqdır minifutbolda, "Zirə"də oynayır, həm də milliyə dəvət alır. Potensialı yüksəkdir. İstəməzdik ki, futbolu tez atsın. Xoşdur ki, "Xəzər Lənkəran"ın yetirməsinin bizə köməyi var. Amma Abdullazadə daha yaxşısını edə bilər",

E.Quliyev dünya çempionatındakı rəqiblərin güclü olduğunu vurğulayıb: "Çətin rəqiblər hələ qarşıdadır. İstəyirsən dünya, yaxud Avropa çempionu ol, meydana boş çıxsan, rəqiblər xal almağa qadirdir. Son dünya çempionu Rumıniya Çad millisinə uduzdu. Bəli, bu, təsadüf idi. Lakin qələbə qazanmaq üçün meydanda can qoymalısan".

*Hazırladı:*
*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*




# Həkimləri əvəz edən süni zəka klinikası

**Səudiyyə Ərəbistanında dünyada ilk dəfə olaraq diaqnostika və pasiyentlərin müalicəsini süni zəkanın həyata keçirdiyi klinika fəaliyyətə başlayıb. Layihə Çin şirkəti "Synyi AI" tərəfindən yerli "Almoosa Health Group" ilə əməkdaşlıq çərçivəsində həyata keçirilib. Süni zəka həkiminin ixtisaslaşdığı sahə tənəffüs yolları xəstəlikləridir. Onun diaqnostika və müalicə planının seçilməsində səhvetmə ehtimalı 0,3 faizdən aşağıdır. Təcrübənin məqsədi tənzimləyici orqanlar üçün məlumat toplamaq və təxminən 1,5-2 il ərzində bu cür süni zəka həkimlərinin geniş şəkildə tətbiqinə keçid üçün zəmin yaratmaqdır.**



Pasiyentlər simptomlarını planşet vasitəsilə təsvir edirlər. Daha sonra Dr.Hua adı verilmiş süni zəka dəqiqləşdirici suallar verir və tibbi assistentlər tərəfindən toplanmış EKQ və rentgen görüntüləri də daxil olmaqla təqdim olunmuş məlumatları təhlil edir. Bu məlumatlara əsaslanaraq süni zəka müalicə planı hazırlayır və bu plan daha sonra real həkim tərəfindən yoxlanılaraq təsdiqlənir. Bu yanaşma süni zəkanın səmərəliliyini insan nəzarətinin etibarlılığı ilə birləşdirməyə imkan verir. Hazırda Dr.Hua təxminən 30 tənəffüs yolu xəstəliyinin, o cümlədən astma və faringitin diaqnostikası üzrə ixtisaslaşıb.

Növbəti bir il ərzində diaqnostika edilən xəstəliklərin spektrinin 50-yə qədər genişləndirilməsi planlaşdırılır. Bura həmçinin qastroenteroloji və dermatoloji vəziyyətlər daxil ediləcək. Klinikanın xidmətləri hazırda pilot proqram çərçivəsində ödənişsiz təqdim olunur.

Bu proqram Səudiyyə Ərəbistanının tənzimləyici orqanlarından gələcəkdə rəsmi təsdiq almaq məqsədilə məlumat toplanmasına yönəlib. Dr. Hua süni zəka sistemi regionun tibbi terminologiyasına, dillərinə və mədəni xüsusiyyətlərinə uyğunlaşdırılmış lokallaşdırılmış dil modelləri əsasında qurulub. Bu, pasiyentlərlə daha dəqiq və uyğun qarşılıqlı əlaqəni təmin edir. Daxili sınaqlar diaqnostikada 0,3 faizdən az səhv payı ilə yüksək dəqiqlik göstərib.

Səudiyyə Ərəbistanı səhiyyə sahəsində innovativ texnologiyaların tətbiqini fəal şəkildə dəstəkləyir. Ölkədə rəqəmsal həllərin, o cümlədən süni zəkanın, 3D çapın və biotexnologiyaların sınaqdan keçirilməsi üçün "tənzimləyici sandbox" adlı xüsusi mühit yaradılıb. "Synyi AI" şirkəti toplanmış məlumatlardan istifadə edərək, növbəti 18 ay ərzində bu cür süni zəka həkimlərinin geniş miqyasda tətbiqi üçün hökumətdən tam təsdiq almağı planlaşdırır. Süni zəkanın ilkin tibbi yardıma inteqrasiyası səhiyyə sisteminə düşən yükü, xüsusilə ixtisaslı həkim çatışmazlığı olan bölgələrdə əhəmiyyətli dərəcədə azalda bilər. Lakin hüquqi məsuliyyət, şəxsi məlumatların qorunması və pasiyentlərin süni zəkaya olan etibarı ilə bağlı məsələlər hələ də açıq qalır.




## "Apple"ın smart gözlüyü təqdim olunacaq

**"Apple" smart gözlüyünü 2026-cı ilin sonuna qədər təqdim etməyi planlaşdırır. Şirkət bu ilin sonuna kimi gözlüyün prototiplərinin xarici təchizatçılar vasitəsilə istehsalına başlayacaq.**

"Apple"ın ağıllı gözlüyü kamera, mikrofon və səsgücləndiricilər ilə təchiz olunacaq. Bu, onlara ətraf mühiti analiz etməyə və səsli köməkçi "Siri" vasitəsilə sorğuları qəbul etməyə imkan verəcək. Gözlük həmçinin telefon zəngləri həyata keçirə, musiqi səsləndirə, canlı yayımlar edə və naviqasiya tətbiqində səsli göstərişlər verə biləcək. Bu yanaşma "Meta" şirkətinin ağıllı eynəklərini xatırladır.

"Meta"nın artırılmış reallığı dəstəkləyən tamfunksiyalı modeli isə 2027-ci ildən tez təqdim olunmayacaq. Bununla belə şirkət kamera ilə təchiz edilmiş naqilsiz "AirPods" qulaqcıqlarının istehsalına davam edəcək.

## "Xiaomi"nin növbəti elektromobili

**"Xiaomi" rəsmi olaraq ikinci elektromobili olan "YU7" krossoverini təqdim edib. Yeni model Standard, Pro və Max olmaqla 3 versiyada satışa çıxarılacaq.**



"Tesla Model Y"yə ciddi rəqib kimi təqdim olunan elektromobil təkmilləşdirilmiş texniki göstəriciləri, daha uzun məsafə qətetmə imkanı və müasir texnologiyaları ilə seçilir. Beşnəfərlik krossoverin uzunluğu 4999, eni 1996, hündürlüyü 1600 və təkər bazası 3000 mm-dir. Bu ölçülərlə "YU7" "Tesla Model Y"ni bir çox göstərici üzrə üstələyir. Müqayisə üçün bildirək ki, Çində istehsal olunan "Tesla Model Y"nin uzunluğu 4797, eni 1920 və təkər bazası 2890 mm-dir.

"Xiaomi YU7"nin Standard modeli arxa ötürücülü sistem və 320 at gücündə elektrik mühərriki ilə təchiz olunub. Tam ötürücülü Pro və Max versiyaları isə müvafiq olaraq 496 və 690 at gücündədir.

## "Tesla"dan pilotsuz taksi xidməti



**İlon Mask sahibi olduğu "Tesla" şirkətinin iyunun sonunda Texas ştatının Ostin şəhərində 10 avtomobillə pilotsuz taksi ("Robotaxi") xidmətinə başlayacağını elan edib.**

Onun sözlərinə görə, uğurlu və insidentsiz keçəcəyi halda xidmət tez bir zamanda minlərlə avtomobilədək genişlənəcək. Amerikalı sahibkar Ostin şəhərində planlaşdırılan debütündən sonra "Robotaxi" xidmətini Los-Anceles və San-Fransiskoya gətirmək niyyətində olduğunu bildirib. Xatırladaq ki, İlon Mask 2016-cı ildə "Tesla" sərmayədarlarına və müştərilərinə insan müdaxiləsi olmadan sərnişinləri təhlükəsiz daşıya bilən pilotsuz avtomobil təqdim edəcəyinə vəd vermişdi.

## "Quql Gemini" "Chrome"a inteqrasiya edilib




**"Quql" şirkəti süni zəka köməkçisi "Gemini"ni "Chrome" brauzerinə inteqrasiya edib.**

"Gemini" ilkin mərhələdə istifadəçi tərəfindən baxılan istənilən veb-səhifədəki mürəkkəb məlumatları dəqiqləşdirə və ya ümumiləşdirə biləcək. Gələcəkdə isə o, eyni anda bir neçə brauzer qovluğunda işləyə və istifadəçi adından internet saytları arasında hərəkət edə biləcək.

"Gemini" ilə qarşılıqlı əlaqəyə başlamaq üçün brauzerin yuxarı sağ küncündə yerləşən xüsusi düyməyə klikləmək kifayətdir. Bundan sonra süni zəka botu ilə qarşılıqlı əlaqə üçün bir pəncərə açılacaq. Pəncərəni ekranda istənilən yerə sürüşdürmək və ölçüsünü dəyişmək mümkündür. Bu pəncərədə istifadəçi baxdığı veb-səhifələr barədə "Gemini"yə suallar verə biləcək.

"Gemini" süni zəka köməkçisini "Chrome" brauzerinə gətirən yeniləmənin yayımı bu həftə başlayır. Bu funksiyanı ilk olaraq "Windows" və "macOS" əməliyyat sistemlərində "Chrome" istifadə edən, 18 yaşdan yuxarı, ana dili ingilis dili olan və "Quql AI Pro" və ya "Quql AI Ultra" abunəliyinə sahib istifadəçilər əldə edəcəklər.

## Təhlükəli işlərdə insanı əvəz edən robot

**"RoboForce" şirkəti təhlükəli şəraitdə mürəkkəb tapşırıqları yerinə yetirmək üçün hazırlanmış sənaye robotunu təqdim edib. "Titan" adlı robot 1 millimetr dəqiqliklə işləyir və 40 kiloqrama qədər yük qaldıra bilir.**



Onun manipulyatorlarının hərəkət radiusu 1100 millimetrdir. Bu isə cihaza tutmaq, daşımaq, basmaq, bükmək və detalları birləşdirmək kimi əməliyyatları yerinə yetirməyə imkan verir.

"Titan"ın avtonom işləmə müddəti 8 saatdır. Onun modul konstruksiyası iki əsas baza - təkərli və tırtıllı variantını dəstəkləyir. Gələcəkdə məhsul xəttinin genişləndirilməsi planlaşdırılır.

Robot artıq Günəş enerjisi, mədən, istehsal və kosmik sənaye sahələrində sınaqdan keçirilir. Yaxın vaxtlarda isə müştərilər üçün pilot proqramlara start veriləcək. "Titan"ın texnologiyası süni zəka və aparat təminatının birləşməsinə, eləcə də sistemin davamlı öyrənmə qabiliyyətinə əsaslanır. Robotun təqdimatı ilə paralel olaraq, şirkət əlavə 5 milyon dollar investisiya cəlb edib və ümumi maliyyələşdirmə həcmini 15 milyon dollara çatdırıb.

## Çində uçan taksilər fəaliyyətə başlayacaq

**Çinin "Ehang" şirkətinin maliyyə direktoru Conor Yang "South China Morning Post" nəşrinə verdiyi müsahibədə bildirib ki, 2030-cu ilə qədər Çin Xalq Respublikasının səmasında uçan marşrut taksilər hərəkət edəcək və bəzi şəhərlərdə infrastrukturun mövcudluğu halında fərdi marşrutlarla da fəaliyyət göstərəcəklər.**



Bir müddət öncə məlumat verilmişdi ki, bu ilin sonuna qədər şirkətin "EH216-S" elektrikli hava nəqliyyat vasitələrinin Quançjou və Hefey şəhərlərində turistlər üçün ekskursiya məqsədilə əvvəlcədən müəyyən edilmiş marşrutlar üzrə istifadəsi planlaşdırılır. Uçuş məsafəsi 30 kilometrə, maksimal sürəti isə 130 km/saat-a çata bilər. Çində satış qiyməti 331 min dollar olan "EH216-S" iki sərnişin daşımaq qabiliyyətinə malikdir.

*Hazırladı:*
*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

*Bazar günü etüdü*



# Xəzələ dönməyən yaşıl yarpaqlar

*Gözəlliyini görənlər çox haqlı olaraq yarpaqları ağacların paltarına bənzədiblər. Doğrudan da, yarpaqlarsız ağaclar necə də yaraşıqsız və çılpaq görünərdi. Zövqləri oxşamaz, ruha qida verməz, gözəlliyi ilə diqqətləri özünə cəlb etməzdi. İnsan da ağacları, meşələri, yaşıllıqları, dağları, dərələri bu qədər ürəkdən bəyənib sevməz, seyrinə dalmaz və qoynuna atılmazdı.*

*Zövqümüzü oxşayan yarpaqlara gözəllik verən bəlkə də onların bir-birinə bənzəməməsidir, fərqli olmasıdır. Sanki anamız təbiət onları yaradarkən insanları heyrətə salmaq üçün daha bir möcüzə göstərib. Yarpaqları bir-birinə bənzərsiz yaradıb. Nə qədər axtarsaq da, baxsaq da, yarpaqları nə formalarına, nə rənglərinə, nə də ölçülərinə görə bir-birinə bənzədə bilmirik. Hansı ağaca, hansı yarpağa baxırıqsa, möcüzələrlə üz-üzə, göz-gözə qalırıq. Baxa-baxa heyrətlənirik, heyrətlənə-heyrətlənə baxırıq. Yarpaqların bəziləri tam yaşıl rəngdədir, bəzilərinin rəngi bir az açıqdır, o birisinin rəngi sarı, digərinin rəngi qırmızıya çalır, başqasının rəngi azca bəyazdır. Amma onları oxşar edən cəhət də var - hamısının üzü gülür, özünü dünyanın ən xoşbəxti sanır sanki.*

*Yazın ılıq nəfəsini, gəlişini duyan yarpaqlar sevinə-sevinə budaqların üstündə sıraya düzülür. Havalar bir az da isinəndə isə qartallar kimi qanad açırlar. Yeri, göyü salamlayırlar, torpaqdan güc ala-ala böyüyürlər. Ağacları, ağacların üstündəki meyvələri günəşin isti şüalarından qoruyurlar. Günlər, həftələr bir-birinin ardınca sıralanıb keçir. Sanki hiss olunmadan yaz da, yay da ötüb arxada qalır. Yavaş-yavaş payız gəlir, günlərin istiliyi, qızmarlığı azalır. Vaxt, zaman üzü payıza yaxınlaşdıqca havalar soyuyur. Soyuyan havalar yarpaqları üşütməyə başlayır.*

*Payızın gəldiyini hiss edən yarpaqların "kefi pozulur". Yazdakı, yaydakı sevinci yavaş-yavaş üzündən, baxışlarından silinir. Düşən soyuqlardan üşüdükcə özü də hiss etmədən rəngi saralır, ürəyini, qəlbini "ölüm" qorxusu alır, qüvvəsi getdikcə azalır. Çox keçmir ki, əsən payız küləkləri ona güc gələrək neçə aydan bəri rahatca oturduğu, yatıb-durduğu, baş-başa qaldığı, söhbətləşdiyi, dərdləşdiyi budaqdan ayırır. Könülsüz-könülsüz ağacdan sürüşür, yellənə-yellənə, asta-asta yerə düşür. Yerə düşən kimi də torpaqla baş-başa qalır, onunla pıçıldaşır, dərdləşir sanki. Yavaş-yavaş xəzələ dönür, torpaqla qucaqlaşıb torpağa dönür. Bununla qısa ömrü sona çatır.*

*İnsan ömrü də yarpaqlara bənzəyir. Uşaqlıq, yeniyetməlik, gənclik, sonra da qocalıq... Yaşanmış günlər həyatımızdan yarpaqlar kimi tökülüb gedir, xəzələ dönür. Doyumsuz təravəti, isti hərarəti, əbədi zənn etdiyimiz cavanlığı ağrılara, acılara geniş qapı açan qocalıq əvəz edir. Sonra yavaş-yavaş həyat qocalığı da insanın əlindən alır. Və vaxt gəlir ki, qəflətən əsən soyuq külək - əcəl yarpaq kimi onu da illərdən bəri üstündə yaşadığı, onunla pıçıldaşdığı, söhbətləşdiyi "budaq"dan vurub yerə salır. Artıq gücdən, taqətdən düşmüş insan torpaqla baş-başa qalır, yarpaq kimi torpağa qarışır.*

*Qoy gözəl günlərini yaşadığımız həyatımızın payızı vaxtında gəlsin, qapımızı döyməyə tələsməsin. Ömür ağacımızın yarpaqları vaxtsız tökülməsin. Günəşli, sevincli sabahlarımız yaşamaq, həyatdan zövq almaq eşqiylə açılsın. Qəlbimizdən, ürəyimizdən könlümüzə həmişə sevinc saçılsın. Həyatın gözəlliyindən zövq ala-ala ömür yolumuza davam edək. Payızda tökülüb xəzələ dönən yarpaqlara yox, həmişə yaşıl olan, əbədi-əzəli yaşayan yarpaqlara bənzəyək. Zamandan möhlət alıb həyatın, ömrün dərinliklərinə doğru getdikcə gedək.*

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Bilmək istəyirəm

*Mən rayon qeydiyyatındayam, amma Bakıda yaşayıram. Bilmək istəyirəm: yaşadığım yer üzrə poliklinikadan tibbi xidmət almaq hüququm varmı, yoxsa qeydiyyat yeri üzrə müraciət etməliyəm?*

***Kifayət ORUCOVA,***
***Bakı şəhəri***

✓ Sualınızın cavabı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17.03.2020-ci il tarixli 92 saylı qərarı ilə təsdiq olunmuş "Sığortaolunanların ilkin tibbi-sanitariya yardımı üzrə dövlət tibb müəssisəsinə təhkimolunma Qaydası" ilə tənzimlənir. Qaydalara əsasən, sığortaolunan (sağlamlığı icbari qaydada sığortalanmış fiziki şəxs) yaşadığı ərazi tibb müəssisəsinə müraciət edə bilər. Yaşayış yeri dedikdə sığortaolunanın "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununa əsasən yaşayış yeri və ya olduğu yerin ünvanı üzrə inzibati ərazi vahidi (rayon, şəhər, şəhər rayonlara bölündükdə - şəhər rayonu) başa düşülür.

Beləliklə, əgər siz qeydiyyat ünvanında yaşamırsınızsa, adıçəkilən qanuna müvafiq qaydada olduğunuz yer üzrə qeydiyyata düşməlisiniz. Bundan sonra həmin ərazidəki tibb müəssisəsinə təhkim olunmalısınız. Bunun üçün olduğunuz yerin tibb müəssisəsinə təhkim olunmaq barədə ərizə ilə müraciət etməlisiniz. Həmin ərizəyə şəxsiyyətinizi təsdiq edən sənədi və olduğunuz ünvan üzrə qeydiyyata dair sənədi (olduğunuz yer üzrə arayış) əlavə etməlisiniz.

Siz rəsmi dövlət mobil portalı olan "E-polis" proqram təminatı vasitəsilə də olduğunuz yer üzrə qeydiyyata düşə bilər və həmin portaldan arayış əldə edə bilərsiniz.

Yuxarıda qeyd olunan sadə prosedurları etdikdən sonra siz daimi yaşayış qeydiyyatı üzrə deyil, olduğunuz yerin tibb müəssisəsinə müraciət edərək tibbi xidmətlərdən yararlana bilərsiniz.

*Qızımın 5 və 9 yaşlarında iki uşağı var, özü də gözündəki problemlə əlaqədar III qrup əlildir. Əmək məzuniyyətinə çıxanda ona 42 təqvim günü veriblər. Nə əmək stajı, nə də ki, iki azyaşlı uşağı olması nəzərə alınmayıb. Deyiblər ki, əlavə məzuniyyət düşmür. Bu, qanunazidd deyilmi? Bir də bilmək istəyirəm: iş ili nə deməkdir və məzuniyyət vaxtı bu dövr necə götürülür?*

***Şölə AXUNDZADƏ,***
***Bakı şəhəri***

✓ Sualınıza cavab olaraq bildiririk ki, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 119-cu maddəsinin 2-ci hissəsinə əsasən, əlilliyin qrupundan, səbəbindən və müddətindən asılı olmayaraq işləyən əlillərə əmək məzuniyyəti 42 təqvim günündən az olmayaraq verilir. Əmək Məcəlləsinin 118, 119, 120 və 121-ci maddələrində göstərilən işçilərə məcəllənin 116-cı maddəsinin 3-cü hissəsinə uyğun olaraq, əmək stajına görə (o cümlədən əmək şəraitinə görə), eləcə də 117-ci maddəsinin 4-ci hissəsinə müvafiq qaydada 14 yaşınadək iki və daha çox uşağa görə əlavə məzuniyyət tətbiq olunmur. Yəni qızınıza Əmək Məcəlləsinin 119-cu maddəsinin 2-ci hissəsinə uyğun əlilliyi olan işçi kimi 42 təqvim günü əmək məzuniyyəti verildiyi üçün həmin məcəllənin 116 və 117-ci maddələrinin I hissəsində müəyyən edilmiş əlavə məzuniyyətlərin verilməsi qanunla nəzərdə tutulmayıb. Odur ki, qüvvədə olan əmək qanunvericiliyinin şərtlərinə görə, qızınıza əmək məzuniyyəti qanunamüvafiq qaydada verilib.

Sualınızın ikinci hissəsinə gəldikdə qeyd etməliyik ki, sənədləşdirmə işlərində "iş ili" və "təqvim ili" terminlərindən geniş istifadə olunur. Amma bəzən təcrübədə bu terminlər qarışdırılır və ya yanlış anlaşılır.

Nəzərinizə çatdırırıq ki, əmək məzuniyyəti iş ilinə görə müəyyən olunur. Əmək Məcəlləsinin 113-cü maddəsinin 3-cü hissəsində nəzərdə tutulan qaydada iş ili işçinin işə götürüldüyü gündən başlayır və növbəti ilin həmin günü başa çatır. Misal üçün, tutaq ki, qızınız 17 may 2024-ci il tarixdə işə qəbul olunub. Bu halda qızınızın iş ili 17 may 2025-ci il tarixdə tamamlanır. Onun iş ili 17.05.2024-7.05.2025-ci il kimi qeyd olunacaq.

Təqvim ili isə yanvar ayının 1-dən başlayır və dekabr ayının 31-də bitir.

Əlavə edək ki, məzuniyyət təqvim günləri ilə hesablanır və Əmək Məcəlləsinin 114-cü maddəsinə əsasən, yalnız iş günü hesab edilməyən bayram günləri məzuniyyətin təqvim günlərinə daxil edilmir və həmin günlər üçün məzuniyyət haqqı ödənilmir.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Bu günün ağlı, sabahın gücü

**Süni intellekt son illərin ən çox müzakirə olunan texnoloji mövzusudur. Bu texnologiya artıq həyatımızın ayrılmaz hissəsinə çevrilib. Bir zamanlar yalnız filmlərdə gördüyümüz ağıllı sistemlər bu gün həkimlərin diaqnostikasında, müəllimlərin tədrisində, fabriklərin idarəetməsində və hətta dövlətlərin təhlükəsizlik sistemlərində istifadə olunur. Süni intellekt təkcə bir texnoloji alət deyil, o həm də dövlətlərin iqtisadi və siyasi güc balansında yeni mərhələdir.**



Müasir dünyada süni intellektdən istifadə olduqca genişdir. Səhiyyədə bu texnologiya artıq şişləri vaxtında müəyyən edən alqoritmlərdən tutmuş virtual həkimlərə qədər inkişaf edib. Maliyyə sektorunda o, kredit risklərinin qiymətləndirilməsi, bazar tendensiyalarının proqnozlaşdırılması və fırıldaqçılıq hallarının aşkarlanmasında mühüm rol oynayır. İstehsalatda isə robotlar və ağıllı sensorlar məhsuldarlığı artırır, xəta ehtimalını azaldır və xərcləri minimuma endirir. Bu gün artıq avtonom nəqliyyat sistemləri, "ağıllı şəhər" və "ağıllı kənd təsərrüfatı" kimi anlayışlar da reallığa çevrilir.

Bəs bu qədər güclü texnologiyaya hansı ölkələr nə qədər diqqət ayırır? 2025-ci ilə qədər süni intellektə ən çox vəsait ayıran ölkələr sırasına ABŞ, Çin, Avropa İttifaqı, Böyük Britaniya, Hindistan, İsrail və Kanada daxildir. Təkcə ABŞ süni intellekt sahəsinə illik 140 milyard dollara yaxın investisiya ayırır. Bu investisiyalar əsasən müdafiə, səhiyyə və elmi tədqiqat sahələrinə yönəldilir. Çin təxminən 120 milyard dollarla bu sahədə ikinci yerdədir. Çin əsas diqqəti videomüşahidə, sənaye avtomatlaşdırması və süni intellektlə tədris sahələrinə yönəldir. Avropa İttifaqı isə daha çox etik tənzimləmə və innovasiya ekosisteminin qurulmasına 50 milyard avroya yaxın büdcə ayırıb.

Azərbaycan da bu yarışda geri qalmamağa çalışır. "Rəqəmsal transformasiya" strategiyasında süni intellektin dövlət idarəçiliyində, gömrük və vergi sistemlərində, e-təhsildə və elektron səhiyyədə tətbiqi üçün ilk addımlar atılıb. Lakin bu sahədə daha genişmiqyaslı elmi-tədqiqat və startap dəstəyi vacibdir ki, Azərbaycan bu texnologiyanı yalnız istifadə edən deyil, həm də yaradan ölkəyə çevrilsin.

Gələcəkdə süni intellektin tətbiq sahələri daha da genişlənəcək. Xüsusilə hüquq sahəsində alqoritmlər qanuni sənədləri təhlil edəcək, məhkəmə proseslərində qərar dəstəyi verəcək. İnsan beyninin süni interfeyslərlə birləşdirilməsi, yəni insanın düşüncələri ilə kompüterləri idarə etməsi reallığa çevriləcək. "Süni ümumi intellekt" (AGI) adlanan və insan səviyyəsində düşünə bilən sistemlərin inkişafı isə artıq bir neçə nəhəng texnoloji şirkətin əsas hədəfidir. Belə bir mərhələdə süni intellekt yalnız icraçı yox, düşünən və qərar verən varlıq kimi qəbul oluna bilər.

Bəs süni intellektin tarixi barədə nə məlumdur? Süni intellekt ideyası ilk dəfə 20-ci əsrin ortalarında elmi çərçivəyə salınsa da, bu anlayışın kökləri daha qədim zamanlara gedib çıxır. Antik Yunan mifologiyasında insanlar tərəfindən yaradılan süni varlıqlardan bəhs olunması insanların ağıllı maşın yaratmaq arzularının nə qədər qədim olduğunu göstərir. Lakin süni intellektin rəsmi elmi tarixi 1950-ci illərdən başlayır. 1950-ci ildə britaniyalı riyaziyyatçı Alan Turing "Maşınlar düşünə bilərmi?" sualını irəli sürdü və Turing testi adlanan konsepsiyanı təklif etdi. Testin məqsədi bir maşının insan kimi düşünüb-düşünmədiyini müəyyənləşdirmək idi. Bu fikir süni intellekt sahəsində ilk nəzəri bünövrəni yaratdı.

1956-cı ildə ABŞ-nin Dartmouth Kollecində keçirilən məşhur konfransda "Artificial Intelligence" (süni intellekt) ilk dəfə elmi termin kimi təqdim olundu. Həmin konfrans süni intellektin doğuluşu hesab olunur və burada iştirak edən elm adamları süni intellektin yaxın gələcəkdə insan zehni səviyyəsində işləyə biləcəyinə inanırdılar. Lakin gözləntilər tez bir zamanda reallaşmadı. 1970-1980 və 1990-2000-ci illərdə texnoloji məhdudiyyətlər və maliyyə dəstəklərinin azalması səbəbilə sahədə durğunluq dövrləri yaşandı. Bu mərhələlər tarixə "AI Winter" (süni intellektin qış dövrü) kimi düşdü.

Yenidən canlanma isə 2010-cu illərdən başladı. Böyük məlumat bazaları, sürətli prosessorlar və dərin öyrənmə (deep learning) texnologiyalarının inkişafı süni intellekti yenidən populyarlaşdırdı. Bu dövrdən etibarən onun tətbiq sahələri sürətlə artmağa başladı və bugünkü inkişaf səviyyəsinə çatdı.

Süni intellektin gələcək rolu isə təkcə texnoloji tərəqqi ilə məhdudlaşmır. O həm də ölkələrin geosiyasi mövqeyini təyin edəcək faktorlardan biri olacaq. ABŞ və Çin texnoloji güc uğrunda rəqabətdə ön sıralardadır. ABŞ daha çox innovasiya və fundamental elmi tədqiqatlarda liderdirsə, Çin sürətli tətbiq və texnoloji yayım baxımından öndədir. Avropa isə bu yarışda daha çox etik prinsipləri qoruyan və texnologiyanı cəmiyyətin rifahı üçün balanslaşdırılmış şəkildə tətbiq etməyə çalışan bir oyunçu kimi çıxış edir.

Nəticə etibarilə süni intellekt artıq gələcəyin texnologiyası deyil, bu günün reallığıdır. İqtisadiyyat, təhsil, səhiyyə, sənaye və idarəetmədə bu texnologiyanı düzgün və məsuliyyətli şəkildə istifadə edənlər gələcəyin qalibləri olacaqlar. Azərbaycanın da bu sahəyə vaxtında və ağıllı şəkildə yönəlməsi həm daxili inkişaf, həm də qlobal rəqabət üçün vacibdir. Gələcək artıq gəlir və onun dili süni intellektdir.

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***

# Növbəti çətin gecə

**Ukrayna Hərbi Hava Qüvvələri komandanlığının məlumatına görə, mayın 24-nə keçən gecə Rusiya qoşunları 14 "İskəndər-M/KN-23" ballistik raketi, 250-yə yaxın "Şahed" hücum pilotsuz uçuş aparatı və müxtəlif tipli pilotsuz imitator təyyarələrdən istifadə edərək Ukraynaya son zamanların ən kütləvi zərbələrindən birini endirib.**



Bildirilir ki, raketlər Bryansk vilayəti, Taqanroq, Yeysk və işğal olunmuş Krım ərazilərindən atılıb. Əsas hədəf yenə Kiyev olub. Hava Hücumundan Müdafiə Qoşunları Kiyevə istiqamətlənmiş 9 ballistik raketdən 6-nı vurub. Bundan əlavə, düşmənin 245 pilotsuz uçan aparatı məhv edilib - 128-i odlu silahlarla vurulub, 117-si isə mənfi nəticələr vermədən elektron müharibə vasitələrilə zərərsizləşdirilib.

Yerli polisin məlumatına görə, Rusiyanın Kiyevdə endirdiyi zərbələr nəticəsində azı 15 nəfər yaralanıb - 7 nəfər Solomenski rayonunda, 2 nəfər Dneprovskidə, 5 nəfər Obolonskidə və 1 nəfər Qoloseyevskidə.

Kiyev şəhər administrasiyası qeyd edib ki, bu, Ukrayna paytaxtına kombinə şəklində ən kütləvi hücumlardan biridir. Şəhərdə yanğınlar baş verib, çoxmərtəbəli yaşayış evləri, qeyri-yaşayış binaları və infrastruktur obyektləri, ticarət mərkəzi, avtomobillərə ziyan dəyib.

Prezident Volodimir Zelenski mayın 24-nə keçən gecə Rusiya ordusunun Ukraynanı irimiqyaslı raket və pilotsuz təyyarələrdən atəşə tutmasından danışarkən deyib ki, Moskva təcavüzünü dayandırmaq niyyətində olmadığını bir daha göstərdi. Zelenski növbəti dəfə tərəfdaşlarını işğalçıları real diplomatiya ilə məşğul olmağa məcbur etmək üçün Rusiya Federasiyasına sanksiya təzyiqini gücləndirməyə çağırıb. Bu barədə Ukrayna Prezidenti öz "Teleqram" kanalında yazıb. Prezident bildirib ki, Kiyevdə mütəxəssislər Rusiya raketlərinin və pilotsuz təyyarələrin hissələrini zərərsizləşdirməyə davam edir. Çarpma və dağıntıların uçduğu yerlərdə xilasetmə işləri davam edir, təcili yardım xidmətləri işləyir. Ukrayna lideri onu da vurğulayıb ki, gecə ərzində Rusiya qoşunları ölkə ərazisinə 14 ballistik raket və 250 hücum pilotsuz təyyarəsi atıb ki, onların da böyük əksəriyyəti İran "Şahed"ləridir. Prezidentin dediyinə görə, Odessa, Vinnitsa, Sumı, Xarkov, Donetsk, Kiyev və Dnepr vilayətləri zərər çəkib. Üstəlik, düşmən hər yerdə mülki hədəflərə hücum edib, nəticədə dinc sakinlər arasında itkilər var.

Dövlət başçısı bildirib ki, hər belə atəşlə dünya müharibənin uzanmasının səbəbinin Moskvada olduğuna əmin olur. Ukrayna dəfələrlə həm tam, həm də səmada atəşkəs təklif edib, lakin ruslar bütün bu təşəbbüslərə məhəl qoymayıblar. "Aydındır ki, nəticə əldə etmək və real diplomatiyaya başlamaq üçün Rusiyaya daha çox təzyiq göstərməliyik. Biz ABŞ, Avropa və bütün tərəfdaşlarımızdan sanksiyalar gözləyirik. Yalnız Rusiya iqtisadiyyatının əsas sektorlarına qarşı əlavə sanksiyalar Moskvanı atəşi dayandırmağa məcbur edəcək. Kömək edən və dəstəkləyən hər kəsə təşəkkür edirəm", - Zelenski yazıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Bu gün 28 dərəcə isti olacaq

**Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, mayın 25-də Bakıda və Abşeron yarımadasında mülayim şimal-qərb küləyi arabir güclənəcək. Havanın temperaturu gecə 15-17°, gündüz 24-27° isti olacaq.**

Atmosfer təzyiqi 760 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 65-75 faiz, gündüz 45-50 faiz olacaq.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz olacaq. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq, mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 14-18°, gündüz 23-28° isti, dağlarda isə gecə 5-10°, gündüz 14-19° isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz olacaq. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman gözlənilir. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 13-18°, gündüz 25-30° isti təşkil edəcək.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöldə əsasən yağmursuz hava proqnozlaşdırılır. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 15-20°, bəzi yerlərdə 25° isti olacaq.

Şərqi Zəngəzurda - Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz olacaq. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi, arabir duman gözlənilir. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 15-20°, bəzi yerlərdə 25° isti təşkil edəcək.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda əsasən yağmursuz gözlənilir. Lakin gündüzdən bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Arabir duman proqnozlaşdırılır. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 11-16°, gündüz 22-27° isti, dağlarda gecə 5-10°, gündüz 15-20° isti təşkil edəcək.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3599
Sifariş 1029

Qiyməti 60 qəpik